

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 may 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU Elmi Şurasının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclası** →Səh.2

**BDU və Masallı Rayon İcra Hakimiyyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirib** →Səh.3

**BDU Türkiyənin İstanbul Texniki Universiteti ilə birgə layihələrə başlayıb** →Səh.13

**BDU-nun həmtəşkilatçılığı ilə Özbəkistanda Avrasiyanın biomüxtəlifliyinin mühafizəsinə dair Beynəlxalq konfrans keçirilib** →Səh.14

**Məktəblilərarası Astronomiya Olimpiadasının Respublika seçim turu keçirilib** →Səh.16

**BDU-nun tələbələrdən ibarət futzal komandası turnirin üçüncüsü olub** →Səh.23



**"Yeni Azərbaycan Partiyası Heydər Əliyevin şah əsəridir" mövzusunda tədbir keçirilib** →Səh.4



**"Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" mövzusunda konfrans** →Səh.5



**BDU və İsrailin Yerusəlim İbrani Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqavilələri imzalanıb** →Səh.11



**Türkiyənin Qars Qafqaz Universitetinin rektoru ilə görüş** →Səh.12



**Rektor Elçin Babayev "TEKNOFEST-2023"də iştirak edən BDU komandalarının üzvləri ilə görüşüb** →Səh.24



# Xalqımızın tarixi arzularını gerçəkləşdirmiş lider

***Bu günlərdə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi respublikamızın şəhər və rayonlarında, müəssisə və təşkilatlarında, elm, təhsil və mədəniyyət ocaqlarında, o cümlədən dünya azərbaycanlılarının iştirakı ilə xarici ölkələrdə təntənəli şəkildə qeyd edilir, dahi şəxsiyyətin əziz xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilir.***

Bu gün qədirbilən xalqımız onu ağır sınaqlardan siyasi müdrikliklə və məharətlə, əzmi və iradəsi, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə və tərəqqiyə qovuşdurmuş Ulu öndər Heydər Əliyevi dərin minnətdarlıq hissi ilə, böyük sevgi və ehtiramla yad edir. Əziz və unudulmaz xatirəsi hər zaman bizimlə olan Ümummilli liderimizin heç vaxt bitməyəcək, əsrlər boyu yaşayacaq mənəvi ömrünün 100-cü zirvəsindən yaşanmış dövrə baxdıqca xalqımızın və dövlətimizin ötən əsrin 70-ci illərindən başlayaraq əldə etdiyi bütün uğurların təməlində Heydər Əliyevin dövlət siyasətinin, bu fenomenal şəxsiyyətin nurlu əməllərinin və parlaq simasının dayandığının bir daha şahidi oluruq.

Həyatının əsas məqsədi, başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan Ulu öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına həsr etmiş, milli-mənəvi dəyərlərimizə söykənərək, dövlətimizin möhkəmlənməsində, xalqımızın rifahının yüksəldilməsində misilsiz xidmətlər göstərmiş, bu müqəddəs missiyanı şərəflə və uğurla, mərdliklə və müdrikliklə yerinə yetirmişdir.

1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilərək ali idarəçilik postuna – SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən Heydər Əliyev SSRİ-nin 5 il ərzində ilk və yeganə müsəlman əsilli rəhbərlərindən biri olmuşdur. Ulu öndər bu illər ərzində də tutduğu vəzifənin ona verdiyi imkanları doğma xalqının rifahı və tərəqqisinə yönəltmişdir. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1987-ci ildə Sovet İttifaqı rəhbərliyinin və şəxsən M.Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz əlaməti olaraq Ulu öndər tutduğu bütün vəzifələrdən istefa vermişdir. Bununla da Azərbaycanın ağır, məşəqqətli günləri başlamışdır.

Ölkənin siyasi rəhbərlərinin səriştəsizliyi, vəzifə davası, sonralar isə AXC–Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində Qanlı 20 Yanvar, Xocalı, Sumqayıt faciələri törədildi, əzəli torpaqlarımız işğal olundu, ölkədə anarxiya, xaos, aclıq, səfalət tüğyan etməyə başladı. Əhalinin yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşdü, maddi vəziyyəti pisləşdi, insanların sabaha inamı itdi. 1993-cü ilin ortalarında isə ölkədə vətəndaş müharibəsinin baş verməsi, dövlətçiliyin itirilməsi və Azərbaycan Respublikasının bir ölkə kimi dünya xəritəsindən silinməsi təhlükəsi ilə üzləşdik.

Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatının ən çətin dövrlərində Heydər Əliyev özünün xilaskarlıq missiyası ilə doğma xalqının yanında olmuş, ona yüksək diqqət və qayğı ilə yanaşmış, insanların köməyinə çatmışdır. Dərin bilik və bacarıqlarından, zəngin təcrübəsindən və şəxsi keyfiyyətlərindən qaynaqlanan möhtəşəm fəaliyyəti sayəsində müstəqil və demokratik Azərbaycan dövlətinin memarı və qurucusu olan Ümummilli lider Heydər Əliyev xalqımızın yaddaşında əbədi həkk olmuş, insanların qəlbində özünə qarşı sonsuz məhəbbət və sevgi qazanmışdır.

Ölkəmiz üçün olduqca çətin və mürəkkəb, xalqımız üçün ağrılı olan belə bir dövrdə Ulu öndər Heydər Əliyev yenidən xalqımızın nicatı oldu, xalqın çağırışı ilə yenidən və bu dəfə daha böyük əzm və inamla Azərbaycana rəhbərliyə qayıdaraq xilaskarlıq missiyasını davam etdirdi.

*(ardı 2-si səhifədə)*

# Xalqımızın tarixi arzularını gerçəkləşdirmiş lider



***1993-cü ilin 15 iyun tarixi, müdrik xalqımız tərəfindən haqlı olaraq Milli Qurtuluş Günü adlandırılan bu əlamətdar tarix xalqımızın və dövlətimizin taleyində ciddi dönüş nöqtəsi oldu.*** Ulu öndər tərəfindən qısa bir zamanda müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövlətinin inkişaf strategiyası müəyyən edildi. Bu strategiyanın siyasi, iqtisadi, hərbi, sosial sferalarda uğurla gerçəkləşdirilməsi üçün Ümummilli lider tərəfindən qətiyyətli addımlar atıldı, nəhəng layihələr həyata keçirildi. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiyasının və enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Qardaş Türkiyənin, dost və tərəfdaş ölkələrin dəstəyi ilə haqq səsimiz dünyada eşidilməyə başladı. Azərbaycan dünya birliyində etibarlı tərəfdaş kimi qəbul olundu. Ölkəyə yatırılan investisiyalar, prioritet sahələrdə həyata keçirilən beynəlxalq layihələr, Ulu öndər Heydər Əliyevin misilsiz neft strategiyası dövlətimizin qüdrətini artırdı, beynəlxalq aləmdə nüfuzunu yüksəltdi. Nəticədə illər sonra möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılacaq tarixi qələbənin təməli qoyulmuş oldu.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazılmışdır. İqtisadiyyatına milyardlarla dollar investisiya qoyulan Azərbaycanda ümumi daxili məhsul dəfələrlə artdı, ölkəmiz sosial-iqtisadi inkişafa nail oldu, müstəqil dövlətin hüquqi-siyasi əsasları formalaşdırıldı, ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Xalqımızın qədim və zəngin milli-mənəvi dəyərləri qorunub saxlanıldı, azərbaycançılıq məfkurəsi milli ideologiya səviyyəsinə yüksəldi. Ölkəmizin beynəlxalq nüfuzu, iqtisadi və hərbi qüdrəti yüksək mərhələyə qədəm qoydu.

Azərbaycanın bir dövlət kimi prioritetlərini, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyasını müəyyənləşdirən Ulu öndər Heydər Əliyevin xalqımıza ən böyük töhfəsi isə heç şübhəsiz ki, bu gün dünya siyasətinin fenomeni olan cənab İlham Əliyev kimi siyasi varisini yetişdirməsi oldu. 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə və qətiyyətlə həyata keçirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi.

Ulu öndərimizin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" kəlamında əksini tapmış arzuları həyata keçirildi. Cənab İlham Əliyev ata vəsiyyətini, onun xalqımızın işğal olunmuş ərazilərimizin azad edilməsi ilə bağlı ən ülvi, ən müqəddəs arzusunu şərəflə yerinə yetirdi. 2020-ci ildə qardaş Türkiyənin siyasi dəstəyi, müdrik xalqımızın sarsılmaz birliyi, şəhidlərimizin canı, qazilərimizin qanı, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi, iradəsi və qətiyyəti sayəsində cəmi 44 gün ərzində 30 illik işğal bitdi, ən azı iki yüz illik problem tarixin arxivinə çökmüş oldu.

Müzəffər xalq olduğunu bütün dünyaya sübut etmiş xalqımız Ulu öndər Heydər Əliyevin 100 illik yubileyini ona olan sonsuz sevgi və ehtiram hissi ilə yanaşı, böyük qürur, fəxarət və ölkə rəhbərinə dərin minnətdarlıq hissləri ilə qarşılayır. Bu gün dahi şəxsiyyətin savab əməllərini onun adını daşıyan fond özünün xeyriyyəçilik fəaliyyəti ilə layiqincə yaşadır. Xalqımız ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi, yaradılmasının 20 illik yubileyini qeyd edəcəyimiz Heydər Əliyev Fondunun Azər-baycan xalqının qədim tarixi və zəngin mədəniyyətinin dünyada tanıdılması, ulu öndərin tükənməz irsinin tədqiqi və təbliği istiqamətində əvəzsiz xidmətlərini yüksək dəyərləndirir.

Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, ulu öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, xalqımızın və dövlətimizin milli sərvəti və milli iftixarı adlandırdığı Bakı Dövlət Universitetindəki kollektivi də bütün azərbaycanlılar kimi 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncamı rəğbətlə qarşılamışdır və həmişə olduğu kimi bu yubiley günlə-rində də ulu öndərin əziz xatirəsini dərin hörmət və böyük ehtiramla yad edir. Bu qocaman təhsil ocağında çalışan hər bir alim, tədqiqatçı və müəllim, elmi biliklərə yiyələnən hər bir tələbə əbədiyaşar Heydər Əliyevin zəngin və tükənməz irsinin tədqiqi və təbliğini özünün ən ali məqsədlərindən biri hesab edir.

Biz fəxr edirik ki, 104 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis edilmiş və Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə intibah dövrünə qədəm qoymuş Bakı Dövlət Universitetinin inkişafının son 20 ildəki yeni mərhələsi dahi şəxsiyyətin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Elm və təhsil əsri adlandırılan XXI əsrdə müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafını elm və təhsildə, bilikli insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı BDU-nun cəmiyyətdəki yeri və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirir, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri uğurla həyata keçirir.

Fikirlərimi 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncamda yer almış aşağıdakı fikirlə bitirmək istərdim: "Müstəqil Azərbaycan Ulu öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir". Bu gün hər birimiz səylə çalışmalı, bu şərəfli vəzifənin layiqincə yerinə yetirilməsinə öz töhfəmizi verməliyik.

***Elçin BABAYEV,***
*Bakı Dövlət Universitetinin rektoru*

*Mənbə: "Xalq qəzeti" 10.05.2023*

# BDU Elmi Şurasının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclası

***Mayın 12-də BDU-nun Elmi Şurasının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş genişləndirilmiş xüsusi iclası keçirilib.***

Elmi Şura üzvləri Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

İclasda çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, qədirbilən xalqımız onu ağır sınaqlardan siyasi müdriklik və məharətlə, əzmi və iradəsi, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə və tərəqqiyə qovuşdurmuş Ulu Öndər Heydər Əliyevi dərin minnətdarlıq hissi, böyük sevgi və ehtiramla yad edir. Xalqımızın və dövlətimizin ötən əsrin 70-ci illərindən başlayaraq əldə etdiyi bütün uğurların təməlində fenomenal şəxsiyyət olan Heydər Əliyevin dövlət siyasəti, nurlu əməlləri və parlaq siması dayanır. Həyatının əsas məqsədi, başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan Ulu Öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına həsr edib, dövlətimizin möhkəmlənməsində, xalqımızın rifahının yüksəldilməsində misilsiz xidmətlər göstərib, bu müqəddəs missiyanı şərəflə və uğurla, mərdlik və müdrikliklə yerinə yetirib. 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilərək SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən Heydər Əliyev 5 il ərzində SSRİ-nin ilk və yeganə müsəlman əsilli rəhbərlərindən biri olub. Ulu Öndər bu illər ərzində də tutduğu vəzifənin ona verdiyi imkanları doğma xalqının rifahı və tərəqqisinə yönəldib.




Rektor qeyd edib ki, ölkəmiz üçün olduqca çətin və mürəkkəb, xalqımız üçün ağrılı olan 1993-cü ildə Ulu Öndər Heydər Əliyev yenidən xalqımızın nicatı oldu, xalqın çağırışı ilə yenidən və bu dəfə daha böyük əzm və inamla Azərbaycana rəhbərliyə qayıdaraq xilaskarlıq missiyasını davam etdirdi. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazılıb. İqtisadiyyatına milyardlarla dollar investisiya qoyulan Azərbaycanda ümumi daxili məhsul dəfələrlə artdı, ölkəmiz sosial-iqtisadi inkişafa nail oldu, müstəqil dövlətin hüquqi-siyasi əsasları formalaşdırıldı, ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Xalqımızın qədim və zəngin milli-mənəvi dəyərləri qorunub saxlanıldı, azərbaycançılıq məfkurəsi milli ideologiya səviyyəsinə yüksəldi. Ölkəmizin beynəlxalq nüfuzu, iqtisadi və hərbi qüdrəti yüksək mərhələyə qədəm qoydu. Azərbaycanın bir dövlət kimi prioritetlərini, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyasını müəyyənləşdirən Ulu Öndərin xalqımıza ən böyük töhfəsi isə heç şübhəsiz ki, bu gün dünya siyasətinin fenomeni olan Prezident İlham Əliyev kimi siyasi varisini yetişdirməsi oldu. 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə və qətiyyətlə həyata keçirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi, iradəsi və qətiyyəti sayəsində cəmi 44 gün ərzində 30 illik işğal bitdi, ən azı iki yüz illik problem tarixin arxivinə çökmüş oldu.

Elçin Babayev Ulu Öndərin hər zaman sonsuz diqqət və qayğı ilə yanaşdığı, "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, "xalqımızın və dövlətimizin milli sərvəti və milli iftixarı" adlandırdığı BDU-nun kollektivinin Ümummilli Liderin əziz xatirəsini dərin hörmət və böyük ehtiramla yad etdiyini bildirib: "Fəxr edirik ki, 104 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis edilmiş və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə intibah dövrünə qədəm qoymuş BDU-nun inkişafının son 20 ildəki yeni mərhələsi dahi şəxsiyyətin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanın hərtərəfli inkişafını elm və təhsildə, bilikli insan kapitalının formalaşdırılmasında görən dövlət başçısı BDU-nun cəmiyyətdəki yeri və rolunu, ictimai əhəmiyyətini daim yüksək dəyərləndirir, onun davamlı yüksəlişi, tərəqqisi naminə bütün zəruri tədbirləri uğurla həyata keçirir".

Daha sonra BDU-nun Sosiologiya kafedrasının professoru İzzət Rüstəmov, Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev çıxış edərək Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanılmasındakı xilaskarlıq missiyasını nəzərə çatdırıblar. Çıxışlarda dahi liderin həyat və fəaliyyətinin hər bir azərbaycanlı üçün nümunə olduğu vurğulanıb. Qeyd olunub ki, Azərbaycanın əldə etdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən nailiyyətlərin təməlində Ümummilli Liderin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursu dayanır.

İclasın sonunda BDU əməkdaşları və tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş məqalə və esse müsabiqələrinin nəticələri açıqlanıb.

# BDU və Masallı Rayon İcra Hakimiyyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirib

***Mayın 19-da BDU və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.***

Konfransdan əvvəl Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, BDU-nun rektoru Elçin Babayev, Universitetin professor-müəllim heyəti Ümummilli Lider Heydər Əliyevin Masallı şəhərindəki abidəsini, Şəhidlər kompleksini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans öz işinə başlayıb. Əvvəlcə Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda açılış nitqi ilə çıxış edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Ulu Öndərin Azərbaycan xalqının və dövlətinin həyatındakı tarixi xilaskarlıq missiyasından söz açıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir. Ulu Öndər xalqımızın və dövlətimizin qarşısında duran çətinlikləri aradan qaldırmaqla Azərbaycan dövlətini qısa zamanda hüquqi, dünyəvi, demokratik dövlətə çevirib. Bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi çağdaş tariximizdə əbədiləşib.

BDU-nun rektoru Elçin Babayev isə çıxışında qeyd edib ki, XX əsrin 70-ci illərindən başlayaraq xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində məhz Ulu Öndər Heydər Əliyev siyasəti, bu fenomenal şəxsiyyətin işıqlı əməlləri, parlaq siması dayanır: "Ümummilli Liderimiz dünyaya xüsusu missiyanı yerinə yetirmək üçün gəlmişdi. Bu missiya Azərbaycanın indiki müstəqil, qüdrətli dövlətə çevrilməsi missiyası idi. Həyatının əsas məqsədi, başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan Ulu Öndər bütün mənalı ömrünü bu məqsədə nail olunmasına həsr edib, dövlətimizin möhkəmlənməsində, xalqımızın rifahının yüksəldilməsində misilsiz xidmətlər göstərib, bu müqəddəs missiyanı şərəflə və uğurla, mərdlik və müdrikliklə yerinə yetirib. 1982-ci ildə Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilərək SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkilən Heydər Əliyev 5 il ərzində SSRİ-nin ilk və yeganə müsəlman əsilli rəhbərlərindən biri olub. Ulu Öndər bu illər ərzində də tutduğu vəzifənin ona verdiyi imkanları doğma xalqının rifahı və tərəqqisinə yönəldib.





Rektor qeyd edib ki, ölkəmiz üçün olduqca çətin və mürəkkəb, xalqımız üçün ağrılı olan 1993-cü ildə Ulu Öndər Heydər Əliyev yenidən xalqımızın nicatı oldu, xalqın çağırışı ilə yenidən və bu dəfə daha böyük əzm və inamla Azərbaycana rəhbərliyə qayıdaraq xilaskarlıq missiyasını davam etdirdi. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ölkəyə rəhbərlik etdiyi 1993-2003-cü illər müstəqil Azərbaycanın tarixinə qızıl dövr kimi yazılıb. İqtisadiyyatına milyardlarla dollar investisiya qoyulan Azərbaycanda ümumi daxili məhsul dəfələrlə artdı, ölkəmiz sosial-iqtisadi inkişafa nail oldu, müstəqil dövlətin hüquqi-siyasi əsasları formalaşdırıldı, ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Xalqımızın qədim və zəngin milli-mənəvi dəyərləri qorunub saxlanıldı, azərbaycançılıq məfkurəsi milli ideologiya səviyyəsinə yüksəldi. Ölkəmizin beynəlxalq nüfuzu, iqtisadi və hərbi qüdrəti yüksək mərhələyə qədəm qoydu. Azərbaycanın bir dövlət kimi prioritetlərini, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyasını müəyyənləşdirən Ulu Öndərin xalqımıza ən böyük töhfəsi isə heç şübhəsiz ki, bu gün dünya siyasətinin fenomeni olan Prezident İlham Əliyev kimi siyasi varisini yetişdirməsi oldu. 2003-cü ildə xalqımızın birmənalı dəstəyi ilə Prezident seçilən cənab İlham Əliyev ötən illər ərzində sarsılmaz təməlləri Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik siyasətini əzmlə və qətiyyətlə həyata keçirərək ölkəmizi dünyanın qüdrətli dövlətlərindən birinə çevirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi, siyasi və informasiya cəbhələrindəki mahir sərkərdəliyi, iradəsi və qətiyyəti sayəsində cəmi 44 gün ərzində 30 illik işğal bitdi, ən azı iki yüz illik problem tarixin arxivinə çökmüş oldu.

Rektor bildirib ki, Ulu Öndər Heydər Əliyev məzunu olduğu, qürurla "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universitetinə də hər zaman qayğı ilə yanaşıb. Ümummilli Liderin təhsil illəri və sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin bütöv bir mərhələsini təşkil edir.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin ömür yoluna həsr olunmuş video nümayiş olunub.

Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, BDU-nun kafedra müdiri Anar İsgəndərov "Müstəqil Azərbaycan dövlətinin qurucusu", MM-in deputatı Məşhur Məmmədov "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı", YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev "Azərbaycanın parlaq günəşi", Mətbuat Şurası İdarə Heyətinin üzvü, Jurnalistika fakültəsinin kafedra müdiri Qulu Məhərrəmli "Heydər Əliyev və mətbuat", YAP Yasamal rayon təşkilatının sədri, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dosenti Bəxtiyar Nəbiyev "Heydər Əliyevin Azərbaycanın iqtisadi inkişafında rolu (1969-1982-ci illər)", Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva "Heydər Əliyev irsi – tədqiq və təbliğ", Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev "Heydər Əliyev – dövlətçilik məktəbi", YAP Gənclər Birliyi İdarə Heyətinin üzvü, Geologiya fakültəsinin müəllimi İlqar Quliyev "Ümummilli Liderin gənclər siyasəti" mövzularında çıxışlar ediblər.

Çıxışlarda dahi liderin həyat və fəaliyyətinin hər bir azərbaycanlı üçün nümunə olduğu, Azərbaycanın əldə etdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən nailiyyətlərin təməlində Ümummilli Liderin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun dayandığı vurğulanıb.

# BDU alimləri Masallı məktəblilərinə Ümummilli Lider Heydər Əliyevin irsi ilə bağlı mühazirə deyiblər

***Mayın 19-da Bakı Dövlət Universitetinin rəhbərliyi, professor-müəllim heyəti Masallı Rayon İcra Hakimiyyəti ilə birgə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Masallı şəhər R.Əlihəsənov adına 1 saylı, N.Həsənov adına Göyəçöl və Bədələn kənd orta məktəblərinin şagirdləri ilə görüşüb.***



*Şagirdlərlə görüşən BDU-nun rektoru Elçin Babayev müasir Azərbaycan dövlətinin qurucusu və memarı, bütün həyatını xalqımızın xoşbəxt gələcəyinə həsr edən Ümummilli Lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edib.*

BDU-nun rektoru Elçin Babayev, Tarix fakültəsinin kafedra müdiri Anar İsgəndərov, Kimya fakültəsinin dekanı Fuad Kərimli, Jurnalistika fakültəsinin kafedra müdiri Qulu Məhərrəmli Masallı şəhər R.Əlihəsənov adına 1 saylı, Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor Əliş Ağamirzəyev, Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayev, Geologiya fakültəsinin müəllimi İlqar Quliyev, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dosenti Əlimusa İbrahimov, Hüquq fakültəsinin dosenti Nəsib Şükürov N.Həsənov adına Göyəçöl kənd orta məktəbi, Milli Məclisin deputatı Məşhur Məmmədov, YAP Yasamal rayon təşkilatının sədri, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dosenti Bəxtiyar Nəbiyev, Sosial elmlər və psixologiya fakültəsinin kafedra müdiri Üzeyir Şəfiyev, Biologiya fakültəsinin kafedra müdiri Əbülfəz Tağıyev, Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Bədələn kənd orta məktəbində Ulu Öndər Heydər Əliyevin irsi ilə bağlı mühazirələr deyib, şagirdləri dahi liderin zəngin həyat və fəaliyyətini dərindən öyrənməyə, onun əsasını qoyduğu dəyərləri qorumağa və inkişaf etdirməyə səsləyiblər.

Şagirdlərlə görüşən BDU-nun rektoru Elçin Babayev müasir Azərbaycan dövlətinin qurucusu və memarı, bütün həyatını xalqımızın xoşbəxt gələcəyinə həsr edən Ümummilli Lider Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin və çoxşaxəli fəaliyyətindən bəhs edib. Rektor qeyd edib ki, Ulu Öndər özünün siyasi müdrikliyi, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və yorulmaz fəaliyyəti ilə dövlət müstəqilliyimizin bütün təhlükələrdən xilas olmasını və ildən-ilə güclənməsini, sarsılmazlığını təmin edib. Ümummilli Liderin respublikamıza rəhbərlik etdiyi dövrlər möhtəşəm quruculuq və tərəqqi, davamlı və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Dövlət müstəqilliyi uğrunda şərəfli mübarizədə müstəsna rolu olan Ulu Öndər Heydər Əliyev ölkəmizin ictimai-siyasi həyatının bütün sahələrində silinməz iz buraxıb, gələcək nəsillər üçün böyük məktəb yaradıb. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının müqəddəs vəzifəsidir.

# “Yeni Azərbaycan Partiyası Heydər Əliyevin şah əsəridir” mövzusunda tədbir keçirilib

***Mayın 8-də “Yeni Azərbaycan Partiyası Heydər Əliyevin şah əsərdir” mövzusunda tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, 31 il bundan öncə ölkəmizin ciddi sınaqlarla üzləşdiyi bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan ziyalılarının təşəbbüsü ilə yaranan Yeni Azərbaycan Partiyası şərəfli tarixi yol keçib. Yarandığı gündən YAP-ın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulması, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. YAP bu 31 ildə öz məqsədlərinə uyğun səmərəli fəaliyyət göstərib: “YAP-ın yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər, bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə “91-lər”in müraciəti kimi daxil olmuş həmin sənəd əslində bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yarandı. 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi başlanan dövrdə cəmiyyətimizin bütün ümidləri yenə də Heydər Əliyevin dühası ilə bağlı idi. Xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa müddət ərzində vəziyyəti sabitləşdirdi və ölkəmiz davamlı inkişaf yoluna qədəm qoydu”.



Rektor qeyd edib ki, 2005-ci ilin mart ayında keçirilən YAP-ın III qurultayında Azərbaycan Prezidenti, YAP sədrinin birinci müavini İlham Əliyevin sədr seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar idarəetmədə keyfiyyətin və səmərəliliyin daha da artırılmasına, vətəndaş məmnuniyyətinin yüksəldilməsinə xidmət etdi. Bu islahatların həyata keçirilməsində cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası öz müstəsna xidmətləri ilə yadda qaldı. Son prezident seçkilərindən sonra Prezident İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələr layiqincə yerinə yetirilir, islahatlar uğurla davam edir. Hakim partiyanın 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycanın siyasi həyatında yeni bir strategiyanın - siyasi həmrəylik və milli birlik modelinin əsasını qoyması xüsusi ilə diqqətəlayiqdir. 44 günlük Vətən müharibəsində bu birlik və həmrəylik Azərbaycan xalqına şanlı Zəfəri yaşatdı.

Milli Məclisin komitə sədri, BDU-nun kafedra müdiri Ziyafət Əsgərov isə qeyd edib ki, Azərbaycanın qazandığı bütün uğurların kökündə Heydər Əliyev fenomeni dayanır. Ulu Öndər Heydər Əliyev düşünülmüş və uzaqgörən siyasəti sayəsində dövlətimiz və xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi, gələcək inkişafın strateji hədəflərini müəyyənləşdirdi və Azərbaycan demokratik, hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi.

Milli Məclisin üzvü, BDU-nun kafedra müdiri Anar İsgəndərov, YAP Veteranlar Şurasının, YAP-ın yaradılmasının təşəbbüs qrupunun üzvü Şahlar Əsgərov, YAP Yasamal rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev, hüquq elmləri doktoru, professor, “Zahid Xəlilov 23” ərazi partiya təşkilatının sədri Zahid Cəfərov çıxışlarında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərini diqqətə çatdırıblar. Çıxışlarda Azərbaycanın müstəqil, suveren dövlət kimi bərqərar olub inkişaf etməsində, dünya birliyində layiqli yer tutmasında Ümummilli Liderin müdrik və uzaqgörən siyasətinin, əbədiyaşar ideyalarının əvəzsiz tarixi rolu vurğulanıb. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin daha uca, yeni zirvələrə yüksəldiyi, böyük qələbələrə imza atdığı qeyd edilib.

Tədbirin sonunda YAP-a üzv qəbul edilmiş BDU tələbələrinə vəsiqələr təqdim edilib.

# “Heydər Əliyev və Azərbaycan mediası”

***Mayın 8-də BDU-da Texnologiyaların transferi və innovasiyalar şöbəsi və Jurnalistika fakültəsinin birgə təşkilatçılığı ilə Tələbə Elmi Cəmiyyətinin (TEC) “Heydər Əliyev və Azərbaycan mediası” mövzusunda növbəti elmi seminarı keçirilib.***

Jurnalistika fakültəsinin elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi və tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtması bütün sahələrdə olduğu kimi, mətbuatın da inkişafında mühüm dəyişikliklərə səbəb olub. Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması, vətəndaşların təhlükəsizliyinin təmini, sosial-iqtisadi problemlərin həlli söz, fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə şərait yaradıb.

Elmi seminarın xüsusi qonağı - Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, millət vəkili Tahir Rzayev Ulu Öndər Heydər Əliyevin dahi, unudulmaz şəxsiyyət olduğunu deyib. Komitə sədri qeyd edib ki, Azərbaycanın inkişafı, tərəqqisi, dünyada tanınması və bugünkü nailiyyətləri məhz Ulu Öndərin adı, onun amalları ilə bağlıdır: "Azərbaycan 1993-cü ildə ağır bəlalardan qurtuldu, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtmaqla xalqı parçalanmaqdan, ölkəni bölünməkdən xilas etdi. Müdriklik, uzaqgörənlik, böyük siyasət - bu xüsusiyyətlər Heydər Əliyevə xas idi. Ulu Öndər Azərbaycan xalqının qəlbində daim yaşayacaq”.

BDU-nun Jurnalistika fakültəsinin doktorantı Nərminə Əsədova “Ulu Öndər Heydər Əliyevin milli mətbuatın inkişafındakı xidmətləri” mövzusunda məruzəsində Ümummilli Liderin media sahəsində hüquqi bazanın yaradılması, KİV-in maddi-texniki təminatının genişləndirilməsi sahələrində misilsiz xidmətlərindən bəhs edib. Məruzəçi bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan mətbuatın inkişafına dövlət qayğısı siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra çıxış edən fakültə TEC sədri Günel Abbasova Ümummilli Lider Heydər Əliyevin cəmiyyətimizin “güzgüsü” olan, ictimai-siyasi düşüncə tərzini formalaşdıran, Azərbaycan xalqının milli kimliyini dünya xalqlarına nümayiş etdirə bilən medianın əsaslarını yaratdığına diqqət çəkib. Vurğulayıb ki, Azərbaycan mətbuatı yalnız Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xilas olub, inkişaf edib.

Elmi seminar Jurnalistika fakültəsinin I kurs tələbəsi Nurlan Cəbrayılzadə, III kurs tələbəsi Şəms Hüseynli və Atamöli Əliyevin Ulu Öndər Heydər Əliyevin kütləvi informasiya vasitələrinin inkişafındakı roluna dair məruzələri ilə davam edib.

# “Ulu Öndər Heydər Əliyev və tarixi həqiqətlər”

***Mayın 10-da İnformasiya və sənəd menecmenti fakültəsi, Səbail Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi və Badamdar qəsəbəsi, Tofiq Məmmədov adına 239 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Liderin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş soydaşlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Konfransı giriş sözü ilə açan Badamdar qəsəbəsi, Tofiq Məmmədov adına 239 nömrəli tam orta məktəbin direktoru, Əməkdar müəllim Sədaqət Əzimova bildirib ki, bu il 100 illik yubileyini qürurla qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev tarixi şəxsiyyət olmaqla yanaşı, tarix yazan və mühüm tarixi həqiqətlərin müəllifi olan fenomenal bir şəxsiyyətdir. O qeyd edib ki, Ümummilli Lider 1993-cü ildə xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonra düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı müstəqilliyinin bərpasının ilk illərinin xaosu, anarxiyası, vətəndaş müharibəsindən xilas edib. Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrilib: “Ulu Öndər hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək zəruri addımlar atıb. Ümummilli Liderin ideyalarını hər zaman yaşatmaq, gənc nəslə təbliğ etmək hər birimizin ali məqsədidir. Xoşbəxt xalqıq ki, Ulu Öndərin ideyaları bu gün cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir”.



Tədbirdə Səbail Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçiləri Nigar Bəylərova, Abbasağa Dərbəndli, Badamdar bələdiyyəsinin sədr müavinləri Xədicə Həsənova və Rauf Mayılov çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqımızın və dövlətimizin rifahındakı tarixi xidmətlərindən bəhs ediblər.

Sonra BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan “Ulu Öndər Heydər Əliyev şəxsiyyəti: milli-mənəvi dəyərlərimizin təəssübkeşi və təminatçısı”, dosent Rasim Süleymanov “Görkəmli dövlət və ictimai-siyasi xadimlər Ulu Öndər Heydər Əliyev haqqında” mövzularında məruzə ediblər.

Tədbir şagirdlərin hazırladığı bədii hissə ilə davam etdirilib.

# Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş şeir günü

***Mayın 5-də Tarix fakültəsində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "El bilir ki, sən mənimsən" adlı şeir günü keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Heydər Əliyevə həsr olunmuş videoçarxlar nümayiş etdirilib.

Tarix fakültəsinin dekanı İbrahim Zeynəlov Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən, dahi şəxsiyyətin Azərbaycanı öz canından da artıq sevməsindən danışıb. Bildirib ki, Azərbaycan xalqının qəlbindəki Heydər Əliyev sevgisi heç bir zaman ölməyəcək.

Tarix fakültəsinin tələbələri Gülarə Mehdizadə, Leyla Sərkərova, Səbinə Əsgərova, Şəbnəm İsmayılova, Mehdi Rzayev, Röya Mehdizadə, Əli Abdullayev, Şəbnəm İsmayılova yazdıqları şeirləri səsləndiriblər.

# Şərqşünaslıq fakültəsinin müəlliminin Pakistanda kitabı nəşr olunub

***Şərqşünaslıq fakültəsinin urdu dili müəllimi Eldost İbrahimovun "Onun 100 kəlamı" adlı kitabı Pakistanın İslamabad şəhərində çapdan çıxıb.***




Kitabda Ulu Öndər Heydər Əliyevin xidmətlərini, onun Azərbaycanda elm və təhsilin, maarifçiliyin inkişafında, milli ideologiyanın formalaşdırılmasında, dinimənəvi dəyərlərin, vətənpərpərlik və ordu quruculuğu istiqamətində misilsiz fəaliyyətini, o cümlədən ümumi fəlsəfi fikirlərini əks etdirən müdrik kəlamları Azərbaycan və urdu dillərində təqdim olunub.

Azərbaycanlı və pakistanlı oxucularla yanaşı, dünyada urdu dilində danışan yarım milyarddan çox oxucu kütləsi üçün nəzərdə tutulmuş kitab Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan olunması və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr edilib.

Kitabın hər səhifəsində Ulu Öndərin bir fəlsəfi fikri öz məzmununa uyğun şəkil ilə təsvir olunub.

Qeyd edək ki, nəşrin baş redaktoru Pakistanın tanınmış jurnalisti, "Daily Orient Express" qəzetinin baş redaktoru Qasim Mahmud Haşimidir.

# “Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti” mövzusunda konfrans

***Mayın 3-də BDU-da İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti” mövzusunda Respublika elmi konfransı keçirilib.*** Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.



Konfransın açılışında çıxış edən BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru, professor Mais Süleymanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Bildirib ki, BDU-nun Elmi Şurasında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Tədbirlər Planı qəbul olunub. Plana uyğun olaraq konfranslar, seminarlar, sərgilər, bilik, idman yarışları və digər tədbirlər təşkil olunur: “Bu baxımdan bugünkü konfransın keçirilməsi də təqdirəlayiqdir. Çünki Ulu Öndərimiz Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində kitabxana işinə, kitab mədəniyyətinə yüksək qiymət verib, bu sahənin inkişafı üçün mühüm addımlar atıb. Bu gün isə həmin siyasət Ümummilli Liderimizin layiqli davamçısı, Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir”.

Konfransın plenar iclasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) direktoru, professor Məmməd Əliyev, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin professoru Xəlil İsmayılov, BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova, AMEA-nın “Elm” nəşriyyatının direktoru Səbuhi Qəhrəmanov, Azərbaycan Dövlət İqtisad Universitetinin Kitabxana İnformasiya Mərkəzinin direktoru Adilə Abdullayevaya, İnformasiya və sənəd menecmenti fakültəsinin elmi işlər üzrə dekan müavini Zahidə Rzayeva çıxış ediblər. Natiqlər Ulu Öndərin kitabxana quruculuğu, kitab mədəniyyətinin, nəşriyyat-poliqrafiya sahəsininin inkişafındakı tarixi xidmətlərini faktlarla diqqətə çatdırıblar. Çıxışlarda xüsusi qeyd olunub ki, bu gün kitabxana-informasiya fəaliyyəti sahəsində çalışanların qarşısında duran mühüm vəzifələrdən biri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağımızda dağıdılmış kitabxana infrastrukturunun bərpasında iştirak etməkdir. İclasda Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan plenar məruzə ilə çıxış edib. Plenar iclasın sonunda İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı çıxış edərək tədbirin yüksək səviyyədə təşkilatçılığı üçün BDU rəhbərliyinə, qonaqlara, iştirakçılara fakültənin kollektivi və tələbələri adından minnətdarlığını bildirib.

Konfrans işini bölmə iclaslarında davam etdirib.

# “Kitabxana işinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu” adlı elmi seminar

***Mayın 3-də İqtisadiyyat və Humanitar Kollecdə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Kitabxana işinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu” adlı elmi seminar keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollecin direktoru Səhər Orucova Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətində Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsi məsələsinin xüsusi yer tutduğunu söyləyib: “İstər sovet dövründə, istərsə də müstəqillik illərində kitabxana işinin inkişafında dahi rəhbər Heydər Əliyevin rolu böyük olub. Məhz Ulu Öndərin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan 1970-1980-ci illərdə özünün ən yüksək inkişaf səviyyəsinə çatıb. Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra ölkəmizdə əsl vətəndaş cəmiyyəti quruculuğuna başlanılıb. Ona görə də 1993-1999-cu illər Azərbaycanda kitabxana işinin tarixinə kitabxanaların qorunub saxlanılması uğrunda mübarizə illəri kimi daxil olub”.

Səhər Orucova Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün sahələrdə olduğu kimi, ölkəmizdə kitab nəşri işinə və kitabxanaların inkişafına böyük töhfələr verdiyini vurğulayıb.

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova Ümummilli Liderin kitabxanalara qayğısı, kitabxana sisteminin qorunub saxlanması sahəsində həyata keçirdiyi tədbirlərdən söz açıb. Kollecin kitabxana müdiri Qətibə Qasımova Ulu Öndərin kitabxanalarla bağlı verdiyi fərman və sərəncamları xatırladıb, onun elmə, ədəbiyyata, mədəniyyətə, incəsənətə göstərdiyi qayğıdan danışıb.

Kollecin müəllimləri Kərəm Quliyev “Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti”, Sona Abdulova “Heydər Əliyev və Azərbaycanda kitabxana işi”, Kitabxana işi ixtisasının tələbələri Nazlı Hüseynzadə “Təhsil millətin gələcəyidir”, Zülfiyyə Abdurrəhmanova “Kitabla inkişaf edək” adlı məruzələrlə çıxış ediblər. Tələbələr Jalə Axundzadə, Xəyalə Həsənova şeirlər səsləndiriblər. Tələbələr Anar Ələsgərov, Təcibə Ağayeva, Elvin Mərdanov tərəfindən “Əsl məhəbbət haqqında” adlı səhnəcik göstərilib.

Tədbirin sonunda Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib.

# "Heydər Əliyev və milli-mənəvi irsimiz" mövzusunda Respublika elmi konfransı

***Mayın 8-də Filologiya fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi irsimiz" mövzusunda Respublika elmi konfransı keçirilib. Tədbirdə fakültənin professor-müəllim heyəti, müxtəlif ali təhsil müəssisələrində fəaliyyət göstərən elm adamları, gənc tədqiqatçı və tələbələr iştirak ediblər.***

Konfransı giriş sözü ilə açan BDU-nun Filologiya fakültəsinin dekanı, dosent Elçin Məmmədov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan elmi, təhsili, mədəniyyəti və ədəbiyyatının inkişafındakı misilsiz tarixi xidmətlərindən, Ulu Öndərin şəxsiyyətinin formalaşmasında ədəbiyyatın rolundan, onun Azərbaycan ədəbiyyatına, ədəbiyyat xadimlərinə göstərdiyi xüsusi diqqət və qayğıdan, banisi olduğu azərbaycançılıq ideologiyasından, Azərbaycan filologiyasının inkişafına verdiyi əvəzolunmaz töhfələrdən bəhs edib. Çıxışda Ümummilli Liderin rəhbərliyi və təşəbbüsü ilə görkəmli ədəbi şəxsiyyətlərin yubileylərinin qeyd olunması, Qarabağın maddi-mədəni irsinin qorunması ilə bağlı həyata keçirdiyi işlərdən, habelə bu ənənələrin müasir mərhələdə uğurla davam etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolundan geniş söz açılıb.

Sonra BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor Səhər Orucova "Ulu Öndər Heydər Əliyev və milli dövlətçilik təfəkkürü", Türkologiya kafedrasının professoru Elbrus Əzizov "Azərbaycan dilinə Heydər Əliyev qayğısı", "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasının elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov "Heydər Əliyev müstəqil türk dövlətləri arasında mədəni əlaqələrin qurucusu kimi" adlı məruzələrlə çıxış ediblər. Məruzələrdə Ulu Öndərin müstəqil Azərbaycanın memarı kimi tarixi xidmətlərindən, türk dünyası ilə mədəni və siyasi əlaqələrin qrurulmasında müstəsna rolundan, Azərbaycan dilinin dövlət dili olması uğrunda apardığı mübarizədən və müasir mərhələdə həmin işlərin Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurlu davam etdirilməsindən danışılıb. Konfrans öz işini bölmə iclasları ilə davam etdirib. Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Tofiq Hacıyevin sədrliyi ilə "Heydər Əliyev və milli-mənəvi irsimiz", İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, professor Abbas Abbasovun sədrliyi ilə "Dilçilik", Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti Məhəmməd Məmmədovun sədrliyi ilə "Ədəbiyyatşünaslıq" bölmələrində 90-a yaxın məruzə dinlənilib.

# "Heydər Əliyev və dünya azərbaycanlıları" mövzusunda elmi seminar keçirilib

***Mayın 18-də Tarix fakültəsində Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyasının (ETL) "Heydər Əliyev və dünya azərbaycanlıları" mövzusunda elmi seminarı keçirilib.***

Fakültənin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova laboratoriyanın fəaliyyəti, elmi seminarın mövzusunun əhəmiyyəti haqqında danışıb.

ETL-in aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Asəf Hacıyev mövzu ilə bağlı məruzə edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il dekabrın 16-da hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd edilməsi haqqında qərar qəbul edib.

Bununla bağlı qanunvericilik aktının qəbul edilməsi üçün ölkə parlamentinə - Ali Sovetə müraciət olunub. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci ilin dekabrın 25-də müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib. Bu qərar bir tərəfdən Ulu Öndərin uzun illərdən bəri uğrunda mübarizə apardığı amalın qələbəsi idisə, digər tərəfdən müstəqilliyin bərpa olunmasından sonra bütün dünyaya səpələnmiş milyonlarla azərbaycanlının vahid ideologiya ətrafında birləşdirilməsinə xidmət edirdi.

1993-cü ildə prezident seçildikdən sonra Ulu Öndər diaspor quruculuğunu dövlət siyasətinin əsas tərkib hissəsinə çevirdi. Ulu Öndərin 2001-ci ilin noyabr ayının 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Sərəncamı dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, birliklərinin fəaliyyətinin gücləndirilməsi, əlaqələndirilməsi baxımından tarixi addım idi. Elmi seminarda iştirak edən Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının tarixi əhəmiyyətindən və bu istiqamətdə respublikada həyata keçirilən tədbirlərdən bəhs edib.

# Neftçalada Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Beynəlxalq Biomüxtəliflik Gününə həsr edilmiş tədbir

***Mayın 22-də "Azerbaijan Fish Farm" və "Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Neftçala rayonunun Yenikənd Nərə Damazlıq Təsərrüfatında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, "Lu-Mun Holding"in İdarə Heyətinin sədri Rüfət Tabasaranski, BDU əməkdaşları, aidiyyəti qurumların rəsmiləri iştirak ediblər.

Rüfət Tabasaranski və Mirhəsən Seyidov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin hər zaman ekoloji durumun yaxşılaşdırılmasına, biomüxtəlifliyin qorunmasına xüsusi önəm verdiyini bildiriblər. Bununla bağlı bir sıra sərəncamların imzalanması bu sahənin ölkəmizdə prioritet məsələlər sırasında olduğunu bir daha təsdiqləyir. Ulu Öndərin siyasəti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir, ekoloji tarazlığın və biomüxtəlifliyin qorunması daim diqqət mərkəzində saxlanılır.

Tədbirin sonunda Yenikənd Nərə Damazlıq Təsərrüfatı ilə tanışlıq olub. Bildirilib ki, 1956-cı ildə rayonun Yenikənd kəndi ərazisində Kür-Təcrübi Nərə Balıqartırma zavodu inşa edilib. 4 il bundan öncə zavodun bazası əsasında "Azerbaijan Fish" MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatı yaradılıb. Məqsəd rayonda balıqçılıq sənayesini yenidən bərpa etmək, balıq və kürü istehsalını artırıb dünya bazarlarına çıxarmaqdır. Ən müasir avadanlıqlarla və texnologiya ilə təchiz olunmuş müəssisədə ildə 200 tona yaxın nərə balığının əti və 10 tona yaxın kürü istehsal edilməsi nəzərdə tutulub.

Daha sonra rayonun Şirvanlı kəndi ərazisində hər birinin diri çəkisi 600-800 qram olan 50 min ədəd nərəcinsli balıq Xəzər dənizinə buraxılıb.

Qeyd edək ki, BDU, İzmir Yüksək Texnologiya İnstitutu və "Lu-Mun Holding" tərəfindən Xəzər dənizinin nərə balıqlarının morfolojik fərqliliyinin genom səviyyəsində araşdırılması məqsədi ilə ortaq elmi-tədqiqat layihəsinə başlanılıb. Layihənin əsas məqsədi molekulyar genetik analizlər vasitəsilə yerli nərə balıqlarında mövcud olan morfolojik dəyişiklikləri molekulyar səviyyədə öyrənməkdir.

# "Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi" mövzusunda ustad dərsi



***Mayın 12-də İnformasiya və sənəd menecmenti fakültəsində "Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi" mövzusunda ustad dərsi keçirilib.*** Ustad dərsində Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvü, "91-lər"in məşhur nümayəndəsi, BDU-nun professoru, Əməkdar elm xadimi Şahlar Əsgərov mövzu ilə bağlı məruzə edib.

Professor Şahlar Əsgərov tarixi xronologiya əsasında Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin dövrləri haqqında ətraflı məlumat verib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindən ölkəmizin gələcək müstəqilliyi üçün zəmin hazırlayır, dövlət idarəetməsinin fəlsəfi əsaslarını formalaşdırırdı: "Ulu Öndər Heydər Əliyev dövlətimizin həm memarı, həm də qurucusudur. Müstəqil dövlətimizin ilk Konstitusiyası və digər zəruri dövlət təsisatları Heydər Əliyev tərəfindən yaradılıb və formalaşdırılıb. Əminliklə söyləyə bilərik ki, Heydər Əliyev xalqımızın ilk siyasi filosofu idi".

Natiq məruzəsində 90-cı illərin gərgin ictimai-siyasi mühiti, xalqın dəstəyi ilə böyük siyasi qüvvəyə çevrilən YAP-ın yaranma zərurəti, Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtmasını şərtləndirən amillər barədə elmi-nəzəri fikirlərini auditoriyanın diqqətinə çatdırıb. Məruzədə həmçinin Ulu Öndər Heydər Əliyevin fəlsəfi fikirləri şərh olunub, dahi rəhbərin müdrik kəlamlarının gənclərin layiqli vətəndaş kimi formalaşmasında aydın bir yol xəritəsi olduğu vurğulanıb. Professor Şahlar Əsgərov məruzəsində Ulu Öndər Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən, müqəddəs Ata vəsiyyətini şərəflə yerinə yetirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin inkişafı və tərəqqisi naminə misilsiz fəaliyyətindən bəhs edib. Qeyd edib ki, Prezident İlham Əliyev xalqın dəstəyinə güvənərək tarixi qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi ilə 30 illik münaqişəni və ən azı 200 illik problemi tarixin arxivinə göndərdi.

Professor Şahlar Əsgərovun mühazirəsi auditoriya tərəfindən maraqla dinlənilib, məruzəçi dinləyicilərin mövzu ilə bağlı suallarını cavablandırıb.

# BDU könüllüləri "Şöhrət" muzeyində

***BDU könüllüləri Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyini ziyarət ediblər.***

BDU könüllüləri əvvəlcə Ulu Öndər Heydər Əliyevin Akademiyanın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzüblər. Sonra "Şöhrət" muzeyində Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən fotostendlər və eksponatlarla tanış olublar. "Şöhrət" muzeyinin eksponat və stendlərində olan unikal sənədlər, arxiv materialları Ulu Öndərin həyat və fəaliyyətini, mənalı və şərəfli ömür yolunu, xalqımızın tarixində və taleyində oynadığı misilsiz rolu, o cümlədən təhlükəsizlik orqanlarındakı xidmət dövrü haqqında məlumatları əks etdirir.

# "Ulu Öndər xatirələrdə" layihəsi çərçivəsində görüşlər

***Mayın 4-də Heydər Əliyev Muzeyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq "Ulu Öndər xatirələrdə" layihəsi çərçivəsində Əməkdar elm xadimi, professor İzzət Rüstəmovla tələbələrin görüşü keçirilib.***



Görüşdə çıxış edən Heydər Əliyev Muzeyinin mütəxəssisi Afət Seyidbəyova layihə haqqında məlumat verib, Ümummilli Lider Heydər Əliyevlə çiyin-çiyinə çalışmış görkəmli elm xadimləri və ziyalılarla silsilə görüşlərin keçiriləcəyini vurğulayıb.

Daha sonra çıxış edən professor İzzət Rüstəmov Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında çalışdığını vurğulayaraq, xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. Ümummilli Liderin həyat və fəaliyyətindən söz açan İzzət Rüstəmov dahi şəxsiyyətin müasir Azərbaycan dövlətinin yaranmasında və dünya ölkələri içərisində tanınmasında göstərdiyi misilsiz xidmətlərindən danışıb. Qeyd edib ki, müstəqilliyimizin ilk illərində yaranmış xaos və hərc-mərclik dövlətimizi məhv olmaq təhlükəsi qarşısında qoymuşdu. Belə bir şəraitdə xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev müdrik siyasəti və qəti tədbirləri sayəsində dövləti məhv olmaq təhlükəsindən xilas etdi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir siyasətçidir. Böyük tarixi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev xalqımızın qəlbində daim yaşayacaq.

Daha sonra mövzu ətrafında tələbələrin sualları cavablandırılıb.

***

***Mayın 11-də layihənin növbəti qonağı Əməkdar elm xadimi, BDU-nun kafedra müdiri, professor İradə Hüseynova olub.***



Görüşdə çıxış edən BDU-nun Heydər Əliyev Muzeyinin mütəxəssisi Afət Seyidzadə professor İradə Hüseynovanın həyatı və elmi fəaliyyəti barədə məlumat verib, layihə çərçivəsində keçirilən görüşün əhəmiyyətini vurğulayıb.

Professor İradə Hüseynova Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında çalışdığını deyib, xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. Ümummilli Liderin həyat və fəaliyyətindən söz açan İradə Hüseynova dahi şəxsiyyətin müstəqil, müasir Azərbaycan dövlətinin yaranmasında və dünya ölkələri içərisində tanınmasında göstərdiyi misilsiz xidmətlərindən danışıb. Ulu Öndərin rəhbərliyi altında həyata keçirilən elm və təhsil siyasətinin bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

Daha sonra mövzu ətrafında tələbələrin sualları cavablandırılıb.

# "Ulu Öndər Heydər Əliyev və gənclər siyasəti" adlı tədbir

***Mayın 25-də İnformasiya və sənəd menecmenti fakültəsi və Yeni Azərbaycan Partiyası (YAP) Kəlbəcər rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində "Ulu Öndər Heydər Əliyev və gənclər siyasəti" mövzusunda tədbir keçirilib.*** Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Liderin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aqil Məmmədov bildirib ki, Ulu Öndər Heydər Əliyev hələ sovet dövründə ölkəmizdə gənclər siyasətinin əsasını qoyub, peşəkar gənc kadrların hazırlanmasında müstəsna rol oynayıb: "Həmin dövrdə bütün çətinliklərə baxmayaraq Azərbaycanda hərbi liseyin yaradılması, minlərlə gəncin ittifaqa daxil olan respublikaların nüfuzlu ali məktəblərinə göndərilməsi Ulu Öndərin tarixi xidmətləridir". Aqil Məmmədov müstəqillik illərində gənclər siyasətinin formalaşdırılması və inkişaf etdirilməsindən bəhs edib, gənclərlə bağlı dövlət qurumlarının yaradılması, bu sahənin qanunvericilik bazasının formalaşdırılması barədə tarixi faktları iştirakçıların diqqətinə çatdırıb.

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Şahin İsmayılov Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Ölkə gənclərinin potensialının üzə çıxarılmasında, onların xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almalarında, beynəlxalq idman yarışlarında yüksək nəticələr əldə etmələrində dövlətimizin müstəsna dəstəyindən bəhs edib.

YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov Azərbaycanın vətənpərvər gəncləri ilə bütün xalqımızın qürur duyduğunu bildirib: "Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclərimiz Vətən müharibəsində tarixi qələbəyə imza atdılar, şəhidlik, qazilik zirvəsinə ucaldılar".

Tədbirdə BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan, Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının dosenti Rəşad Qardaşov, İnformasiya və sənəd menecmenti fakültəsinin magistrantı Ləman Eyyubova Ulu Öndərin gənclər siyasətinin hazırda mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşadığını bildiriblər. Prezident İlham Əliyevin Ulu Öndərin gənclər siyasətini uğurla davam etdirdiyini, ölkə rəhbəri tərəfindən gənclərin mənəvi inkişafı, vətənpərvərlik ruhunda formalaşması, yüksək təhsil almaları, sosial müdafiələri ilə bağlı mühüm tədbirlərin həyata keçirildiyini vurğulayıblar.

# "Heydər Əliyev mühazirələri"nin qonaqları

***"BDU könüllüləri" təşkilatının müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən "Heydər Əliyev mühazirələri" adlı layihəsi davam edir.***



Mayın 5-də layihənin ikinci qonağı BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Qulu Məhərrəmli olub.

"Heydər Əliyev və media" adlı məruzə ilə çıxış edən Qulu Məhərrəmli tələbələrə Ulu Öndərin zəngin həyat və fəaliyyəti barədə məlumat verib, bugünkü güclü Azərbaycanın memarı kimi atdığı addımların mahiyyətindən söz açıb: "Ulu Öndər jurnalistika sahəsinə çox böyük töhfələr verib. Ölkədə mətbuatla bağlı mükəmməl qanunvericilik bazasının yaradılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, senzuranın ləğvi, qəzet və jurnalların borclarının dondurulması, KİV-lərin fəaliyyətinin genişləndirilməsi və inkişafının təmin edilməsinə dair qəbul edilmiş çoxsaylı sərəncamlar Ulu Öndərin ölkə jurnalistikasına verdiyi yüksək dəyərin sübutudur. Heydər Əliyev qələm sahiblərinin əməyini qeyri-adi, zəhmətli, hünər və fədakarlıq tələb edən əmək kimi ifadə edirdi. Ulu Öndər KİV-ləri cəmiyyətdə olan çatışmazlıqları, nöqsanları, hakimiyyətin fəaliyyətində olan qüsurları tənqid edərək onların aradan qaldırılmasına kömək edən qurum kimi dəyərləndirir, jurnalistləri ədalətli olmağa, öz hüquqlarından sui-istifadə etməməyə, qərəzsiz və dəqiq yazmağa səsləyirdi".

Sonra Qulu Məhərrəmli Ulu Öndərlə bağlı xatirələrini bölüşüb və tələbələrin suallarını cavablandırıb.

***

***Mayın 17-də "BDU könüllüləri" təşkilatının Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə reallaşdırdığı "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti görüşü keçirilib.***



Layihənin qonağı Milli Məclisin deputatı, AMEA-nın həqiqi üzvü, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Nizami Cəfərov olub.

O, tələbələrə "Heydər Əliyev və dil siyasəti" mövzusunda mühazirə oxuyub. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin geniş miqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutub. Ümummilli Liderin dil quruculuğu siyasəti onun milli dövlət quruculuğu siyasətinin tərkib hissəsi olaraq bütöv bir sistem təşkil edib: "Azərbaycan dilinin həm ümumxalq dili, həm də dövlət dili kimi inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olub. Ulu Öndər Azərbaycan dilinə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada müəyyən ictimai-mədəni mövqeyi olan bir xalqın milli sərvəti kimi yanaşırdı. Hələ 1970-ci illərdən başlayaraq Ümummilli Lider ana dilimizin qayğısına qalıb, Azərbaycan dilinin inkişafı üçün öz səyini əsirgəməyib. Ana dilinə böyük məhəbbət, onun incəliklərini dərindən bilmək, sadə, səmimi cümlələrlə insanlarda nikbin əhval-ruhiyyə yaratmaq Heydər Əliyevin nitq və çıxışlarının əsas xüsusiyyətlərindən idi. BDU-nun 50 illik yubiley tədbirində Heydər Əliyev rus dilində deyil, doğma ana dilində çıxış edib. Respublikanın birinci şəxsi bu cəsarətli addımı ilə həm ziyalılarımızın böyük rəğbətini qazanıb, həm də onlara mənəvi dəstək verib. Müstəqillik dövründə də dahi rəhbərin Azərbaycan dilinə, onun inkişafına verdiyi töhfələr əvəzsizdir və bu gün də öz bəhrəsini verir".

Sonda Nizami Cəfərov tələbələri maraqlandıran sualları cavablandırıb.

# “Heydər Əliyev dühasının yetişdirdiyi mütəxəssislərdən biri olmağımla fəxr edirəm”

***Ulu Öndər Heydər Əliyev elə bir tarixi şəxsiyyətdir ki, onun böyüklüyünü hər dəqiqə, hər an, hər yerdə hiss edirsən, duyursan. Bu nurlu, dahi insanın siması gözlərimiz önündə yenidən canlanır və düşünürsən ki, o, səninlə birlikdə xalqımızın aydın sabahlarına doğru addımlayır.***

Ulu Öndərin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərini saymaqla qurtarmaz. Bu xatirə yazımda onun təhsil sahəsinə göstərdiyi diqqətdən, o cümlədən, keçmiş sovet respublikalarında yerləşən aparıcı universitetlərdə Azərbaycan Respublikası üçün mütəxəssis hazırlanması işinə verdiyi töhfədən, mənim bir mütəxəssis, şəxsiyyət kimi yetişməyimdə, həyatımda oynadığı əvəzedilməz roldan danışmaq istəyirəm.

Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbər təyin olunduğu elə ilk dövrlərdən Azərbaycan hökumətinin xüsusi Dövlət Proqramını qəbul etdirdi və 1969-cu ildən başlayaraq Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev, Voronej, Dnepropetrovsk və digər şəhərlərdə yerləşən nüfuzlu universitet və institutlara müsabiqədənkənar qaydada Azərbaycan ali məktəblərində hazırlığı aparılmayan nadir ixtisaslar üzrə təhsil alması üçün azərbaycanlı gənclərin göndərilməsinə nail oldu. O xoşbəxt anları yaşamış gənclərdən biri də mən olmuşam. Bu gün Heydər Əliyev ideyasının, işıqlı dühasının yetişdirdiyi mütəxəssislərdən biri olmağımla fəxr edir və qürur duyuram.

Hazırda mən Bakı Dövlət Universitetinin (BDU) Geodeziya və kartoqrafiya kafedrasının müdiri, professoru, geodeziya-kartoqrafiya elmləri sahəsində elmlər doktoru dərəcəsinə yüksəlmiş ilk və yeganə azərbaycanlı aliməm. Ulu Öndərin ümidlərini doğrultduğum üçün özümü xoşbəxt sanır, onun ruhu qarşısında baş əyirəm. Düşünürəm ki, yalnız öz məhsuldar elmi və pedaqoji fəaliyyətimlə, qismən də olsa, bu böyük insana olan mənəvi borcumu qaytarmış olaram.

İndi isə bir az keçmişə qayıtmaq istəyirəm. 1977-ci ildə orta məktəbdə təhsilimi başa vurduqdan sonra Moskva Aviasiya İnstitutunda təhsilimi davam etdirmək niyyətində idim. Lakin Dövlət Proqramı üzrə bu instituta sənədlərin qəbulunun və müsabiqənin harada keçirildiyini bilmirdim. Böyük qardaşım o vaxtlar Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda oxuyurdu və təklif etdi ki, əvvəlcə onların institutuna baş çəkək. Həmin instituta gəldik və gördük ki, müsabiqədənkənar qaydada Azərbaycan üçün qəbul aparılacaq Moskva, Leninqrad, Kiyev, Voronej, Dnepropetrovsk və digər şəhərlərin universitet və institutlarının siyahısında Moskva Aviasiya İnstitutunun adı yoxdur, amma həmin siyahıda sonralar təhsil aldığım Moskva Geodeziya



Aerofotoplanalma və Kartoqrafiya Mühəndisləri İnstitutunun adı birinci sırada yazılıb. Qəbul komissiyasının əməkdaşları görəndə ki, biz bu institutla maraqlanırıq, başladılar onu tərifləməyə ki, bu institutda respublikamız üçün çox vacib sayılan geodeziya-kartoqrafiya elm sahəsi üzrə mütəxəssislərin hazırlığı həyata keçirilir, burada həmçinin, mənim maraq göstərdiyim aviasiya sahəsi də mövcuddur. Qəbul komissiyası əməkdaşlarının sözünə qüvvət, qardaşım da dedi ki, “bu, daha yaxşı, həm sən deyən, həm də respublikamız üçün gərəkli bir elm sahəsidir”. Bu fikirlərdən sonra Moskva Geodeziya Aerofotoplanalma və Kartoqrafiya Mühəndisləri İnstitutunun tələbəsi olmağa razılığımı verdim. Lakin sənədləri qəbul edən komissiya bildirdi ki, bu institutda Azərbaycan üçün «astronomik-geodeziya» ixtisası üzrə cəmi bir yer ayrılıb, ona görə də müsabiqədə keçid balı çox güman yüksək olacaq, imtahanlara daha yaxşı hazırlaşmaq lazımdır. Doğrusu, mən özümə əmin idim, yaxşı hazırlaşmışdım və bu səbəbdən imtahanlar məni elə də qorxutmurdu. Ona görə də qəbul imtahanlarını uğurla verib, Moskva Geodeziya Aerofotoplanalma və Kartoqrafiya Mühəndisləri institutunun (indiki Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universiteti) tələbəsi oldum. Qəbul komissiyası bizə bildirdi ki, 29 avqust 1977-ci il tarixində Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin də iştirakı ilə birinci kursa qəbul olunmuş azərbaycanlı gənclərin yolasalınma tədbiri keçiriləcək.

Həmin günü - 29 avqust 1977-ci il tarixini mən heç vaxt unuda bilmərəm. O gün mən Ulu Öndərin nurlu simasını ilk dəfə idi ki, yaxından gördüm, olduqca doğma, pozitiv görünüşlü bir insan. Bizi xoş sözlərlə salamladı və hamımızı tələbə adı qazanmağımız münasibəti ilə təbrik etdi. Təhsil alacağımız respublikalarda, şəhərlərdə özümüzü ləyaqətli aparmağı, Azərbaycan xalqının elçiləri olduğumuzu heç vaxt unutmamağı, yüksək təhsilə yiyələnməyi və biliklər qazanmağı, rus dilini mükəmməl öyrənməyi tapşırdı. Qəbul imtahanlarında yüksək nəticələr göstərmiş olsalar da, tələbələr arasında orta məktəbdə Azərbaycan bölməsini bitirdikləri üçün rus dilini zəif bilənlər vardı. Ona görə də Ulu Öndər həmin tələbələri əmin edirdi ki, narahat olmayın, qısa zaman ərzində rus dilini də mükəmməl öyrənə biləcəksiniz. Doğrudur, mən də Qazax rayonunun Daş Salahlı kəndinin 2 №-li orta məktəbini Azərbaycan bölməsi üzrə bitirmişdim, amma bizim ailədə rus dili işlədilirdi, rəhmətlik atamın rus dilində tibbə dair çoxsaylı məlumat-sorğu kitabları vardı. Eyni zamanda mən özüm “kniqapoçta” ilə sifariş edərək Moskvadan, Leninqraddan fizika və riyaziyyata dair çoxlu kitablar gətizdirib mütaliə edirdim, ona görə də rus dilini pis bilmirdim.

Yaxşı xatırlayıram, Ulu Öndər həmin görüşdə “Siz getdiyiniz şəhərlərdə özünüzü kimsəsiz hiss etməyin, sizin arxanızda Azərbaycan xalqı, Azərbaycan dövləti durur, mən dururam”- deyə bildirmişdi. Qeyd etmək istəyirəm ki, o vaxtlar Ulu Öndərin bu sözləri mənim həyat eşqimi, gücümü birə-beş artırdı. Məsələ ondadır ki, instituta qəbul imtahanları verdiyim ərəfədə mən çox düşgün əhval-ruhiyyədə idim. Orta məktəbdə son buraxılış imtahanı verdiyim günlərdə atam dünyasını dəyişmişdi. Bu hadisə məni olduqca sarsıtmışdı. Hətta instituta qəbul imtahanlarında iştirak etmək istəmirdim. Lakin belə bir psixoloji durumda olmağıma baxmayaraq, özümü toplayıb qəbul imtahanlarını uğurla verdim və institut tələbəsi oldum. Ulu Öndərin yuxarıda qeyd etdiyim birinci kurs tələbələri ilə keçirdiyi yolasalma görüşü, o görüşdən aldığım təəssüratlar və enerji məni yenidən həyata qaytardı. Ona görə də Ümummilli Liderin bu diqqət və qayğısına qarşı yüksək təhsilimlə cavab verəcəyimə söz verdim. Həqiqətən də, Moskvada böyük əzmkarlıqla çalışıb təhsildə yüksək nəticələr əldə etdim və əsasən «əla» qiymətlər almağa nail oldum.

Onu da qeyd edim ki, təhsil aldığımız illərdə Heydər Əliyevin tapşırığı ilə Azərbaycan Respublikasının Moskva şəhərində yerləşən nümayəndəliyi, xüsusilə də nümayəndəliyin təhsil üzrə əməkdaşları tərəfindən bizə daim qayğı və maddi-mənəvi köməklik göstərilirdi. Bunlarla yanaşı, dahi Öndərin özü də bizimlə - respublikadan kənar şəhərlərin universitet və institutlarında təhsil alan tələbələrlə daim maraqlanır və imkan yarananda görüşlər keçirirdi.

Yaxşı yadımdadır, Ümummilli Liderin Moskva şəhərində oxuyan azərbaycanlı tələbə-gənclərlə belə bir görüşü 1979-cu ildə M.Qorki adına Moskva Bədii-Akademik Teatrının sarayında keçirildi. İclas zalının rəyasət heyətində Azərbaycan Sovet Sosialist Respublikasının dövlət və hökumət rəhbərləri, o vaxtkı Azərbaycan Kommunist Partiyasının büro üzvləri, böyük vəzifəli şəxslər əyləşmişdilər. İndi dəqiq xatırlamıram ki, onlar həmin vaxtlar Moskvaya hansı tədbirdə iştirak etmək üçün belə ali tərkibdə gəlmişdilər, çox güman ki, sovet hökuməti rəhbərliyinin yüksək səviyyəli görüşü keçirilirdi və həmin tədbirdən sonra Ulu Öndər qərara alır ki, Moskvada təhsil alan azərbaycanlı tələbə-gənclərlə görüş keçirib uğurlarımızla tanış olsun.

Beləliklə, bizi Moskvadakı Azərbaycan nümayəndəliyi tərəfindən həmin görüşə dəvət etdilər. Görüşə həmçinin bizim oxuduğumuz universitet və institutların rektorları, prorektorları dəvət olunmuşdular. Mənim yanımda təhsil aldığım Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinin tədris işləri üzrə prorektoru, professor Valentina Bakanova əyləşmişdi. Görüşdə bir sıra çıxışlardan sonra söz Ulu Öndər Heydər Əliyevə verildi. Salon sükuta qərq oldu və onun alovlu çıxışı hamını valeh etdi. Yüksək natiqlik məharəti ilə söylədiyi fikirlər, azərbaycanlı tələbələrə xitabən “Elmlərin sirlərinə yaxşı yiyələnin, rus dilini mükəmməl öyrənin. Siz burada Azərbaycanın elçilərisiniz, çalışın xalqımızı yüksək səviyyədə təmsil edin” - kimi öyüd-nəsihətləri onilliklər keçsə də, hələ də qulaqlarımda səslənir.

Yaxşı xatırlayıram, Valentina Bakanova Heydər Əliyevin çıxışından sonra özünü saxlaya bilməyib, “Bu necə natiqlikdir?! Bir rusdan daha yaxşı danışır” - söylədi.

Bu görüşün məzmun və məqsədini Ulu Öndər öz uzaqgörənliyi ilə necə düşünmüşdüsə, elə də oldu: görüşdən sonra bizə oxuduğumuz institutların rəhbərlikləri tərəfindən diqqət daha da artırıldı. Sən demə, bu görüşün məqsədi həm də bir növ bizləri - azərbaycanlı tələbələri Moskva universiteti və institutlarının rəhbərlərinə tapşırmaq, bizlərə olan diqqətin daha da artırılmasını diplomatik gedişlə onların nəzərinə çatdırmaqdan ibarət idi. Bunlar bizə sonradan aydın oldu.

Yeri gəlmişkən, onu da qeyd etmək istəyirəm ki, ötən əsrin 70-ci illərində, mənim Moskva şəhərinə ilk gəldiyim dövrlərdə, şahidlik edə bilərəm ki, orada «qafqazdanam»,- deyəndə, əsasən “qruzin və yaxud armyanin” başa düşürdülər, çağırırdılar. Çünki bu millətlərin nümayəndələri Moskva şəhərinə çoxdan ayaq açmış və özlərini tanıda bilmişdilər. Bu isə bizə ağır gəlirdi ki, niyə heç azərbaycanlı deyən yoxdur. Lakin zaman keçdikcə, ildən-ilə bu balansın bizim xeyrimizə dəyişdiyini gördük, “Azərbaycan, azərbaycanlı” sözləri tez-tez işlədilməyə başladı. Mən hesab edirəm ki, bu istiqamətdə də müsbət dəyişikliyin baş verməsi yenə də Ulu Öndərin adı ilə bağlı idi. Məhz onun şəxsində Azərbaycanı, azərbaycanlıları daha çox tanımağa başladılar. Xüsusilə də Heydər Əliyevin artıq Moskvada işə çağırılması, Siyasi Büroya üzv seçilməsi bu prosesi daha da sürətləndirdi.

Heydər Əliyev Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyəndə mən artıq Azərbaycan Təhsil Nazirliyinin göndərişi ilə Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetində əyani məqsədli aspiranturada oxuyurdum. Axşamlar istirahət saatlarında yataqxananın “qırmızı güşə”sində digər sovet respublikaları və xarici ölkələrdən olan aspirant və tələbələrlə birgə televizorda verilişlərə, o cümlədən xəbərlər proqramına baxardıq. Elə olurdu ki, Ulu Öndərin müxtəlif xarici ölkə nümayəndələri və yaxud da bir başqa məsələlərlə əlaqədar SSRİ Nazirlər Sovetində görüşlər keçirməsi haqqında məlumatlar verilirdi. Bu anlarda dinləyicilər diqqətini mənə yönəldib soruşurdular: Məqsəd, Heydər Əliyev də azərbaycanlıdır? Mənim müsbət cavabımdan sonra qibtə edirdilər ki, mənim millətimin belə böyük oğlu var və o, SSRİ kimi nəhəng bir dövlətin Siyasi Bürosunda təmsil olunmaqla yanaşı, yüksək bir vəzifədə çalışır. O anlarda mən özümü çox xoşbəxt hesab edirdim. Bu gün də Ulu Öndər Heydər Əliyevə minnətdaram ki, mənə elə xoş, unudulmaz anları yaşadıb.

1989-cu ildə Moskvada namizədlik dissertasiyamı müdafiə edərək texnika elmlər namizədi elmi dərəcəsinə layiq görüldüm və Azərbaycana qayıtdım. Əvvəlcə Azərbaycan Neft və Kimya İnstitutunda, 1992-ci ildən isə BDU-da baş müəllim, dosent, professor, Geodeziya və Kartoqrafiya kafedrasının müdiri işlədim. Hazırda isə həm də Coğrafiya fakültəsinin dekanı vəzifəsini icra edirəm.

Ulu Öndərin nurlu siması ilə növbəti görüşüm 1998-ci il avqust ayının 31-də baş tutdu. Heydər Əliyev Sarayında Ulu Öndərin istəyi ilə 1969-1988-ci illərdə respublikadan kənar şəhərlərin universitet və institutlarında təhsil almış tələbə-gənclərlə görüş keçirilirdi və mən də o görüşün iştirakçısı idim. Giriş qapısı tərəfdən qabaqda ikinci sırada əyləşmişdim. Ulu Öndər saraya daxil olanda mənim lap yaxınlığımdan keçdi, biz hamımız ayağa qalxıb onu sürəkli alqışlarla salamladıq. Həmin görüşdə çıxışa yazılmasam da, aspirantura və doktorantura təhsilimizi davam etdirmək üçün təhsil almış olduğumuz universitetlərdə müvafiq şəraitin yaradılması xahişimizin Ümummilli Liderə çatdırılmasını çıxışa yazılmış həmkarlarımızdan xahiş etmişdik.

Görüş başladı və Ulu Öndər əvvəlcə bizləri dinləmək istədiyini bildirdi. Bir sıra çıxışlardan sonra söz Heydər Əliyevə verildi. Həmişə olduğu kimi, Ulu Öndər yüksək natiqlik məharəti ilə öz çıxışına başladı, salon sükuta qərq oldu. O, öz çıxışında bizi öz balası kimi sevdiyini, bizlər üçün darıxdığını və ona görə də bu görüşün keçirilməsini istədiyini bildirdi. Qeyd etdi ki, bizim hamımızı əyani olmasa da, qiyabi tanıyır. Respublikadan kənar universitet və institutlara təhsil almağa göndərilən tələbələrin siyahılarını özündə əks etdirən kitabçaları o, öz arxivində saxlayır və zaman-zaman onu vərəqlədikcə bizləri bir daha yadına salır. Ulu Öndər dedi: "Siz Azərbaycan dövlətinin, xalqının ən qiymətli kapitalısınız. Sizləri Azərbaycanın dövlət və hökümət idarəetmə strukturlarına, institutlarına işə, qulluğa dəvət edirəm. Sizin potensialınızdan tam və səmərəli istifadə olunmalıdır". Təhsil Nazirliyinə daha yüksək hazırlıq keçmiş mütəxəssislərin siyahısını tərtib edib, Azərbaycan Respublikasının Prezident Aparatına, Nazirlər Kabinetinə təqdim etməyi tapşırdı.

Həmin görüşdə Ulu Öndər keçmiş sovet respublikaları arasında əlaqələrin zəifləməsi və bu səbəbdən elmi əməkdaşlıq sahəsində meydana çıxmış çətinliklərin aradan qaldırılması üçün tədbirlərin görülməsinə dair Təhsil Nazirliyinə müvafiq tapşırıqlar verdi. Məhz bu çalışmalar nəticəsində mənim 2002-ci ildə yenidən Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinə əyani məqsədli doktoranturaya göndərilməyim mümkün oldu. Mən əzmkarlıqla çalışaraq üç il ərzində dissertasiya işimi tamamladım, uğurla müdafiə edərək geodeziya-kartoqrafiya sahəsində elmlər doktoru elmi dərəcəsinə layiq görülmüş ilk azərbaycanlı oldum.

Ulu Öndərin dünyasını dəyişməsi xəbərini mən Moskvada doktoranturada təhsil alarkən eşitdim. Əlbəttə ki, bu xəbər məni olduqca kədərləndirdi. Səhərisi gün tezdən Azərbaycanın Rusiyadakı səfirliyinə gedib Ulu Öndərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib, onun portreti önünə gül dəstəsi qoydum və "Xatirə kitabı"nda başqa fikirlərlə yanaşı, aşağıdakıları yazdım: "Böyük şəxsiyyət Heydər Əliyevin öz xalqı qarşısında çoxsaylı, əvəzsiz xidmətlərinin ən əlamətdarlarından biri də onun Rusiya, Ukrayna, Belarus və başqa respublikaların nüfuzlu universitet və institutlarına nadir ixtisaslar üzrə azərbaycanlı gəncləri təhsil almağa göndərməsidir...".

Ulu Öndər öncədəngörmə qabiliyyətinə malik, xalqını həddsiz sevən və onun gələcəyini daim düşünən fenomen bir insan idi. O, əvvəlcədən Azərbaycanın müstəqil olacağını görürdü. Ona görə də respublikamızda hazırlığı aparılmayan ixtisaslar üzrə keçmiş sovet respublikalarında yerləşən nüfuzlu universitetlərdə mütəxəssis hazırlığına xüsusi diqqət yetirirdi. SSRİ dövründə bizim respublikamızda ərazimizin geodezik-kartoqrafik baxımdan təminatı digər respublikalardan çağırılan, əsasən də slavyan mənşəli mütəxəssislər tərəfindən həyata keçirilirdi və xəritələrin tərtibatı zamanı coğrafi obyektlərin adlarının (toponimlərin) yazılışında böyük qüsurlar baş verirdi. Onların qulaqları adları necə eşidirdisə, xəritələrdə elə də yazırdılar. Ona görə də Ulu Öndər geodeziya-kartoqrafiya sahəsinə diqqət göstərmiş, hər il müsabiqədənkənar qaydada Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinə 4-5 nəfər azərbaycanlı gəncin oxumağa göndərilməsinə nail olmuşdu. Həmin gənclərdən biri də mən idim. Bu gün müstəqil Azərbaycanın geodeziya-kartoqrafiya elmi və istehsalatı Ulu Öndərin yetişdirdiyi həmin mütəxəssislərin əlindədir. Onlar müstəqil dövlətimizin sərhədlərinin delimitasiya və demarkasiyasını, ölkə ərazisinin müasir geodeziya-kartoqrafiya təminatını həyata keçirirlər.

Heydər Əliyev dünyasını dəyişdikdən sonra müqəddəs missiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş "Neft potensialını intellekt kapitalına çevirək" devizi altında təhsildə geniş islahatlar aparılır, Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binaları tikilir, köhnələri təmir edilir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə xarici ölkələrin nüfuzlu universitetlərində azərbaycanlı gənclərin təhsil alması üçün xüsusi Dövlət Proqramları qəbul edilib və uğurla həyata keçməkdədir. Həmin proqramlar çərçivəsində oğlum Kanadanın Toronto Universitetinin, qızım isə Böyük Britaniyanın Nottingam Universitetinin məzunları olublar. Mən Prezidentimiz İlham Əliyevə, birinci vise-prezidentimiz Mehriban xanım Əliyevaya azərbaycanlı gənclərin xaricdə təhsil almaları üçün yaradılmış imkan və şəraitə görə öz dərin minnətdarlığımı bildirirəm.

Ulu Öndər Heydər Əliyevin nurlu siması, dühası heç vaxt unutmayacağam. Allahdan ona rəhmət diləyirəm.

***Məqsəd Qocamanov,***
*Geodeziya və kartoqrafiya kafedrasının müdiri, texnika elmlər doktoru, professor, Əməkdar müəllim*

# BDU kollektivi Fəxri xiyabanı ziyarət edib



Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Bakı Dövlət Universitetinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb. Ümummilli Lider Heydər Əliyevin xatirəsi hörmət və ehtiramla anılıb.

Daha sonra Universitet əməkdaşları BDU-da Ulu Öndərin büstü önünə gül dəstələri qoyublar.

# "Heydər Əliyev və azərbaycançılıq ideologiyası"

***Mayın 10-da Fizika fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və azərbaycançılıq ideologiyası" adlı tədbir keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Fakültə dekanı Bəxtiyar Paşayev Ulu Öndərin hər bir azərbaycanlı üçün nümunə olan şərəfli həyat yolundan bəhs edib. Bildirib ki, müasir Azərbaycan tarixinin bütöv bir mərhələsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyi Ulu Öndərin müdrik siyasəti nəticəsində əbədi və dönməz xarakter alıb. Prezident İlham Əliyevin rəhbərliyi və qüdrətli sərkərdəliyi ilə isə ərazi bütövlüyümüz təmin olunub.

Fizika fakültəsinin dekan müavini Məhəmməd Məhərrəmov Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasının öz bəhrəsini böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində verdiyini qeyd edib. Həmin müddətdə bütün dünya azərbaycanlıları xalqımızın haqq davasının müdafiəsində fəal iştirak etdilər, hər yerdə erməni yalanlarının ifşa edilməsində, təxribatlarının qarşısının alınmasında canla-başla mübarizə apardılar. Azərbaycanda yaşayan bütün etnik qrupların nümayəndələri torpaqlarımızın azadlığı uğrunda fədakarlıqla savaşdılar.

Azərbaycanın Türkiyədəki sabiq səfiri, Bərk cisimlər fizikası kafedrasının professoru Məmməd Əliyev çıxışında Ulu Öndər Heydər Əliyevlə 11 il ərzində birgə çalışmağından, onun tələbkarlığı və qayğıkeşliyindən danışıb, xatirələrini bölüşüb. Sonra fakültənin tələbələri Gülcan Qasımova, Lalə Zeynalova və Şövkət Xasıyeva Ulu Öndərə həsr olunmuş təqdimat edib, şeirlər söyləyiblər. Tədbir Ulu Öndərin ifasında "Azərbaycan" şeirinin səslənməsi ilə başa çatıb.

# "Heydər Əliyev humanizm siyasətinin banisidir" adlı tədbir

***Mayın 12-də Hüquq fakültəsi Ədliyyə Nazirliyi ilə birgə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev humanizm siyasətinin banisidir" adlı tədbir keçirib.***



Hüquq fakültəsinin dekanı Zaur Əliyev Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil dövlətimizin siyasətinin başlıca əsaslarından biri kimi humanizm ənənələrinin yaradılması, əfvetmə və amnistiya institutlarının təşəkkül tapması, ölüm cəzasının tətbiqinə moratorium qoyulmasından bəhs edib. Dekan Ədliyyə Nazirliyi ilə birgə "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Ədliyyə Nazirliyi İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova şamil edildiyi şəxslərin dairəsinə görə müstəqillik dövründə qəbul edilmiş ən böyük əfv aktı olan "Məhkum edilmiş bir sıra şəxslərin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının nəticəsində 801 nəfərin əfv olunması, onlardan 463 şəxsin azadlıqdan məhrum etmə cəzasından, 220 şəxsin azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfərin azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilməsinin əhəmiyyətini tələbələrin diqqətinə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvü Əliməmməd Nuriyev əfv institunun əhəmiyyəti, əfv edilən şəxslərin sosial həyata adaptasiyası barədə məlumat verib.

Tədbirin sonunda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# “Ulu Öndər Heydər Əliyev hüquqi islahatların banisidir” mövzusunda konfrans

***Mayın 8-də Hüquq fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş “Ulu Öndər Heydər Əliyev hüquqi islahatların banisidir” mövzusunda konfrans keçirilib.***



**Məhz Ulu Öndərin hüquqi islahatları çərçivəsində konstitusion rejim, mükəmməl hüquq sistemi, effektiv məhkəmə hakimiyyətinin yaradılması hüquq elminin inkişafında dönüş nöqtəsi yaradıb.**

Konfransı giriş sözü ilə açan Hüquq fakültəsinin dekanı Zaur Əliyev qeyd edib ki, müasir Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri var. Onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaq və bu irs heç zaman tükənməyəcək. Məhz Ulu Öndərin hüquqi islahatları çərçivəsində konstitusion rejim, mükəmməl hüquq sistemi, effektiv məhkəmə hakimiyyətinin yaradılması hüquq elminin inkişafında dönüş nöqtəsi yaradıb. Ümummilli Liderin başladığı səmərəli hüquqi islahatlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu təhsil, elm, mədəniyyət, sosial siyasət, Azərbaycanın dünyada tanıdılması istiqamətlərində önəmli işlər həyata keçirir.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov çıxışında Ulu Öndərin məhkəmə-hüquq islahatlarının respublikamızın müasir və demokratik əsaslarla inkişafında mühüm rolunu vurğulayıb.

Xarici işlər nazirinin müavini Xələf Xələfov Ulu Öndərin Azərbaycanın dünyaya tanıdılmasını, respublikanın milli maraqlarının beynəlxalq aləmdə qorunmasını rəhbər tutan xarici siyasəti haqqında ətraflı məlumat verib və 10 ilə yaxın dövr ərzində Ümummilli Liderin rəhbərliyi altında çalışdığını qürur hissi ilə bildirib.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov Ulu Öndərin Azərbaycan vəkilliyinin formalaşması və inkişafında əvəzsiz rolundan bəhs edib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Ulu Öndərin sosial siyasətinin əsas istiqamətlərindən danışıb, sosial inkişafın statistik göstəricilərini konfrans iştirakçılarının diqqətinə çatdırıb. Azərbaycan Respublikası Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov ölkədə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində mediasiya institutunun rolu, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli prokurorluq sisteminin inkişafında Ulu Öndərin misilsiz xidmətləri haqqında çıxış ediblər.

Konfransın sonunda Ulu Öndərə həsr edilmiş film nümayiş etdirilib.

# Akademik Rəfiqə xanım Əliyevanın anım günüdür



***Mayın 6-sı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə xanım Əliyevanın anım günüdür.***

Görkəmli alim, akademik Rəfiqə Əlirza qızı Əliyeva onu tanıyanların yaddaşında əsl Azərbaycan qadını, elm fədaisi və humanist qəlbli insan kimi yaşayır, işıqlı xatirəsi daim ehtiramla anılır.

Rəfiqə Əliyeva 1932-ci il sentyabrın 20-də Naxçıvan şəhərində anadan olub. Ali təhsilini 1951–1956-cı illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində alıb. Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Politexnik İnstitutunda başlayan Rəfiqə Əliyeva 1957-ci ildən etibarən BDU-da, 1958-1960-cı illərdə isə Azərbaycan Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda kiçik elmi işçi kimi çalışıb. 1960-1963-cü illərdə BDU-nun Kimya fakültəsinin aspiranturasında təhsil alan Rəfiqə Əliyeva 1964-cü ildən ömrünün sonuna qədər Universitetin Analitik kimya kafedrasında işləyib və burada assistent, baş müəllim, dosent, professor vəzifələrini tutub. O, 2001-ci ildən “Ekoloji kimya və ətraf mühitin mühafizəsi” elmi-tədqiqat laboratoriyasına rəhbərlik edib.

Rəfiqə Əliyeva 1970-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyalarını müdafiə edib və həmin ildə professor adına layiq görülüb. 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib. O, Azərbaycanın elm tarixində analitik kimya ixtisası üzrə ilk və yeganə akademik kimi qalır. Görkəmli akademik 2017-ci il mayın 6-da əbədiyyətə qovuşub.

Ömrünü kimya elminə həsr etmiş Rəfiqə Əliyeva bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına bütün bilik və bacarığını sərf edib. Yarım əsrdən artıq pedaqoji fəaliyyətlə məşğul olan alimin araşdırmaları analitik reaksiyaları xarakterizə edən parametrlərlə kompleks birləşmələrin quruluşu arasındakı asılılığın müəyyən edilməsinə həsr olunub. Rəfiqə xanımın ətraf mühitin mühafizəsi ilə bilavasitə bağlı olan bir sıra tədqiqatları, eyni zamanda, üzvi reaktivlərin köməyi ilə metalların təyini və onların ayrılması metodikasının işlənib hazırlanmasına yönəlib. Ekologiyanın aktual problemləri ilə bağlı işləri isə ölkəmizin davamlı inkişafının təmin olunmasına öz töhfəsini verib.

450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifi olan Rəfiqə Əliyeva bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olub. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.

Akademik Rəfiqə Əliyevanın elmi-pedaqoji fəaliyyəti Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilib. Azərbaycan Prezidentinin sərəncamı ilə o, “Əməkdar elm xadimi” adına layiq görülüb, “Şöhrət” ordeni ilə təltif edilib. Akademik Y.Məmmədəliyev adına mükafatın laureatı olan Rəfiqə Əliyeva Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Amerika Biblioqrafiya İnstitutu tərəfindən “2001-ci ilin adamı” və “2001-ci ilin işgüzar qadını” seçilib. 2018-ci ildə “Azərbaycanım” Beynəlxalq Jurnalının redaksiya şurası “Akademik Rəfiqə Əliyeva adına Qızıl Orden” təsis edib.

Onun ekologiyaya və ümumi ekologiyaya aid dərs vəsaitləri isə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Həsən Əliyev adına mükafatı ilə qiymətləndirilib.

Görkəmli alim, həssas qəlbli insan, qayğıkeş ana Rəfiqə xanım Əliyevanın əziz xatirəsi qəlbimizdə həmişə yaşayacaq və gənc nəsil onun yaratdığı elmi istiqaməti davam etdirəcək.

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olumuş elmi seminar

***Mayın 8-də İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.***



Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov “Azərbaycanda tibb elminin informasiya təminatı” mövzusunda məruzə ilə çıxış edib. Nadir İsmayılov əvvəlcə Azərbaycanda tibb elminin təşəkkülü, formalaşması və inkişafı tarixinə nəzər salıb. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda saxlanılan, ölkəmizdə tibb elminin bünövrəsi hesab olunan əsərlər barədə məlumat verib. Azərbaycanda tibb elminin yeni inkişaf mərhələsinin 1919-cu ildə BDU-da Tibb fakültəsinin yaradılması ilə bağlı olduğunu diqqətə çatdırıb.

Məruzədə tibb elminin inkişafında, o cümlədən bu sahənin informasiya təminatının formalaşmasında professor Əziz Əliyevin müstəsna xidmətləri olduğu vurğulanıb. Bildirilib ki, professor Əziz Əliyev Tibb Universitetinin nəzdində kitabxananın, nəşriyyatın, elmi jurnal və qəzetin əsasını qoymaqla ölkəmizdə tibb elminin informasiya təminatında mühüm bir mərhələnin əsasını yaradıb. Nadir İsmayılov bütün bu ənənələri öz elmi irsində və praktik fəaliyyətində uğurla davam və inkişaf etdirən akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 noyabr 2022-ci il tarixli Sərəncamının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Tədqiqatçı görkəmli alim, oftalmologiya sahəsində mühüm tədqiqatların, sanballı elmi əsərlərin müəllifi, akademik Zərifə Əliyevanın irsi haqqında ölkəmizdə və xaricdə mövcud olan sənəd-informasiya axınının təşəkkülü, inkişafı və müasir vəziyyətini kompleks təhlil edib. Akademik Zərifə Əliyevanın irsinə dair sənəd axınının tədqiqində Milli Kitabxana tərəfindən “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyası ilə nəşr edilmiş “Zərifə Əliyeva” biblioqrafik göstəricisinin xüsusi əhəmiyyət daşıdığını bildirən natiq biblioqrafiyada alimin əsərləri, həyat və yaradıcılığına dair mühüm faktların əksini tapdığını qeyd edib. Məruzədə akademik Zərifə Əliyevanın irsinə dair çap edimiş əsərlər ədəbiyyat növlərinə və müəlliflərin əlifba göstəricisinə görə təsnifləndirilib, bir sıra müqayisəli təhlillər aparılıb.

Nadir İsmayılov akademik Zərifə Əliyevanın irsinə dair çap edimiş əsərlərin ölkəmizdə tibb elminin informasiya təminatının zənginləşməsində mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulayıb.

Məruzə auditoriya tərəfindən böyük maraqla dinlənilib, elmi seminar müzakirələrlə davam edib.

# BDU-nun Heydər Əliyev muzeyinin və lektoriyasının əsaslı yenidənqurmadan sonra açılış mərasimləri

***Mayın 24-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Heydər Əliyev muzeyinin və lektoriyasının əsaslı yenidənqurmadan sonra açılış mərasimləri keçirilib.*** Açılış mərasimində elm və təhsil naziri Emin Əmrullayev, BDU-nun rektoru Elçin Babayev, Yerusəlim İbrani Universitetinin Beynəlxalq məsələlər üzrə vitse-prezidenti Oron Şagrir, təhsil, elm ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



BDU-nun Heydər Əliyev muzeyi 1997-ci ildə Ulu Öndərin şəxsi razılığı ilə yaradılıb. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar BDU-nun Tədbirlər Planı çərçivəsində muzey ən müasir standartlarla əsaslı şəkildə yenidən qurulub. Muzeyin sol tərəfində BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən fotoşəkil və sənədlər nümayiş olunur. Monitorda isə “elektron muzey” formatında Ümummilli Liderin həyatı və zəngin fəaliyyətinə dair məlumatlar təqdim edilir. İkinci bölmədə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü, müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması tarixi – 1969-1982-ci illəri ehtiva edən fotoşəkillər əks olunub. Üçüncü bölmə isə müdrik dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü, müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi kimi fəaliyyətini əks etdirir.

Muzeyin sağ hissəsində isə Ulu Öndərin BDU ilə bağlı fəaliyyəti, Universitetə doğma, əziz münasibətinə dair məlumatlar yer alır. Ümummilli Lider fəaliyyətinin bütün dövrlərində tez-tez doğma Universitetinə gəlib, hər zaman BDU-ya xüsusi diqqət göstərib. Məlum olduğu kimi, 1969-cu il noyabrın 1-də BDU-nun 50 illik yubileyi təntənəli şəkildə qeyd olunub. Həmin vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin tədbirdə ana dilində nitq söyləməsi Ümummilli Liderin böyük cəsarətinin, xalqına və dilinə sonsuz bağlılığının göstəricisi idi.

Ulu Öndər 1994-cü ildə BDU-nun 75 illik yubileyində böyük nitq ilə çıxış etmişdi. O, çıxışında Bakı Dövlət Universitetinin 75 ildə qazandığı nailiyyətləri, respublikanın ictimai, siyasi və mədəni həyatında oynadığı rolu, respublika ali məktəblərinin mərkəzi və bayraqdarı olmasını bildirmişdi.

Muzeydə 2 elektron məlumat lövhəsi tələbə, müəllim, eləcə də ictimaiyyət üzvlərinə xidmət üçün istifadədədir. Muzey bütün təhsil ocaqlarının şagird və tələbələrinə Ümummilli Lider Heydər Əliyev irsinin, dövlət başçısı və xadimi kimi fəaliyyətinin fotoşəkillər, nadir və qiymətli eksponatlarla öyrənilməsi üçün hər zaman açıqdır. Eləcə də böyük monitor Ulu Öndərin irsinin öyrənilməsi, Ümummilli Liderlə bağlı filmlərin nümayiş olunmasında istifadə olunur.

Bu muzeyi dünyanın tanınmış ictimai-siyasi xadimləri, elm və təhsil nümayəndələri ziyarət edib, təəssüratlarını bölüşüblər. Muzeyin çoxsaylı ziyarətçiləri arasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də olub. Cənab Prezident İlham Əliyev 2000 və 2009-cu illərdə Universitetə səfəri zamanı muzeyi ziyarət edib və “Xatirə kitabı”na öz tarixi fikirlərini yazıb.

Foyedə də əsaslı şəkildə yeni konsepsiya ilə təmir işləri aparılıb. Belə ki, BDU-nun yaranma və inkişaf tarixi, Universitet həyatında önəmli tarixlər şəkil və elektron formatda əks olunub. BDU-nun 1919-cu ildə ilk dərslərinə başladığı Tarix-filologiya fakültəsinin binası, Tibb fakültəsinin yerləşdiyi ilk bina, sol tərəfdə daha sonrakı illərdə (1943-66) tədris binası və hazırkı əsas bina öz əksini tapıb.

Ümummilli Lider Heydər Əliyevin irsinin təbliğinə növbəti töhfə olan BDU-nun Heydər Əliyev lektoriyası 2009-cu ildə Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə təsis olunub. Lektoriya da tamamilə yeni insfrastrukturda, müasir konsepsiyaya uyğun şəkildə təmir olunub. Əvvəldən burada olmayan istilik-soyutma təchizatı, robot kameralar, ayrıca rəqəmsal idarəetmə mərkəzi lektoriyada keçirilən tədbirlərin, görüşlərin texniki cəhətdən ən yüksək səviyyədə təşkilinə imkan yaradacaq. Rəqəmsal monitorların birbaşa sürətli internetə girişi vasitəsilə anında ölkədaxili və xarici onlayn bağlantılar vasitəsilə beynəlxalq konfrans, qonaqların qəbulu, seminarlar, tədbirlər və s. keçiriləcək. Lektoriyada Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinə böyük dövlət xadimlərinin həsr etdiyi nadir kitablar, dərgilər də sərgilənməkdədir. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlərin, ən əsası isə Heydər Əliyev irsinin təbliğinin ən yüksək səviyyədə təşkilinə bir ərmağandır.

# BDU və İsrailin Yerusəlim İbrani Universiteti arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqavilələri imzalanıb

***Mayın 24-də Bakı Dövlət Universiteti və İsrailin Yerusəlim İbrani Universiteti (Hebrew University of Jerusalem (HUJI)) arasında ikili diplom proqramı və birgə tədqiqat üzrə əməkdaşlıq müqavilələrinin imzalanması mərasimi keçirilib.***





Əvvəlcə hər iki universitetlə bağlı tanıtım çarxları nümayiş olunub.

Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, HUJI ilə Biotexnologiya üzrə ikili diplom proqramının yaradılması akademik mükəmməlliyə və qlobal tərəfdaşlığa doğru uzun yolun başlanğıcıdır. Bu proqram Bakı Dövlət Universiteti və Yerusəlim İbrani Universiteti üçün böyük elmi nailiyyətlər və beynəlxalq əməkdaşlığın yeni dövrünün başlanğıcı olacaq: “İkili diplom proqramı biotexnologiyanın ən son nailiyyətlərini əhatə edən tədris planı vasitəsilə hər iki qurumun yanaşmasını birləşdirəcək. Bu əməkdaşlıq vasitəsilə tələbələrimiz İsrailin tanınmış professor-müəllim heyəti və mütəxəssisləri ilə birbaşa çalışacaq, biliyi mənbəyində əldə edəcəklər. Həm də onlar müxtəlif mütəxəssis yanaşmalarını, qabaqcıl tədqiqatları və mürəkkəb bioloji problemlərin həllinə innovativ yanaşmaları dərindən mənimsəyəcəklər. Sözügedən proqram tələbələrimizin akademik təcrübəsini artırmaqla yanaşı, mədəni mübadilə və beynəlxalq şəbəkələşmə üçün də yeni imkanlar yaradacaq. Tələbələrimiz Bakı və Yerusəlimin zəngin akademik və mədəni mühiti ilə tanış olmaq, mədəniyyətlərarası qardaşlığı gücləndirmək şansı əldə edəcəklər. Bu proqram müstəsna təhsil və elmi tədqiqat imkanları yaradacaq”.

Elm və təhsil naziri Emin Əmrullayev isə bildirib ki, bu layihə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na əsasən həyata keçirilir. Proqramın ikili diplom proqramları üzrə ikinci istiqamətinə uyğun olaraq bu illər ərzində ölkənin bir neçə ali məktəbi ilə müxtəlif ölkələrin ali məktəbləri arasında ikili diplom proqramları imzalanıb. Həmin proqramlara əsasən, indiyədək 1000-dən artıq Azərbaycan vətəndaşı ölkədən ayrılmadan dünyanın ən qabaqcıl universitetlərinin diplomunu əldə edib: “BDU və Yerusəlim İbrani Universiteti arasında imzalanan ikili diplom proqramı Azərbaycan tələbələri, cəmiyyəti, iqtisadiyyatı üçün böyük əhəmiyyətə malikdir. Bu proqram eyni zamanda Azərbaycan-İsrail münasibətlərini daha da irəli aparacaq, hər iki universitet üçün uğurlu olacaq. Proqramdan Azərbaycanın 100-dən artıq vətəndaşı faydalanacaq”.

Təhsil İnstitutunun direktoru Rüfət Əzizov isə qeyd edib ki, bu proqram BDU-nun həm təhsil, həm tədqiqat sahəsində potensialını artıracaq. Proqramın icrası BDU-nun biotexnologiya sahəsində inkişaf etməsində faydalı rol oynayacaq: “Layihə 3 istiqamətdən ibarətdir. Birinci istiqamət ikili diplom üzrə magistr proqramını əhatə edir. İkinci istiqamətdə hər iki universitetin gənc tədqiqatçı və tələbələrinin iştirakı ilə birgə tədqiqatların aparılmasını əks etdirir. Proqram çərçivəsində 5 il müddətində 10 layihə həyata keçirləcək və hər bir layihə 4 il davam edəcək. Layihənin üçüncü istiqaməti isə biotexnologiya sahəsində doktorantura təhsili ilə bağlıdır”.

Yerusəlim İbrani Universitetinin Beynəlxalq məsələlər üzrə vitse-prezidenti, professor Oron Shagrir isə vurğulayıb ki, layihə hər iki universitetin tələbələrinə birgə tədqiqat aparmaq və beynəlxalq təcrübə qazanmaq imkanı verəcək: “BDU tələbələri bu sahədə beynəlxalq təcrübəni öyrənib, Azərbaycanda həmin bilikləri tətbiq edəcəklər. Bu layihə ikitərəfləri tədiqatların aparılması üçün başlanğıcdır. Layihədən gözləntilərimiz çoxdur”.

Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Milix Yevdayev isə bu proqramın iki xalqın müttəfiqlik münasibətlərini daha da gücləndirəcəyini bildirib: “İsrail bizim tarixi, Azərbaycan isə ana Vətənimizdir. Azərbaycan multikulturalizm, tolerantlıq sahəsində dünyada analoqu olmayan nümunə yaradıb”.

Sonra BDU və Yerusəlim İbrani Universiteti arasında ikili diplom proqramı və birgə tədqiqat üzrə əməkdaşlıq müqavilələri imzalanıb. Müqavilələri BDU rektoru Elçin Babayev və Yerusəlim İbrani Universitetinin Beynəlxalq məsələlər üzrə vitse-prezidenti Oron Shagrir imzalayıblar. Tədbir “Azərbaycan-İsrail dostluğu” adlı bədii proqramla davam edib.

# Türkiyənin Qars Qafqaz Universitetinin rektoru ilə görüş



***Mayın 4-də BDU-nun rektoru Elçin Babayev Türkiyənin Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapının başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Lənkəran Dövlət Universitetinin rektoru Natiq İbrahimov da iştirak edib.*** Rektor Elçin Babayev qonaqlara BDU-da tədris və elmi fəaliyyətlə bağlı məlumat verib. Qeyd edib ki, BDU-nun 16 fakültəsində elmin bütün sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. "Tədqiqat universiteti" adı almağa hazırlaşan BDU-da son illər Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, müxtəlif elmi-tədqiqat laboratoriyaları yaradılıb.

Rektor BDU-nun Türkiyənin 10-dan artıq tanınmış universiteti ilə əməkdaşlıq etdiyini bildirib. O, Qars Qafqaz Universiteti ilə şərqşünaslıq, arxeologiya, təbiət elmləri sahəsində əməkdaşlıq imkanlarının olduğunu diqqətə çatdırıb. Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapı iki qardaş ölkə arasında təhsil və elm sahəsində əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb və Azərbaycanın ən böyük universiteti olan BDU ilə elmin müxtəlif sahələri üzrə əməkdaşlıq etməkdə maraqlı olduqlarını bildirib.

Görüşdə BDU ilə Qars Qafqaz Universiteti arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# BDU rektoru Masallı gəncləri ilə görüşüb



***Mayın 19-da BDU-nun rektoru Elçin Babayev Masallı rayon Tarix-diyarşünaslıq muzeyində rayon gəncləri ilə görüşüb.*** Gənclərin arzu-istəkləri, təhsilləri ilə maraqlanan rektor onları dövlətimizin maraqlarını qorumaq və ölkəmizin daha da qüdrətlənməsi üçün fəal olmağa çağırıb.

Rektor qeyd edib ki, Azərbaycan gənclərinin Vətənə sədaqət ruhunda tərbiyə edilməsi məsələsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri olub. Ümummilli Lider hakimiyyətdə olduğu illərdə gənclərin inkişafına, təhsilinə böyük qayğı ilə yanaşıb: "Ulu Öndər ölkəmizi yüksəkixtisaslı kadrlarla təmin etmək üçün minlərlə gənci keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərirdi. Həmin gənclər indi müstəqil dövlətimizin güclənməsi üçün çalışırlar".

Elçin Babayev bildirib ki, dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələdə daha da inkişaf etdirilib. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsi olaraq bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, dövlətçilik məfkurəsinə, yüksək ideyalara malik gənclər formalaşıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz gənclərimizin torpaq, Vətən sevgilərini bir daha nümayiş etdirdi.

Rektor gənclərə BDU-nun fəaliyyəti, son illər aparılan islahatlar haqqında da məlumat verib, onların suallarını cavablandırıb.

# BDU Masallının 3 məktəbinə kitablar hədiyyə edib

***BDU və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Masallı şəhər R. Əlihəsənov adına 1 saylı, N. Həsənov adına Göyəçöl və Bədələn kənd orta məktəblərinin hər birinə 246 adda 348 nüsxə kitab hədiyyə edilib.*** Hədiyyə olunan kitablar arasında BDU-nun öz nəşrləri, Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müsahibələri, Universitet alimlərinin fəaliyyətini əks etdirən nəşrlər, bədii, tarixi, elmi əsərlər yer alıb.

# Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının sədri ilə görüş




***Mayın 24-də BDU-nun rektoru Elçin Babayev Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının rəhbəri, Vyetnamın Audit Palatasının sədr müavini Dang The Vinhlə görüşüb.*** Azərbaycanda səfərdə olan qonaq eyni zamanda BDU-nun Hüquq fakültəsinin məzunudur.

Rektor Elçin Babayev BDU məzunlarının Universitetin şərəfli tarixinin bir parçası olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanla Vyetnam dost ölkələr sayılır, iki ölkə arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Bu əlaqələrin inkişaf etdirilməsində təhsil, elm əlaqələri xüsusi önəm daşıyır. Rektor iki ölkə arasında münasibətlərin inkişafında Azərbaycanda və Vyetnamda təhsil almış məzunların da rolunun olduğunu bildirib.

Vyetnam-Azərbaycan Dostluq Assosiasiyasının rəhbəri, Vyetnamın Audit Palatasının sədr müavini Dang The Vinh görüşə görə təşəkkürünü bildirib, tələbəlik illərini xatırlayıb. O qeyd edib ki, indiyədək 4000-dək vyetnamlı Azərbaycanda təhsil alıb. Rəhbərlik etdiyi Assosiasiyanın fəaliyyəti barədə məlumat verən qonaq rektor Elçin Babayevi Vyetnama dəvət edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

# Pakistan universitetlərinin nümayəndə heyəti BDU-da

***Mayın 11-də Pakistanın Quaid-I-Azam Universiteti və İslamabad Fond Universitetinin nümayəndə heyəti BDU-da olub.*** Quaid-I-Azam Universitetinin "Alfa" genomika şirkətinin direktoru İbrar Əhməd, professorları Məhəmməd İştiaq, Monireh Bahram, İslamabad Fond Universitetinin Tədqiqat və İnnovasiyalar Mərkəzinin direktoru Shagufta Akhtar, Biznes İnkubasiya Mərkəzinin meneceri Syed Taimoor Hassan molekulyar biologiya, botanika, bioinformatika sahələrində BDU ilə birgə tədqiqat perspektivləri üzrə müzakirələr aparıblar.

Görüşdə BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Mais Süleymanov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Biologiya fakültəsinin dekanı Afət Məmmədova, fakültənin professor-müəllim heyəti iştirak edib.

# "Heydər Əliyev - BDU-nun dünya şöhrətli məzunu" esse müsabiqəsinin nəticələri elan olunub



Mayın 12-də BDU tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "HEYDƏR ƏLİYEV – BDU-NUN DÜNYA ŞÖHRƏTLİ MƏZUNU" adlı esse müsabiqəsinin nəticələri elan edilib.

Müsabiqəyə 70-dən artıq esse təqdim olunub. Təqdim olunmuş esselər Müsabiqə komissiyası tərəfindən qiymətləndirilib.

Müsabiqə komissiyasının qərarı ilə Tarix fakültəsinin II kurs magistrantı Nuridə Süleymanova I, Mexanika-riyaziyyat fakültəsinin III kurs tələbəsi Zeynəb Hacıyeva II, Jurnalistika fakültəsinin IV kurs tələbəsi Əsgər İsmayılov III yerə layiq görülüblər.

Jurnalistika fakültəsinin III kurs tələbəsi Nəzrin Gəncəliyeva və Filologiya fakültəsinin II kurs tələbəsi Almaz Məmmədova isə həvəsləndirici yerləri qazanıblar.

Qalib esse müəllifləri diplom, pul mükafatı və hədiyyələrlə təltif ediliblər. Qalib elan edilmiş esselər BDU-nun rəsmi saytı, sosial mediada və "Bakı Universiteti" qəzetində dərc olunacaq.

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə ağacəkmə aksiyası



***Mayın 19-da BDU və Masallı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.***

Aksiyada BDU-nun rektoru Elçin Babayev, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, Universitetin professor-müəllim heyəti, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Ağacəkmə tədbirinin keçirilməsində məqsəd ölkəmizdə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etməkdir. Aksiya zamanı 100 ağac əkilib.

# BDU tələbələri Dayanıqlı İnkişaf Məqsədlərinə dair təlimin sertifikatına layiq görülüblər

***Mayın 22-də İqtisadiyyat Nazirliyi, ADA Universiteti və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Gənclər üçün Dayanıqlı İnkişaf Məqsədləri (DİM) və Maliyyə Akademiyası" mövzusunda təlim proqramı yekunlaşıb.***

Bununla əlaqədar ADA Universitetində keçirilən tədbirdə çıxış edən Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov ölkəmizin BMT-yə üzv olduğu tarixdən etibarən təşkilatla əməkdaşlığın uğurla davam etdiyini, bu müddət ərzində BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə bir sıra layihələrin icra olunduğunu diqqətə çatdırıb. Hazırda ölkəmizdə



DİM-lərə investisiyanın cəlb edilməsinə dair DİM İnvestisiya Xəritəsi layihəsi hazırlanır. Bu layihə çərçivəsində 2023-cü ilin noyabr ayında Bakıda DİM-lərin həyata keçirilməsində beynəlxalq və regional tərəfdaşlığın gücləndirilməsi üçün BMT-nin İnkişaf Proqramı ilə birgə "Dayanıqlı İnkişafa dair ikinci Bakı Forumu"nun keçiriləcəyi nəzərdə tutulur. Tədbirdə Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında maarifləndirmənin əhəmiyyəti vurğulanıb, keçirilən təlim proqramının bu xüsusda vacibliyi qeyd edilib.

İnteraktiv sessiyalarla davam edən tədbirdə müvafiq dövlət orqanları, BMT-nin İnkişaf Proqramının nümayəndələrinin moderatorluğu və müxtəlif ali təhsil müəssisələlərindən təlimə cəlb edilmiş tələbələr tərəfindən hazırlanan "Sağlamlıq və rifah üçün səhiyyə sistemi", "Keyfiyyətli və ömürboyu təhsilə nail olmaq istiqamətində sosial dialoqun təşkili və maliyyənin təmini" və "Kənd təsərrüfatı texnologiyalarının iqlim dəyişikliyi ilə mübarizədə rolu" layihələri müzakirə edilib. Bakı Dövlət Universitetinin (BDU) Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbələri Abbas Əliyev, Akif Eyyubov, Nəzrin Quliyeva, Ayxan Osmanlı, Cavidan Aslanlı, Adil Şükürov, Nəzrin Fətəlizadə, Tamerlan Məmmədzadə, Müşgünaz Məlikli, Aysu Əzimzadə, Lalə Dərgahova, Nurlan Əsgərov təlimdə fəal iştiraklarına görə sertifikatla təltif olunublar.

BDU-nun tələbəsi Tamerlan Məmmədzadə təlimin fərqlənmə serifikatı ilə təltif edilib.

# BDU Türkiyənin İstanbul Texniki Universiteti ilə birgə layihələrə başlayıb

***Mayın 31-də BDU-da Türkiyə Respublikasının İstanbul Texniki Universitetinin rektoru İsmail Koyuncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub. Görüşdə elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli də iştirak edib.***

BDU-nun rektoru Elçin Babayev Türkiyənin ən tanınmış universitetlərindən olan İstanbul Texniki Universiteti ilə əməkdaşlıq əlaqələrinin yaradılmasının önəmli bir ilə təsadüf etdiyini bildirib. Bu il Ümummilli Lider Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illik yubileyləri böyük coşqu ilə qeyd edilir. Rektor bir neçə gün qabaq Türkiyədə prezident seçkilərində Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə qələbəsinin türk dünyasını daha da gücləndirəcəyini, Azərbaycan və Türkiyə qardaşlığını daha da inkişaf etdirəcəyini qeyd edib: "BDU və İstanbul Texniki Universitetinin elm və təhsil sahəsində birgə əməkdaşlığı qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirəcək. Birgə görəcəyimiz işlər çoxdur. Hər iki universitet öz potensiallarını birləşdirəcək və ortaq elmi araşdırmalar, layihələr həyata keçirəcək".

İstanbul Texniki Universitetinin rektoru İsmail Koyuncu da Azərbaycanın ilk və ən böyük ali təhsil ocağı BDU ilə əməkdaşlığın faydalı olacağını bildirib. O diqqətə çatdırıb ki, İstanbul Texniki Universiteti mühəndislik, BDU isə dəqiq elmlər sahəsində böyük potensiala malikdir. Bunun nəticəsində qardaş



ölkələrimizin maraqlarına uyğun layihələr həyata keçiriləcək.

Qeyd edək ki, BDU və İstanbul Texniki Universitetinin ekologiya, neft-qaz mühəndisliyi, elektronika, fizika mühəndisliyi, kimya mühəndisliyi, İT mühəndisliyi, geologiya mühəndisliyi, hidrologiya istiqamətlərində birgə elmi araşdırmalar aparması, layihələr həyata keçirməsi, beynəlxalq elmi konfrans və seminarlar təşkil etməsi nəzərdə tutulur. Bununla yanaşı, BDU və İstanbul Texniki Universitetində hər iki məktəbin tanınmış professorlarının mühazirələri təşkil olunacaq, habelə müəllim-tələbə mübadiləsi həyata keçiriləcək.

# BDU tələbələri "Azerbaijan Fish Farm" MMC-də

***Mayın 23-də IDEA İctimai Birliyi və "Azerbaijan Fish Farm" MMC-nin tərəfindən BDU-nun bir qrup magistrantı üçün Beynəlxalq Biomüxtəliflik Günü münasibətilə Neftçala rayonunda yerləşən Xıllı Nərə Balıqartırma Zavoduna məlumatlandırıcı tur təşkil edilib.***

Tur zamanı BDU-nun Biologiya fakültəsinin magistrantları və akademik heyəti dayanıqlı üsullarla ekoloji cəhətdən təmiz və sağlam dəniz məhsullarının istehsalı prosesi ilə tanış olublar. İştirakçılar üçün akvakultura balıqçılığı və nərəcinsli balıqların yetişdirilməsi haqqında geniş təqdimat nümayiş etdirilib, Xıllı Nərə Balıqartırma Zavodunun təsərrüfat ərazisi və dəniz sahəsinə ekskursiya təşkil olunub.

Tələbələrə nərəkimilər fəsiləsinin növlərinin və alabalığın yetişdirilməsi metodları, eləcə də nərə kürüsünün istehsalı üzrə tətbiq olunan müasir texnologiyalar barədə məlumat verilib. Qeyd edilib ki, hazırda dünyada dəniz bioresurslarının qarşılaşdığı təhlükələr fonunda dayanıqlı balıq təsərrüfatının inkişafı həm ətraf mühit, həm iqtisadiyyat, həm də qida təhlükəsizliyi üçün olduqca vacib əhəmiyyət kəsb edir.

# "Azərbaycan Respublikası ərazisinin səpinti qızıllılığının qısa icmalı" mövzusunda elmi seminar

***Mayın 26-da Geologiya fakültəsində "Azərbaycan Respublikası ərazisinin səpinti qızıllılığının qısa icmalı" mövzusunda elmi seminar keçirilib.***

Ümumi və tarixi geologiya kafedrasının dosenti Təranə Təhməzova mövzu ilə bağlı məruzəsində qeyd edib ki, Azərbaycan ərazisi davamlı və uzunmüddətli qızılçıxarma sənayesinin yaradılması üçün böyük perspektivliyə malikdir. Son onilliklər ərzində aşkar edilmiş çoxsaylı qızıl yataqları və təzahürləri (həm məxsusi qızıl, həm də digər metallarla kompleksdə) bunu təsdiq edir. Qızıl yataq və təzahürlərini iki qrupda birləşdirmək olar. Birinci qrupa dağ süxurlarında bilavasitə formalaşma yerində aşkar olunan köklü qızıl yataqları aid edilir. İkinci qrup köklü qızıl yataqlarının aşınması, çöküntülərin onlardan müxtəlif məsafələrə daşınması nəticəsində əmələ gəlmiş səpinti qızıl yataqlarıdır. Səpinti qızıl yataqlarının işlənməsində əlavə texnoloji emal tələb olunmadığından iqtisadi cəhətdən çox əlverişlidir. Köklü yataqlarla yanaşı, ölkə ərazisi səpinti qızıllılıq baxımından da əhəmiyyətli resurslara malikdir.

Məruzəçi bildirib ki, strateji əhəmiyyətə malik olan səpinti qızıl yataqlarının işlənilməsi iqtisadi inkişaf, yüksək rentabellik, yeni iş yerlərinin açılması, birbaşa xarici investisiya, valyuta gəlirlərinin artması, ekoloji tarazlığın qorunması və s. kimi xüsusiyyətlərlə səciyyələnir. Azərbaycan ərazisində Kiçik Qafqazın, Böyük Qafqazın Azərbaycan hissəsi, Dağlıq Talış, Naxçıvan ərazilərindəki çayların əksəriyyətində səpinti qızıl yataq və təzahürləri aşkar edilib, ehtiyatları hesablanıb. Müasir dövrdə yeni laboratoriya, kosmik, riyazi modelləşdirmə üsullarından istifadə etməklə yer səthinə yaxın və dərinliklərdə yerləşən səpinti qızıl yataqlarının aşkar edilməsi, işlənilməsi tələbə və magistrantlar qarşısında yeni vəzifələr qoymaqla yanaşı, geniş elmi-tədqiqat və təcrübə imkanları yaradır.

Sonda mövzu ilə bağlı müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Qəbələdə alban məbədləri ziyarət edilib



***Mayın 31-də Tarix fakültəsinin tələbə-müəllim heyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində Qəbələ rayonuna səfər edib. Səfər zamanı Nic kəndi, alban kilsələri, "Azərbaycan Udi Ocağı" tarixi etnoqrafik park muzeyi, Müqəddəs Yelisey adına Cotari kilsəsi, Bulun kilsəsi, Alban-udi xristian dini icması ziyarət edilib.***

2019-cu ildə Heydər Əliyev Fondu Bulun kilsəsində bərpa işlərinə başlayıb və 2020-ci ildə 44 günlük müharibə zamanı bərpa işləri başa çatıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il mayın 15-də Bulun kilsəsini və Müqəddəs Yelisey adına Cotari kilsəsini ziyarət edib, görülən işlərlə tanış olub.

"Azərbaycan Udi Ocağı" tarixi etnoqrafik park muzeyinə ziyarət zamanı Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Alban-udi xristian icmasına və alban kilsələrinə göstərilən qayğıdan bəhs edib.

Alban-udi xristian icmasının sədri Robert Mobili "Azərbaycan Udi Ocağı"nın gənc nəslin tariximizi öyrənməsi və hörmət etməsi yönündə oynadığı roldan danışıb, ziyarətçiləri muzeylə yaxından tanış edib.

# “Kimya və kimya texnologiyası” mövzusunda II Respublika elmi konfransı

***Mayın 4-də Kimya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş doktorant, magistr və gənc tədqiqatçıların “Kimya və kimya texnologiyası” adlı II Respublika elmi konfransı keçirilir.***

Konfransı giriş sözü ilə açan BDU-nun Kimya fakültəsinin dekanı Fuad Kərimli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında “Heydər Əliyev İli” elan edilib. BDU-da da Ümummilli Liderin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir. Fuad Kərimli Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu və elmimizin inkişafında əvəzsiz xidmətlərindən danışıb, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.



Konfransda BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Ulu Öndərin həyat və fəaliyyəti haqqında məruzə edib. Bildirib ki, indi müstəqil Azərbaycan dövləti öz təbii sərvətlərinin sahibi kimi “Əsrin müqaviləsi” üzrə hasil edilən Azərbaycan neftini dünya bazarlarına ixrac edir. Heydər Əliyevin böyük uzaqgörənliklə apardığı neft strategiyası ölkəmizin iqtisadiyyatının, digər qeyri-neft sahələrinin inkişafına təkan verir, onu öz ardınca aparır.

Konfransın plenar iclasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Analitik və üzvi kimya kafedrasının müdiri Əli Zalovun, BDU-nun Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri, professor İbrahim Məmmədovun, Yüksəkmolekullu birləşmələr kimyası kafedrasının müdiri, professor Rasim Alosmanovun, Bakı Mühəndislər Universitetinin professoru Rəvan Rəhimovun kimyanın müasir problemlərinə həsr olunmuş məruzələri dinlənilib.

Qeyd edək ki, konfransa respublikamızın müxtəlif universitetləri və elmi-tədqiqat institutlarından 230-dan çox tezis qəbul olunub. Konfrans öz işini sabah 4 bölmədə davam etdirəcək.

# BDU-da Respublika elmi konfransı: “Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə”

***Mayın 16-da Ekologiya və torpaqşünaslıq fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Ekologiya və torpaqşünaslıq elmləri XXI əsrdə” adlı Respublika elmi konfransı keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan tarixindəki rolu, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi islahatlar, respublikamızın ətraf mühitinin qorunması sahəsindəki xidmətləri və ekoloji siyasəti barədə ətraflı məlumat verib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti dövründə Azərbaycanın inkişafı üçün çalışıb, millətimiz, xalqımız üçün əlindən gələni əsirgəməyib.



Konfransın plenar iclasında Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrasının müdiri, akademik Qərib Məmmədovun “Heydər Əliyevin aqrar islahat modeli”, Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyevanın “Ulu Öndər Heydər Əliyevin irsi”, Coğrafi ekologiya kafedrasının professoru Şövqisəfa Göyçayskinin “Milli Lider Heydər Əliyevin irsi həmişəyaşardır”, Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrasının müdiri İsmayıl Əliyevin “Müstəqil Azərbaycanın memarı” və Coğrafi ekologiya kafedrasının dosenti Tahir İbrahimovun “Heydər Əliyev və Azərbaycan təbiətinin mühafizəsi” mövzularında çıxışları dinlənilib.

Çıxışlarda Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdışı ilə ölkənin davamlı inkişaf yoluna qədəm qoyduğu, sabitliyin bərqərar olduğu, xarici siyasətdə böyük uğurlar qazanıldığı vurğulanıb.

Daha sonra konfrans işini bölmə iclasları ilə davam etdirib. İşğaldan azad edilmiş ərazilərin ekoloji problemləri, təbii mühitin yenidən bərpasının istiqamətlərinin müzakirə olunduğu bölmə iclaslarında BDU, Elm və Təhsil Nazirliyinin tabeliyində olan Mikrobiologiya, akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Milli Aerokosmik Agentliyin Ekologiya İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Texniki Universiteti, Mingəçevir Dövlət Universiteti və digər təşkilatların əməkdaşlarının məruzələri dinlənilib.

Konfrans öz işini sabah bölmələr üzrə davam etdirəcək.

# BDU-nun həmtəşkilatçılığı ilə Özbəkistanda Avrasiyanın biomüxtəlifliyinin mühafizəsinə dair Beynəlxalq konfrans keçirilib

***Mayın 16-da BDU, Özbəkistanın Andijan Dövlət Universiteti və Türkiyənin Ege Universitetinin birgə təşkilatçılığı ilə “Avrasiyanın biomüxtəlifliyinin mühafizəsi: müasir problemlər, həllər və perspektivlər” mövzusunda I Beynəlxalq konfrans keçirilib.***

Andijan Dövlət Universitetində keçirilən konfransda, Azərbaycan, Türkiyə, Özbəkistan, Pakistan, Tacikistan, Qırğızıstan və Rusiyadan alimlər iştirak ediblər.

BDU-nu konfransda Biologiya fakültəsinin dekanı Afət Məmmədova, Biofizika və biokimya kafedrasının müdiri Rövşən Xəlilov, Biotibbi materiallar kafedrasının müdiri Ülviyyə Həsənova təmsil ediblər.



Konfransın əsas məqsədi Avrasiyada bioloji müxtəlifliyə dair müasir tədqiqatları bölüşmək, problemləri müzakirə etməkdir. Konfransda Avrasiyada bioloji müxtəlifliyin qorunmasına dair beynəlxalq elmi əməkdaşlığı inkişaf etdirmək də müzakirə olunub.

# “Şərq filologiyası məsələləri” mövzusunda Respublika elmi konfransı

***Mayın 23-də Şərqşünaslıq fakültəsində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş gənc tədqiqatçı və magistrantların “Şərq filologiyası məsələləri” mövzusunda Respublika elmi konfransı keçirilib.***

Tədbirdə açılış nitqi ilə çıxış edən Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan və fakültənin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə Ulu Öndərin Azərbaycanda elm və təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan, məzunu olduğu Bakı Dövlət Universitetinin yüksəlişindəki xidmətlərindən, müasir və güclü Azərbaycan dövlətini bərqərar etmək yolundakı misilsiz fəaliyyətindən danışıblar.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının professoru, millət vəkili, akademik Rafael Hüseynov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın görkəmli şəxsiyyətlərinə verdiyi dəyər, klassik irsə qayğısı barədə məlumat verib. O, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın yalnız XX əsr tarixinin deyil, milli tariximizin ən əvəzsiz, nadir şəxsiyyətlərindən biri olduğunu deyib: “Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin istiqlalımızın, müstəqilliyimizin qorunub saxlanılmasında, mədəniyyətimizin inkişafında tarixi xidmətləri olub. Ulu Öndərin bütün xidmətlərinin fövqündə həmişə istiqlalımızı qorumaq, yaşatmaq, onu dönməz, əbədi etmək dayanıb”.

Türk filologiyası kafedrasının professoru, millət vəkili Jalə Əliyeva isə qeyd edib ki, Ulu Öndər Heydər Əliyev azərbaycançılıq fəlsəfəsini milli dövlətçilik ideologiyası səviyyəsinə qaldırıb. Bu ideologiya milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir.

Tədris işləri üzrə dekan müavini, ərəb filologiyası kafedrasının dosenti Tərlan Məlikov müasir Azərbaycanın təhsil sisteminin formalaşmasında Ulu Öndər Heydər Əliyevin xidmətlərindən danışıb.

Daha sonra fakültənin gənc doktorant və magistrantlarının məruzələri dinlənilib.

# "Yeni imkanlar – "Azərbaycan məktəbi"

***Mayın 2-də BDU-nun Texnologiyaların transferi və innovasiyalar şöbəsinin təşkilatçılığı ilə "Yeni imkanlar – "Azərbaycan məktəbi" adlı tədbir keçirilib.***

Tədbirdə çıxış edən jurnalın baş redaktoru Arzu Soltan "Azərbaycan məktəbi"nin mətbuat tariximizdə ən uzunömürlü akademik jurnal hesab olunduğunu diqqətə çatdırıb. Jurnalın 95 ildən artıq fəaliyyəti müddətində təhsil sisteminin yenilənməsi, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsi, mütərəqqi tədris metod və formalarının təbliği, qabaqcıl təcrübənin öyrənilib yayılması, görkəmli alimlərin fikir və ideyalarının cəmiyyətə təqdim olunması, elmi, pedaqoji təfəkkürün formalaşmasında əhəmiyyətli rol oynadığını qeyd edib.

Arzu Soltan bildirib ki, jurnalda elmi ictimaiyyət nümayəndələri, pedaqoq və psixoloqların təhsilin aktual problemləri, fəlsəfəsi, tarixi ilə bağlı məqalələri dərc olunub. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər sırasına daxil edilib. Jurnalda yer alan Təhsil idarəçiliyi, Təhsil fəlsəfəsi və təhsil nəzəriyyəsi, Təhsil siyasəti, Kurikulum, Təhsil texnologiyaları, Pedaqogika, Təhsilin sosiologiyası, Təhsil tarixi, Xüsusi təhsil, Müəllim hazırlığı, Qiymətləndirmə və s. rubrikaların hər biri Azərbaycan və dünya təhsilinin qabaqcıl tendensiyalarını işıqlandıran zəngin tədqiqat faktlarını əhatə edir.

O, keçmiş sovet respublikaları arasında ilk dəfə olaraq "Azərbaycan məktəbi" jurnalına əlavə kimi müxtəlif illərdə 8 adda metodik məcmuə çap edildiyini, bu məcmuələrin sonradan müstəqil jurnal kimi fəaliyyət göstərdiyini diqqətə çatdırıb.



Daha sonra jurnalın baş redaktorunun müavini Nəsrəddin Musayev çıxış edərək müstəqilliyimizin ilk illərində "Azərbaycan məktəbi" jurnalının bir çox problemlər və bağlanmaq təhlükəsi ilə üzləşdiyini xatırladıb. Lakin Ulu Öndər Heydər Əliyevin ölkəmizdə bərqərar olan davamlı inkişaf kursu sayəsində təhsilin bütün sahələrində olduğu kimi, pedaqoji mətbuat orqanlarının, o cümlədən "Azərbaycan məktəbi"nin fəaliyyətini davam etdirməsinə imkan və şərait yaradılıb. Hazırda jurnal Azərbaycanın təhsil sistemində uğurla aparılan islahat prosesinə dəyərli töhfə verir. Azərbaycan dövlətinin təhsilə göstərdiyi diqqət və qayğı dərc olunan məqalələrdə də öz əksini tapır. Jurnalda ardıcıl olaraq təhsil islahatları, o cümlədən müasir inkişaf tendensiyaları ilə bağlı məqalələr aparıcı yer tutur. Jurnal beynəlxalq nüfuzlu elmi indekslərdə indekslənir və öz ənənələrinə sadiq qalaraq fundamental elmi istiqaməti, innovativlik təmayülünü əsas götürür.

Hazırda "ResearchGate", "Index Copernicus", "Google Scholar", "CiteFactor", "DOAJ", "Indeks Copernicus International", "Idealonline", "RİNÜ" indekslərinə sahib olan jurnalın yaxın gələcək üçün hədəfi "Web of Science", "SCOPUS"un istinad bazasına, həmçinin pedaqogika sahəsində nüfuzlu elmi məqalələrin bazası sayılan "Social Science Citation"un siyahısına düşməkdir.

Sonda iştirakçıların çoxsaylı suallarını cavablandırılıb.

# Kainatın əmələ gəlməsinin elmi əsasları müzakirə olunub

***"Müasir elmin əsas problemlərindən biri Kainatın necə əmələ gəlməsi məsələsidir. Bu problemi həll etmək üçün Böyük Partlayış Nəzəriyyəsi irəli sürülüb. Bu nəzəriyyə sırf kvant nəzəriyyəsidir".***

Bu fikirlər Fizika fakültəsində "Kainatın əmələ gəlməsinin kvant nəzəriyyəsinin yoxlanılması - Kvark Qlyuon Plazmasının alınması Böyük Adron Kollayderinin əsas məqsədi kimi" mövzusunda elmi seminarda səsləndirilib.

Seminarın məruzəçisi, BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiya Mərkəzinin müdiri, Fizika fakültəsinin Maddə quruluşu kafedrasının professoru Mais Süleymanov qeyd edib ki, bu nəzəriyyəyə görə, Kainat təxminən 15 milyard il əvvəl boşluqda baş vermiş partlayışın nəticəsində əmələ gəlib. İlk əvvəl maddənin ən bəsit forması olan kvark-qlyuon plazması (KQP) yaranıb (KQP-nin gözlənilən sıxlığı adi nüvələrin sıxlığından 10 dəfə çoxdur), onun temperaturu 1012K-dan da çox olub. 10-6 saniyə yaşadıqdan sonra o soyuyub və temperatur 1012 K-yə çatarkən proton və neytronlar sisteminə çevrilib. Bu sonuncu sistem 10-4 saniyə yaşayıb, temperatur 109 K-yə qədər azalıb və o, yüngül nüvələr sisteminə çevrilib. Bu proses 3 dəqiqə çəkib. Bundan sonrakı 400000 il ərzində neytral atomlar formalaşıb və bu zaman temperatur 4000 K olub. Daha sonrakı 109 il ərzində temperatur 20-3 K arasında azalıb və ilk ulduzlar, ağır kütləli elementlər və Yer kürəsi əmələ gəlib. Bu nəzəriyyənin doğruluğunu sübut etmək üçün laboratoriya şəraitində KQP almaq lazımdır. 50 ilə yaxındır ki, alimlər laboratoriya şəraitində KQP almağa çalışırlar. Avropa Nüvə Tədqiqatları Mərkəzinin (CERN, İsveç) Böyük Adron Kollayderində həlli gözlənilən problemlərdən biri də məhz KQP almaqdır. Bu məqsəd üçün ağır qurğuşun nüvələri işıq sürətinə yaxın sürətə qədər sürətləndirilib toqquşdurulur. Toqquşma nöqtəsində sıxlığın sıçrayışla artacağı və KQP-nin yaranması üçün lazım olan şəraitin əmələ gələcəyi gözlənilir.

Məruzədə BAK-da KQP-nin axtarılması (müəllifin iştirakı ilə) sahəsində son nəticələr müzakirə edilib.

Seminarda Fizika, Mexanika-riyaziyyat fakültələrinin müəllim-tələbə heyəti, BDU Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun, Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun əməkdaşları iştirak ediblər.

# BDU əməkdaşları çirkləndirici maddələri parçalayan su təmizləmə robotu hazırlayıblar

***BDU-nun əməkdaşı Reyhan Mirsultanovanın Azərbaycan Respublikasının Gənclər Fondunun "İdeyanı Reallaşdır 2022" fərdi qrant müsabiqəsinin qalibi olan "Su mühitində müxtəlif çirkləndirici maddələrin parçalanması" layihəsi yekunlaşıb.***

Layihə çərçivəsində hazırlanan su təmizləmə robotu su mühitində olan müxtəlif tullantıların yığılmasını həyata keçirmək üçün nəzərdə tutulub. Məlumdur ki, çirklənmə indeksi 77.8 olan Xəzər dənizinin 2 əsas çirklənmə mənbəyi mövcuddur: neft əsaslı kimyəvi çirkləndiricilər, plastik əsaslı tullantıların dənizə axıdılması səbəbiylə yaranan çirklənmə.

Layihədə hazırlanan robot üçlü hibrid nanokatalizatorlar sayəsində su mühtində olan kimyəvi çirkləndiricilər ilə, ferromaqnit tərkibli palet mexanizmi sayəsində isə plastik tullantılarla mübarizə aparacaq gücə sahibdir. Tam avtonom hərəkət edə bilən su təmizləmə robotu su üzərində olan tullantıları müəyyən edərək onları avtomatik toplaya biləcək.

Layihə 40 nəfərdən artıq BDU tələbəsinin iştirakı ilə Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində hazırlanıb və tələbələrə elektronika, süni intellekt və mexanika üzrə təlimlər keçirilib.

# Beynəlxalq Muzeylər Günü qeyd olunub

***Mayın 17-də BDU-nun tarixi muzeyinin təşkilatçılığı ilə 18 May - Beynəlxalq Muzeylər Gününə həsr olunmuş tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun tarixi muzeyinin müdiri Günel Orucəliyeva bildirib ki, hər il 18 may tarixi dünyada və eləcə də ölkəmizdə Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd olunur. Beynəlxalq Muzeylər Şurasının təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir. Xalqlar arasında mədəni mübadilə və əməkdaşlığın inkişafına kömək etmək məqsədilə təsis olunmuş əlamətdar gün hər il müəyyən deviz altında qeyd edilir. Bu il Beynəlxalq Muzeylər Günü "Muzeylər, dayanıqlılıq və rifah" devizi altında keçirilir.

Daha sonra Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Muzeyşünaslıq kafedrasının dosenti, muzeyşünas Anar Ağalarzadə çıxış edib. Çıxışda Azərbaycandakı muzeylərin fəaliyyəti, profilləri, ölkədə muzey işi ilə bağlı həyata keçirilən dövlət siyasəti barədə ətraflı məlumat verilib, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun işğaldan azad etdiyi Qarabağda vaxtilə mövcud olan muzeylərin və muzey filiallarının bərpası ilə əlaqədar görülən işlərdən danışılıb. Anar Ağalarzadə eyni zamanda Fransanın Luvr və Sen Jermen muzeylərinin yaranması, fəaliyyəti, muzeylərdə nümayiş olunan eksponatlar haqqında geniş məlumat verib.

Sonda natiq tələbələrin çoxsaylı suallarını cavablandırıb. Tədbir auditoriya tərəfindən maraqla qarşılanıb.

# BDU-nun bir qrup əməkdaşı "Azərbaycan Udi Ocağı"nda

***Mayın 17-də Geologiya fakültəsinin professor-müəllim heyəti Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar "Azərbaycan Udi Ocağı"nda olublar.***

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov Ulu Öndərin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından bəhs edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası Azərbaycan ərazisində tarixən yaşamış xalqların tarixi, mənəvi, əxlaqi, mədəni ənənələrinə, birlik ideyasına əsaslanır.

Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının müdiri Kərim Rəhimov Nic qəsəbəsində yaşayan udilərin qədim Qafqaz Albaniyasının tarixi-memarlıq abidələrinin qanuni varisləri olduğunu bildirib. Kərim Rəhimov tarixi torpaqlarımızın işğal altında olduğu 30 il müddətində ermənilərin ərazidəki Alban abidələrini tamamilə saxtalaşdırdığına diqqət çəkib: "Bu abidələrin hər biri bərpa ediləcək və əsl sahiblərinin ixtiyarına veriləcək. Hazırda udilər dini ayinlərini Kəlbəcərdə Xudavəng, Laçında Ağoğlan monastırlarında, Talış kəndindəki Alban kilsəsində keçirirlər".

Tədbirdə çıxış edən Alban-Udi icmasının sədri Robert Mobili Ümummilli Lider Heydər Əliyevin azsaylı xalqların və dini icmaların, o cümlədən, alban-udi xristian icmasının hüquqlarına və mədəni-mənəvi dəyərlərini qoruduğunu xatırladıb. Bildirib ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycanda bütün dinlərin və mədəniyyətlərin, eləcə də etnik qrupların nümayəndələri bir ailə kimi sülh şəraitində yaşayırlar.

Daha sonra Qəbələ rayonu Nic qəsəbəsinin səlahiyyətli nümayəndəsi İbrahim Məmmədov, Belarus Respublikasının Udi icmasının nümayəndəsi Roman Quqasari çıxış ediblər. Sonda "Azərbaycan Udi Ocağı", "Müqəddəs Məryəm Ana" Alban kilsəsi, "Cotari" Alban-Udi kilsəsinə ümumi ekskursiya edilib.

# BDU-da III Məktəblilərarası Astronomiya Olimpiadasının Respublika seçim turu keçirilib

***Mayın 14-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş III Məktəblilərarası Astronomiya Olimpiadasının Respublika seçim turu keçirilib.*** Yarışda ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri astronomiya üzrə bilik və bacarıqlarını sınayıb. Əvvəlki illərlə müqayisədə bu il 592 nəfər şagird qeydiyyatdan keçib.



Olimpiadanın keçirilməsində məqsəd şagirdlər arasında astronomiya sahəsinə marağın artırılması, təhsil sistemində astronomiyaya daha geniş yer verilməsinin təşviq edilməsi, həmçinin qaliblərin Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlığının təmin olunmasıdır.

Olimpiada Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Təhsil İnstitutu, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və Beynəlxalq Astronomiya İttifaqının Astronomiya Təhsili İdarəsi tərəfindən təşkil olunub. Qaliblər medal və hədiyyələrlə mükafatlandırılacaq və bu il 10-20 avqust tarixlərində Polşada keçiriləcək XVI Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasına hazırlıq dərslərinə cəlb olunacaqlar.

Olimpiadanın seçim turunun nəticələri yaxın günlərdə olimpiada.edu.az portalında və təşkilatçıların rəsmi internet səhifələrində paylaşılacaq.

Qeyd edək ki, III Məktəblilərarası Astronomiya Olimpiadası Cənubi Qafqazda yeganə planetarium olan Tusi-Bohm Planetariumun baş sponsorluğu ilə həyata keçirilib.

# Tanınmış teleaparıcı Dilarə Səlim Jurnalistika fakültəsinin tələbələri ilə görüşüb

***Mayın 16-da Jurnalistika fakültəsi ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdində fəaliyyət göstərən Teleradio Akademiyası arasında bağlanmış anlaşma memorandumu çərçivəsində növbəti ustad dərsi keçirilib.***



Jurnalistika fakültəsinin III kurs tələbələri ilə görüşən tanınmış teleaparıcı Dilarə Səlim təməl peşə prinsipləri, televiziya jurnalistikasının özəllikləri barədə geniş məlumat verib. Ustad dərsində məlumatın çatdırılmasında jurnalistin istifadə etdiyi metodlar, həmçinin aparıcılıq işinin xüsusiyyətləri müzakirə olunub.

Dilarə Səlim peşəkar jurnalist kimi yetişmək üçün öncə təhsilin, daha sonra mütaliənin və öz üzərində daim çalışmağın vacib olduğunu vurğulayıb.

İnteraktiv şəraitdə keçən görüşdə qonaq tələbələri maraqlandıran sualları cavablandırıb.

# Avropa Şurasının Bakıdakı nümayəndəliyi tələbələrə növbəti təlim keçib

***Mayın 17-də Hüquq fakültəsinin Avropa Şurasının (AŞ) Bakıdakı nümayəndəliyi ilə birgə "Avropa İnsan Hüquqları Konvensiyası – 70" maarifləndirmə kampaniyası davam edib.***

Konvensiyanın qüvvəyə minməsinin 70-ci ildönümünə həsr edilmiş kampaniya tələbələrin insan hüquqları sahəsində fundamental sənədlərdən sayılan İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın müddəalarının və Avropa Məhkəməsinin presedent hüququnun dərindən öyrənilməsinə xidmət edir.

Hüquq fakültəsinin dekanı Zaur Əliyevin və AŞ-nin Azərbaycan Respublikasındakı ofisinin rəhbəri Petr Zixin təşəbbüsü ilə başlanan bu maarifləndirmə kampaniyasının "Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ – qadınlara qarşı zorakılıq və məişət zorakılığı" mövzusunda da növbəti təlimi keçirilib. Təlimçi qismində AŞ-nin eksperti Pərvanə Bayramova iştirak edib. Təlimçi qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ, bu mövzuda məhkəməyə daxil olmuş müraciətlər, onlara baxılması, məhkəmənin qərarları və icrası haqqında ətraflı məlumat verib.

Çıxışında baxılmış işlərdən misallar gətirən ekspert özünün bilik və təcrübəsinə əsaslanan məlumatları tələbələrlə bölüşüb.

# Azərbaycanın onlayn Meşə Atlasının təqdimatı

***Mayın 18-də BDU-da "Qafqaz regionunda meşələrə qlobal baxış platformasının təşviqi" adlı layihənin təqdimatı baş tutub.*** Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Qafqaz üçün Regional Ekoloji Mərkəzin Azərbaycan filialı (REM Azərbaycan) tərəfindən keçirilən layihənin təqdimatında Coğrafiya, Geologiya, Ekologiya və torpaqşünaslıq fakültələrinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Coğrafiya fakültəsinin dekanı vəzifəsini icra edən professor Məqsəd Qocamanov müasir dövrdə onlayn atlasların əhəmiyyətini vurğulayıb. Tədbirdə çıxış edən Qafqaz üçün Regional Ekoloji Mərkəzin Azərbaycan filialının direktoru Yaşar Kərimov layihənin məqsədləri barədə məlumat verib. O bildirib ki, meşələrin qırılmasının qarşısının alınması, biomüxtəlifliyin bərpası, mühafizəsi, həmçinin meşələrin müşahidəsi və təhlili məqsədi ilə onlayn Meşə Atlasının yaradılması zəruri əhəmiyyət kəsb edir. Digər potensial istifadəçilərlə yanaşı, ali təhsil müəssisələrinin müvafiq sahə üzrə müəllim-tələbə heyəti Meşə Atlasının imkanlarından öz tədqiqatlarında tamamilə ödənişsiz istifadə edə bilərlər.

# Autizm sindromlu gənclər üçün infotur

***Mayın 15-də "BDU Könüllüləri" təşkilatının dəstəyi ilə "Autizmli gənclərin cəmiyyətə inteqrasiyası" proqramı çərçivəsində autizm sindromlu gənclər üçün Bakı Dövlət Universitetinə infotur təşkil olunub.***

İnfotur iştirakçıları Universitetin tarixi, tədris prosesi, uğurları barədə ətraflı məlumat əldə edib, həmçinin Təkamül Muzeyi ilə yaxından tanış olublar. Daha sonra autizm sindromlu gənclər BDU könüllüləri və "Könüllü Dost" proqramının üzvləri ilə birlikdə Universitetin həyətində futbol oynayıblar.

Qeyd edək ki, layihə "Birgə və Sağlam" İctimai Birliyi və Azərbaycan Könüllü Təşkilatları İttifaqının tərəfdaşlığı ilə "Korporativ DOST" altproqramı çərçivəsində həyata keçirilir.

# Jurnalistika fakültəsinin tələbələri kibertəhlükəsizlik üsulları barədə məlumatlandırılıblar

***Mayın 16-da Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova Jurnalistika fakültəsinin qonağı olub.***

O, tələbələrə "Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri" mövzusunda təqdimat-mühazirə deyib. Professor bildirib ki, kibercinayət müasir dövrdə informasiya anlayışına bitişik formada yayılır: "Bu gün artıq informasiya kibervirusa bulaşıb, insanların, xalqların və dövlətlərin taleyi baytlarda gizlənən kiberviruslardakı pozucu fəaliyyətdən asılı duruma düşüb".

Azərbaycan kiberməkanının sərhədlərini gələcək jurnalistlərə izah edən qonaq proaktiv təhsilin önəmini xüsusi vurğulayıb.

İnteraktiv keçən görüş tələbələrdə bu sahəyə maraq oyadıb.

# "Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi - Lütfi Zadə" adlı seminar

***Mayın 16-da Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin könüllülərinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi - Lütfi Zadə" adlı seminar təşkil olunub.***

Seminarda fakültənin dekan müavini Şamo Cəbrayılov, kafedra müdiri Fərhad Mirzəyev, müəllim Reyhan Yusifqızı, fakültənin könüllüləri və tələbələri iştirak ediblər.

Çıxış edən Reyhan Yusifqızı "Qeyri-səlis məntiq nəzəriyyəsi nədir?", "Lütfi Zadə dünyaya nəyi bəxş etmişdir?" kimi mövzularda çıxış edib, tələbələrin suallarını cavablandırıb.

# "Paşa Sığorta" tələbələrimiz üçün təlim keçirib

***Mayın 23-də Karyera və məzunlarla əlaqə sektorunun təşkilatçılığı ilə "Paşa Sığorta" ASC tərəfindən Universitet tələbələri üçün "Layihələrin idarə olunması" mövzusunda təlim keçirilib.*** "Paşa Sığorta"nın təlimçisi Ayşən Qarayeva layihə anlayışı, layihələrin effektiv idarə olunmasının qayda və prinsipləri ilə iştirakçıları tanış edib. Bildirib ki, qarşıya qoyulmuş məqsədin reallaşmasında, hədəfə çatılmasında layihələrin düzgün idarə edilməsinin böyük rolu var. Layihələrin düzgün idarəsi müəssisənin effektiv inkişafına, sərmayənin daha düzgün istifadəsinə, yüksək keyfiyyət və inama, mükəmməl sistemləşməyə, müştərilərə daha yaxşı xidmətə və s. səbəb olur. Təlimin sonunda iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-da 28 May – Müstəqillik Gününə həsr edilmiş tədbir

***Mayın 26-da BDU-da 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, 105 il bundan əvvəl mayın 28-də müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaranıb. Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika, ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsidir. Bu şanlı tarix Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2021-ci il 15 oktyabr tarixində təsdiq etdiyi "Müstəqillik Günü haqqında" Qanunla Müstəqillik Günü kimi qəbul edilib.

Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb bir tarixi şəraitdə fəaliyyətə başlayıb: "Cəmi 23 ay yaşamış Cümhuriyyət xalqımızın tarixində iz qoyan tədbirlər həyata keçirdi, Azərbaycanın gələcək müstəqilliyi üçün



möhkəm zəmin yaratdı. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, 1918-ci il iyunun 27-də "Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında", avqustun 11-də isə "Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında" fərmanlar imzalandı. Dövlətin bayrağı, himni və gerbi təsis edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi".

Rektor qeyd edib ki, 1919-cu il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti "Bakı Dövlət Universitetinin təsis olunması haqqında" Qanun qəbul edib: "Milli Universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi. Ümummilli Lider Heydər Əliyev BDU-nun yaradılması kimi mühüm tarixi hadisəyə olduqca obyektiv qiymət verərək deyib ki, "Əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar hadisələrdən biridir". Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etdi. Ümummilli Liderimiz Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə mühüm yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin xidmətlərini hər zaman yüksək qiymətləndirib, Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə "İstiqlal bəyannaməsi" abidəsi ucadılıb, onun görkəmli siyasi və dövlət xadimlərinin xatirəsi əbədiləşdirilib. 2018-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncam imzalanıb və bu tarixi hadisə münasibətilə 2019-cu il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunaraq ölkədə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi müvəffəqiyyətlə davam etdirilir, respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf edir. Müstəqil, qüdrətli, ərazi bütövlüyünü təmin etmiş Azərbaycanın həyatında yeni səhifələr açılır".

Daha sonra Milli Məclisin üzvləri - professor Rafael Hüseynov, Aydın Hüseynov, BDU-nun Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, BDU-nun Maliyyə menecmenti kafedrasının müdiri Kamran Eyyubov çıxış ediblər. Çıxışlarda Cümhuriyyətin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərsə də, bütün sahələrdə ciddi dönüş yaratmağa və böyük tədbirlər reallaşdırmağa müvəffəq olduğu vurğulanıb. Həmçinin, qısa vaxt ərzində milli hökumətin cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən əsaslı, vacib qərarlar qəbul etdiyi, bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərlik yaratdığı qeyd olunub.

Tədbir bədii hissə ilə davam edib, respublikanın Əməkdar artisti Elnarə Abdullayeva vətənpərvərlik ruhunda mahnılar ifa edib.

# "Müsəlman Şərqinin ilk Cumhuriyyəti"

***Mayın 26-da Tarix fakültəsində Azərbaycan Xalq Cumhuriyyətinin 105-ci ildönümünə həsr olunmuş "Müsəlman Şərqinin ilk Cumhuriyyəti" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Konfransı giriş sözü ilə açan Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Cümhuriyyətin Azərbaycan tarixindəki yeri haqda ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

Plenar iclasda BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri Azad Rzayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Naibə Əhmədova, Milli Azərbaycan Tarixi Muzeyinin elmi işlər üzrə direktor müavini Fərhad Cabbarov, Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosentləri Boran Əziz, Arifə Adıgözəlova, Ələmdar Şahverdiyev Azərbaycan Xalq Cumhuriyyətinin tarixi ilə bağlı geniş məruzə ediblər. Çıxışlarda qeyd olunub ki, Şərqdə ilk dəfə olaraq demokratik, dünyəvi dəyərlərə əsaslanan müstəqil respublikanın yarandığı bütün dünyaya bəyan edillib. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə olub. Hazırda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət quruculuğu siyasəti Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirilir. Artıq ikinci ildir ki, Azərbaycan 28 May - Müstəqillik Gününü öz ərazi bütövlüyünü təmin etmiş qalib dövlət kimi qeyd edir.

Konfrans işini 5 bölmə iclası üzrə davam etdirib, BDU-nun professor-müəllim heyəti, doktorant, magistrant və tələbələri, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Dillər Universiteti, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Qərbi Kaspi Universitetinin əməkdaşları 50-dən artıq məruzə ilə çıxış ediblər.

# BDU tələbələri Azərbaycan İstiqlal Muzeyində



***Mayın 30-da BDU-nun tarixi muzeyinin təşkilatçılığı ilə Jurnalistika fakültəsinin bir qrup tələbəsi Azərbaycan İstiqlal Muzeyini ziyarət edib.***

Ziyarət zamanı muzey bələdçisi tələbələrə Azərbaycan İstiqlal Muzeyi barədə geniş məlumat verib. Qeyd edib ki, 1991-ci il yanvarın 9-da yaradılan muzeyin əsas məqsədi ən qədim zamanlardan müasir dövrümüzə qədər Azərbaycan xalqının mədəni-tarixi həyatındakı mühüm hadisələri və öz istiqlalı uğrunda apardığı mübarizəni ardıcıl olaraq əks etdirməkdir. Bildirilib ki, 6 zaldan ibarət muzeyin ekspozisiyasının hər zalı müəyyən tarixi dövrü əhatə edir və burada tarixi günlərə həsr olunmuş müxtəlif tədbirlər, təqdimat mərasimləri, sərgilər keçirilir.

Tarixifmizin böyük bir hissəsini özündə əks etdirən Azərbaycan İstiqlal Muzeyini ziyarət tələbələrdə xoş təəssürat yaradıb.

# "Dövlətçilik tariximizdə Cümhuriyyətin yeri"

***Mayın 22-də Kimya fakültəsində 28 May - Müstəqillik Gününə həsr olunmuş "Dövlətçilik tariximizdə Cümhuriyyətin yeri" adlı tədbir keçirilib.***

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli çıxışında bildirib ki, müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 105 il ötür: "1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika, demokratik, hüquqi və dünyəvi dövlət nümunəsidir. 28 May tarixi 1990-cı ildən ölkəmizdə "Respublika Günü" kimi qeyd edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il oktyabrın 15-də "Müstəqillik Günü haqqında" qanunu təsdiqləyib və mayın 28-i "Müstəqillik Günü" elan edilib. Müstəqil və qalib Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisidir. Rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində öz şücaətini bütün dünyaya nümayiş etdirməklə, parlaq Zəfərə imza atıb.

BDU-nun Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının (Humanitar fakültələr üzrə) dosenti Boran Əziz "Dövlətçilik tariximizdə Cümhuriyyətin yeri" mövzusunda məruzə edib. O deyib ki, Xalq Cümhuriyyətinin qurucuları çar Rusiyasının məqsədyönlü şəkildə müxtəlif quberniya və qəzalara böldüyü torpaqlarımızda yoxdan dünyəvi dövlət yaratdılar. Bu, müsəlman Şərqində ilk belə cürətli addım idi. Nəticədə buna qədər yalnız coğrafi məfhum olan Azərbaycan ilk dəfə beynəlxalq hüququn subyektinə çevrildi.

Tədbirin sonunda "Müstəqillik Günü"nə həsr olunan videoçarx nümayiş olunub və tələbələri maraqlandıran suallar cavablandırılıb.



# BDU və Çexiyanın Karlova Universitetinin alimləri birgə tədqiqatlar aparacaqlar

***Mayın 10-da Çexiyanın Karlova Universitetinin Zoologiya departamentinin professorları Miroslav Svatora, Daniel Frinta, Vera Opatova "Erasmus" layihəsi çərçivəsində Biologiya fakültəsində olublar.***



Onlar Biologiya fakültəsinin dekanı Afət Məmmədova, Zoologiya və fiziologiya kafedrasının müdiri Əbülfəz Tağıyev, fakültənin bir qrup professor-müəllim heyəti ilə görüşərək birgə tədqiqatların davam etdirilməsi üzrə müzakirələr aparıblar.

Qonaqlar Lənkərançay, Viləşçay, Ataçay, Qumbaşı çaylarında ixtioloji tədqiqatlar aparacaqlar. Ərazinin ixtiofaunasının növ tərkibi öyrəniləcək, populyasiya səviyyəsində genetik analizlər müqayisəli təhlil ediləcək.

# "Campbell Biologiya" dərsliyinin təqdimatı

***Mayın 11-də BDU-da "Campbell Biologiya" dərsliyinin Azərbaycan dilinə tərcümə edilmiş ilk nəşrinin təqdimat mərasimi keçirilib.***



İndiyə qədər dünyanın 19 dilinə tərcümə olunmuş kitab 3 bölmə, 56 fəsildən ibarətdir. Kitab biologiyaya giriş xarakteri daşıyır və dünyanın qabaqcıl universitetlərində istifadə olunmaqdadır. Dərslik biologiyanın tədris proqramına daxil olduğu bütün ixtisas proqramlarında (tibb, kənd təsərrüfatı, mühəndislik və s.) istifadə olunur. Bundan əlavə, kitab fənn olimpiadalarına hazırlıqda və peşəkarlar üçün ümumi istinad kimi də istifadə olunur. Tədbirdə BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, kitabın tərcüməsini həyata keçirən komandanın rəhbəri Araz Zeyniyev, "Qırmızı ürəklər" Xeyriyyə Fondunun prezidenti Sevda Haqverdiyeva, vitse-prezidentləri Nihad Salmanlı və Yusif Poladov, Biologiya fakültəsinin dekanı Afət Məmmədova, fakültənin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Biologiya fakültəsinin dekanı Afət Məmmədova kitabın Azərbaycan dilinə tərcümə olunmasının tələbə və əməkdaşlar üçün əhəmiyyətini qeyd edib. Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov kitabın çox nəfis tərtib olunduğunu, onun hər bir tələbənin və ixtisas üzrə mütəxəssisin stolüstü kitabı ola biləcəyini vurğulayıb. Araz Zeyniyev kitabın necə ərsəyə gəlməsi barədə məlumat verib, fundamental əsərlərin ana dilimizə çevrilməsinin vacibliyini vurğulayıb. Qeyd olunub ki, kitabın tərcümə olunmuş digər cildləri də yaxın zamanda işıq üzü görəcək.

Sonra tələbələrin sualları cavablandırılıb. Tədbirin sonunda Fond tərəfindən BDU-nun Elmi Kitabxanasına 10 ədəd dərslik hədiyyə edilib.

# Çexiyanın Karlova Universitetinin professorları zooloji tədqiqatlara dair müzakirələr aparıblar

***Mayın 12-də Biologiya fakültəsində Çexiyanın Karlova Universitetinin Zoologiya departamentinin Onurğasızlar zoologiyası bölümünün professoru Vera Opatova tərəfindən "Zooloji tədqiqatlarda müasir metodlar" mövzusunda elmi seminar keçirilib.***

Seminarda Çexiya Respublikasının Azərbaycandakı səfirinin birinci müavini Martin Luboyatski, BDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Biologiya fakültəsinin dekanı Afət Məmmədova, professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Martin Luboyatski, Şahin Pənahov və Afət Məmmədova Çexiyanın Karlova Universiteti ilə əməkdaşlığın davam etməsinin gənclər üçün yeni imkanlar qazandırdığını diqqətə çatdırıblar.

Daha sonra Vera Opatova qrupu ilə birgə apardığı elmi tədqiqatların istiqamətləri, müxtəlif areallarda yayılan hörümçək növləri, onların genetik, molekulyar cəhətdən öyrənilməsi məsələləri haqqında məlumat verib. O, Aralıq dənizi ətrafında hörümçəklərin molekulyar və genetik analizlərini apararaq, onların növ tərkibini dəqiqləşdirdiyini, xarici görünüşü eyni olan hörümçəklərin ekoloji cəhətdən fərqlənməsini və təcrid olunma səbəblərini izah edib.

Karlova Universitetinin Zoologiya bölümünün professoru Miroslav Svatora təmsil etdiyi ali məktəblə BDU-nun Biologiya fakültəsi arasında 50 ilə yaxın əməkdaşlığın olduğunu bildirib. BDU ilə Karlova Universiteti "ERAMUS+" proqramı çərçivəsində ikitərəfli sazişi möhkəmləndirib və memorandum imzalayıb. O, Azərbaycanda apardıqları elmi-tədqiqat işləri və nəticələri haqqında məlumat verib.

# Çexiyanın Karlova Universitetinin professoru BDU-da elmi seminar keçib

***Mayın 19-da Biologiya fakültəsində "Aqressiya və onun təkamülü" mövzusunda elmi seminar keçirilib. Çexiyanın Karlova Universitetinin Zoologiya kafedrasının Ekologiya və etologiya bölümünün professoru Daniel Frinta mövzü ilə bağlı çıxış edib.***

Daniel Frinta məruzəsində onurğalı heyvanların aqressiyasının təkamüldə formalaşması haqqında geniş məlumat verib. Professor qeyd edib ki, onurğalı heyvanların aqressiyasına təsir göstərən əsas faktorlar heyvanın fiziologiyasında baş verən dəyişikliklər, androgenlərin və serotoninin miqdarının fəsildən asılı olaraq dəyişməsidir.



Məruzəçi öz tədqiqat qrupu ilə birgə Avropanın müxtəlif əraziləri, Livan, İran və s. kimi ölkələrin, həmçinin səhralıq ərazilərdə yayılmış sürünənlərin ontogenezin müxtəlif dövlərində aqressiyasını əmələ gətirən amilləri araşdırıb. Daniel Frinta təkamüldə aqressiyanın meydana çıxmasına səbəb olan amilləri qeyd edib.

Sonda məruzəçi seminar iştirakçılarının suallarını cavablandırıb.

# "AzerGold"un Geoloji-kəşfiyyat şöbəsinin rəisi BDU tələbələrinə ustad dərsi keçib

***Mayın 8-də "AzerGold" QSC-nin Geoloji-kəşfiyyat şöbəsinin rəisi, geologiya-mineralogiya elmləri namizədi Şahbəddin Musayev Geologiya fakültəsinin tələbələrinə "Respublika ərazisində qara, nəcib və əlvan metal filizi yataqlarının proqnoz göstəriciləri və onların resurslarının istismara cəlb olunmasının perspektivləri" mövzusunda ustad dərsi keçib.***

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov mövzunun aktuallığı barədə məlumat verib, Şahbəddin Musayevin uzun illər Azərbaycanın filiz yataqlarının öyrənilməsi, ehtiyatının hesablanması və proqnozlaşdırılması ilə məşğul olduğunu deyib.

Şahbəddin Musayev tələbələri Azərbaycanın əsas filiz yataqları haqqında məlumatlandırıb. Qeyd edib ki, Balakən rayonunun inzibati ərazisində yerləşən "Filizçay" yatağı regionun ən böyük polimetal yatağı və "AzerGold"un ən iri həcmli layihələrindən biridir. Tərkibində olan filiz ehtiyatlarının həcminə görə "Filizçay" Avropanın və dünyanın ən iri polimetal yataqları siyahısında öncül yerlərdə qərarlaşıb. Yataqda sink, gümüş, mis və qurğuşun kimi əlvan metallar mövcuddur. 2022-ci ildə "Filizçay"ın resursları faydalı qazıntı yataqlarının iqtisadi qiymətləndirilməsi üçün təyin edilmiş beynəlxalq təsnifat sistemi olan JORC (Joint Ore Reserves Committee) standartlarının tələblərinə uyğun hesablanıb. Nəticədə "Filizçay" üzrə yerin təkindəki filiz resurslarının hesablanmış miqdarının 112.71 milyon ton olması təsdiqlənib.

Ustad dərsində Daşkəsən rayonunda yerləşən "Çovdar" qızıl yatağı, ona yaxın olan "Mərəh", "Ağyoxuş1,2,3", "Tülallar" yataqları haqqında da məlumat verilib. Bildirilib ki, "Çovdar" qızıl yatağı" "AzerGold" QSC-nin ilk mədən layihəsidir. Cəmiyyət tərəfindən yataqda hasilat işlərinə 2017-ci ildə başlanılıb. "AzerGold" QSC tərəfindən 2017-2021-ci illər ərzində yatağın birinci fazası – oksid mərhələsi üzrə istismar işləri tam icra edilib. Oksid fazası üzrə 243,355 unsiya həcmində qızıl hasil olunub. "Çovdar" qızıl yatağının ikinci fazası – sulfid mərhələsi üzrə istismar işlərinə 2020-ci sentyabr ayında başlanılıb. Sulfid fazası üzrə satılabilən qızıl miqdarı 318,109 unsiya olaraq hesablanıb.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb və tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Akademik Teymur Kərimli ustad dərsi keçib

***Mayın 22-də İnformasiya və sənəd menecmenti fakültəsində "Ulu Öndər Heydər Əliyev və klassik irsimiz" mövzusunda ustad dərsi keçirilib. Ustad dərsində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli mövzu ilə bağlı məruzə edib.***

Akademik Teymur Kərimli Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətinin hər iki dövründə milli-mənəvi dəyərlərimizə, klassik irsimizə qayıdış prosesinin həyata keçirilməsindəki müstəsna xidmətlərini tarixi dövrləşdirmə əsasında elmi-nəzəri baxımdan şərh edib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan klassik irsinə hər zaman sevgi və qayğı ilə yanaşıb, bu irsin öyrənilməsi, tədqiqi və təbliğinə mühüm töhfələr verib.

Məruzədə Ümummilli Lider Heydər Əliyevin dövlət tədbirlərindəki çıxışlarından, ziyalılarla görüşlərində səslənən nitqlərindən, klassik irsimizin qorunması, yaşadılması və gələcək nəsillərə ötürülməsi ilə bağlı imzaladığı mühüm fərman və sərəncamlarından nümunələr gətirilərək müdrik rəhbərin klassik irsimizin böyük təəssübkeşi və hamisi olduğu vurğulanıb.

# "Planetimizin davamlılığının inkişaf etdirilməsində alimlərin və mühəndislərin rolu" adlı mühazirə

***Mayın 5-də BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Elm Festivalı çərçivəsində Doerr Davamlılıq Məktəbinin və Stenford Universitetinin Mühəndislik fakültəsinin mülki və ətraf mühit mühəndisliyi üzrə professoru Maykl Lepekin ustad mühazirəsi dinlənilib.***

BDU-nun Texnologiyaların transferi və innovasiyalar şöbəsi və SABAH.lab-ın təşkilatçılığı ilə keçirilən mühazirədə Maykl Lepek "Planetimizin davamlılığının inkişaf etdirilməsində alimlərin və mühəndislərin rolu" mövzusunda çıxış edib.




Maykl Lepek dövrümüzün əsas ekzistensial problemlərindən biri olan davamlılığın inkişaf etdirilməsində innovativ addımlar haqqında məlumat verib. O, ABŞ-nin Milli Mühəndislik Akademiyasının davamlılıqla bağlı problemləri dəyərləndirməsinin səbəbləri, davamlılıq problemlərinin çoxölçülülüyü və miqyası haqqında aparılmış araşdırmaları təqdim edib. Həmçinin mürəkkəb detallar nəzərə alındıqda ortaya çıxan "metastruktur" konsepti haqqında məlumat verib. Qeyd edib ki, "metastruktur" dedikdə fiziki infrastrukturlar, rəqəmsal informasiya texnologiyaları, maliyyələşdirmə mexanizmləri, biznes və biznes modelləri, tərəfdaşlıqlar və birgə layihələr tətbiq etməli olan qurumlar nəzərdə tutulur. Bu texnologiyalar və təşkilatlar toplusu Stenforddakı tədqiqatçılar tərəfindən ənənəvi infrastruktur sistemlərindən yeni və innovativ üsullarla istifadə edən transsendent infrastruktur formasını göstərmək üçün "metastruktur" adlandırılıb. Hazırda "Uber" və "Kickstarter" kimi bizneslər bu mexanizmlərdən istifadə edir.

Professor Maykl Lepek Azərbaycanı gələcəkdə enerji ehtiyatlarından yüksək şəkildə istifadə etmək qabiliyyətinə malik ölkə kimi dəyərləndirib. Sonda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# "Azərbaycan Albaniya dövləti: tarix və tarixşünaslığa yeni baxış" adlı seminar keçirilib

***Mayın 4-də Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının təşəbbüsü ilə "Azərbaycan Albaniya dövləti: tarix və tarixşünaslığa yeni baxış" mövzusunda elmi seminar keçirilib.***

Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, AMEA-nın həqiqi üzvü Yaqub Mahmudov tarixi keçmişimizin hər bir səhifəsinin öyrənilməsinin zəruriliyini və tarixçilərin öhdəsinə böyük məsuliyyət düşdüyünü xatırladıb. Bildirib ki, sovet hakimiyyəti illərində Azərbaycanın qədim dövr tarixi xüsusi məqsədlə saxtalaşdırılıb. Həmin dövrün tədqiqatçıları yanlış olaraq yalnız Azərbaycan SSR ərazisini tarixi Albaniya ərazisi kimi təqdim ediblər. Bəzi hallarda isə Azərbaycan SSR-in Kür çayından şimaldakı ərazisi tarixi Albaniya ərazisi kimi verilib. Şimali Azərbaycan ərazisində ermənilər üçün dövlət 1918-ci ildə yaradıldığı halda Qərbi Azərbaycan torpaqları qədim Ermənistan torpaqları kimi göstərilib. Tarixi Albaniyanın ərazisi qədim İberiyadan şərqə doğru torpaqları əhatə etdiyi halda, bu istiqamətdə də Azərbaycanın tarixi torpaqları qonşu ölkənin ərazisi kimi təqdim olunub.

Yaqub Mahmudov Azərbaycan Albaniyasının əhalisi barədə də ciddi təhriflərə yol verildiyini qeyd edib. Bildirib ki, Albaniya tarixi haqqında sovet dövründə nəşr olunmuş tədqiqatlarda bu Azərbaycan dövlətinin qədim əhalisinin ancaq iber-qafqaz etnoslarından ibarət olduğu göstərilib. Albaniyada yaşayan qədim türk etnoslarının tarixi, o cümlədən xristianlığı qəbul etmiş qıpçaq türk etnosları xüsusi məqsədlə "unudulub". Qədim Azərbaycan türk etnosları saxtalaşdırılaraq erməni etnosu kimi təqdim olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşları, tarix üzrə fəlsəfə doktoru və dosentlər Allahverdi Əlimirzəyev ""Albaniya" termininə elmi münasibət", Ellada Bəkirova "Azərbaycan Albaniya dövlətinin qərb torpaqları" və tədqiqatçı Aysel Kərimova "Azərbaycan Albaniya dövlətinin cənub-şərq sərhədləri" mövzularında məruzə ediblər.

Daha sonra mövzu ilə bağlı müzakirələr aparılıb.

# Əməkdar elm xadimi Qəzənfər Paşayev BDU-da ustad dərsi keçib

***Mayın 17-də İnformasiya və sənəd menecmenti fakültəsində "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda ustad dərsi keçirilib. Ustad dərsində Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev mövzu ilə bağlı məruzə edib.***



Professor Qəzənfər Paşayev Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətinin hər iki dövründə milli-mənəvi dəyərlərimizin yaşadılması, qorunması və gələcək nəsillərə ötürülməsi ilə bağlı həyata keçirdiyi tədbirləri tarixi xronologiya əsasında elmi-nəzəri baxımdan şərh edib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev hələ ötən əsrin 70-ci illərindən milli mədəniyyətimiz, adət-ənənələrimiz, ədəbiyyatımız, ana dilimizin hamisi kimi bu sahələrin inkişafına əvəzsiz töhfələr verib. Natiq qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ədəbiyyata, mədəniyyətə türk xalqlarının birliyini şərtləndirən ən mühüm amil kimi yanaşıb.

Məruzədə Ümummilli Liderin azərbaycançılıq ideologiyasının formalaşmasındakı aparıcı rolu, türk xalqlarının ortaq dəyəri olan folklor nümunələrinin, eposlarımızın təbliğindəki xidmətləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin, o cümlədən şair və yazıçıların yubileylərinin keçirilməsi, onların ədəbi-bədii irsinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər tarixi faktlar əsasında dinləyicilərin nəzərinə çatdırılıb. Qəzənfər Paşayev Ulu Öndərin siyasətini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mədəniyyət sahəsindəki tarixi xidmətlərindən də bəhs edib: "Keçən əsrin 70-ci illərindən bu günə kimi inkişafımızı iki mərhələyə ayırmaq olar: Heydər Əliyev epoxası; İlham Əliyev epoxası. Qürurvericidir ki, həmin epoxanın ən şanlı səhifələri bu gün bütün sahələrdə, o cümlədən milli-mənəvi dəyərlərimizin qorunması, təbliği istiqamətində də yazılır. Həm də bu səhifələrin ən parlaq nümunələri azad Qarabağımızda, türk dünyasının mədəniyyət paytaxtı Şuşada yazılır".

Professor Qəzənfər Paşayevin mühazirəsi auditoriya tərəfindən maraqla dinlənilib, məruzəçi dinləyicilərin mövzu ilə bağlı çoxsaylı sualları cavablandırıb.

# Mineral xammal ehtiyatlarının proqnozlaşdırılmasına dair Respublika elmi konfransı keçirilib

***Mayın 2-də Geologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Yer təkinin öyrənilməsi və mineral xammal ehtiyatlarının proqnozlaşdırılması" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Konfransın keçirilməsində məqsəd işğaldan azad edilmiş ərazilərdə tikinti sektorunun xammala tələbatını ödəmək məqsədilə geoloji axtarış və kəşfiyyat işlərinin proqnozloşdırılması ilə bağlı tədqiqat işlərinin nəticələrini müzakirə etməkdir.

Konfransda qara və əlvan (o cümlədən nəcib) metal filizlərinin ehtiyatı, yataqların kəşfiyyatı, istismara cəlb olunması, işlənilməsi, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və dağ-mədən sənayesinin inkişafı istiqamətlərində proqnozlar müzakirə olunub. Həmçinin, mineral xammal bazasının qorunması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi, xammal tələbatının ödənilməsi, qanunvericiliyin tələblərinə, norma və standartlara əməl olunması, təhlükəsizliyin və şəffaflığın təmin edilməsi, ətraf mühitin, təbii landşaftın mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi məqsədilə yer təkinin öyrənilməsinə dair müzakirələr aparılıb.

Konfransı giriş sözü ilə açan fakültə dekanı Mamoy Mansurov Ümummilli Lider Heydər Əliyevin zəngin ictimai-siyasi fəaliyyətindən, onun Azərbaycanın inkişafı üçün gördüyü işlərdən bəhs edib.

BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin rəhbəri Mais Süleymanov elmi konfransın mahiyyətindən danışıb, ölkəmizdə elmin inkişafının son dövrlər innovativ metodların tətbiqi ilə mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qeyd edib ki, Ulu Öndərin Azərbaycan elminə olan qayğısı ölkəmizin daha sürətlə inkişafına təkan verib.

Daha sonra konfransda Ümumi və tarixi geologiya kafedrasının dosenti Ələddin Məmmədəlizadənin "Qobustan geoloji rayonunun alt və orta miosen çöküntülərinin stratiqrafiyası", Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Günay Hüseynovanın "Şərqi Zəngəzur iqtisadi rayonunun mineral-termal sularının formalaşma qanunauyğunluqları və istifadə perspektivliyi", Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının doktorantı Ülviyyə Yüzbaşovanın "Skapolit tip quruluşlu mineralların kristallokimyəvi xüsusiyyətləri " mövzusunda məruzələri dinlənilib.

# Natiqlik sənəti üzrə mütəxəssis Cəlalə Nəzəroğlu BDU-da seminar keçib

***Mayın 23-də Texnologiyaların transferi və innovasiyalar şöbəsi və Filologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "Elm festivalı"çərçivəsində "Natiqliyin sirləri" mövzusunda təlim keçirilib.***

"Diksiya Akademiyası" MMC-nin təsisçisi, təlimçi Cəlalə Nəzəroğlu düzgün nitqi formalaşdırmağın yolları və natiqlik sənətinin incəlikləri haqqında tələbələrə məlumat verib.

Cəlalə Nəzəroğlu danışıqda yol verilən səhvlər, düzgün ünsiyyət qaydaları haqqında danışıb, davranış zamanı nitqdən və bədən dilindən lazımi formada istifadə edilməsinin əhəmiyyətini qeyd edib. O, ünsiyyət zamanı qarşı tərəfin psixologiyasına uyğun dialoqun qurulması, orfoepiya qaydalarına əməl olunması və digər mövzularda seminar iştirakçılarını məlumatlandırıb.

Təlimçi həmçinin özünüifadə problemi və onların həlli, söz ehtiyatının artırılması, çıxışa hazırlaşarkən diqqət edilməli məqamlar və həyəcanı aradan götürməyin yolları barədə danışıb.

Sonda təlimçi tələbərin çoxsaylı suallarını cavablandırıb.

# BDU-nun Elmi Kitabxanası Qərbi Kaspi Universitetində informasiya ehtiyaclarının təhlilinə dair dəyirmi masa keçirib



***Mayın 5-də BDU-nun Elmi Kitabxanasının təşkilatçılığı ilə Qərbi Kaspi Universitetində Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) yaranmasının 20 illiyinə həsr olunmuş "Universitetlərdə informasiya ehtiyaclarının təhlili və təbliği" mövzusunda dəyirmi masa keçirilib.***

Qərbi Kaspi Universitetinin Elmi Kitabxanasının direktoru Nigar Babayeva "Kitabxananın elmi-tədqiqat və biblioqrafiya xidmətlərinin rolu, universitetdə informasiya ehtiyaclarının təhlili və təbliğatın gücü" mövzusunda məruzə edib. Məruzədə kitabxana istifadəçilərinin sayını artırmaq məqsədilə informasiya ehtiyaclarını müəyyənləşdirmək, məlumat bazaları və informasiya resurslarının sayını artırmaq, elmi-tədqiqat xidmətləri və biblioqrafiya sahələrində seminar və təlimlər keçirmək kimi məsələlərə aydınlıq gətirilib.

ADA Universitetinin Kitabxanasının direktoru və "Eazy Solutions" nəşriyyatının Azərbaycan üzrə təmsilçisi Elçin Məmmədov Azərbaycan universitetlərinin elmi-tədqiqat fəaliyyətində təmsil etdiyi nəşriyyatın məhsulları və onlardan istifadənin dəstəklənməsi mövzusunu müzakirəyə çıxarıb.

Az.KİK-in rəhbəri, EİFL.net üzrə milli əlaqələndirici, BDU-nun Elmi Kitabxanasının Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Yusifova isə EİFL.net-in xidmətlərindən, konsorsium üzvlərinə sınaq müddəti ilə təqdim edilən "Emerald" nəşriyyatının məhsullarından istifadənin yekun nəticələri haqqında məlumat verib.

Dəyirmi masada Az.KİK-ə üzv təşkilatların nümayəndələrinin iştirakı ilə kitabxanalarda xidmətin keyfiyyətini yüksəltmək yolları, istifadəçilərə yanaşma tərzi, xidmətdə çeviklik, davamlı ünsiyyət və s. məsələlər müzakirə olunub.

# Sənaye riyaziyyatı haqqında BDU-HİT birgə elmi seminarı



***Mayın 3-də BDU və İsrailin tanınmış universitetlərindən olan Holon Texnologiya İnstitutunun (HİT) Sənaye riyaziyyatı haqqında birgə elmi seminarı keçirilib.***

Seminarı giriş nitqi ilə açan rektor Elçin Babayev Holon Texnologiya İnstitutu ilə əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib. Bildirib ki, artıq iki universitet arasında ikili diplom proqramının ilk məzunlarının buraxılış mərasimi olub. Birgə əməkdaşlıq müxtəlif istiqamətlər üzrə bundan sonra da davam edəcək.

Daha sonra HİT-nin prezidenti Eduard Yakubovun nitqi dinlənilib. Seminarda maraqlı və mühüm məruzələrdən biri də HolonTexnologiyalar İnstitutunun icra komitəsinin sədri, Sənaye Riyaziyyatı İnstitutunun təsisçisi və rəhbəri, professor Adir Pridorun məruzəsi olub. Məruzəçi "Tətbiqi riyaziyyat və müasirləşmə" mövzusunda BDU-nun tələbə və gənc tədqiqatçılarına geniş mühazirə oxuyub.

Sonra seminarda təqdim olunan mövzular ətrafında maraqlı müzakirələr aparılıb və tələbələr tərəfindən verilən suallar cavablandırılıb.

# "İranda türklər və türkologiya" mövzusunda elmi seminar

***Mayın 4-də Filologiya fakültəsinin Türkologiya kafedrasının nəzdində "Türkoloji araşdırmalar" elmi-tədqiqat laboratoriyasında "İranda türklər və türkologiya" mövzusunda elmi seminar keçirilib.*** Azərbaycan türkologiyasının görkəmli nümayəndəsi, uzun illər BDU-nun Türkologiya kafedrasına rəhbərlik etmiş, mərhum akademik Tofiq Hacıyevin anadan olmasının 87-ci ildönümünə və "Türkoloji araşdırmalar" ETL-in fəaliyyətə başlamasının 11 illiyinə təsadüf edən tədbirdə Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədli, İngilis dili (təbiət fakültələri üzrə) kafedrasının müdiri, professor Abbas Abbasov, "Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə", "Türkoloji araşdırmalar" ETL-in əməkdaşları, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının magistrantları, Tələbə Elmi Cəmiyyətinin üzvləri iştirak ediblər.

Mövzu ilə bağlı məruzə edən "Türkoloji araşdırmalar" ETL-in elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov öncə BDU-nun ölkəmizdə əsas türkoloji mərkəz kimi mühüm xidmətlərindən söz açıb, görkəmli dil tarixçisi Tofiq Hacıyevin türkologiyanın inkişafında və Cənubi Azərbaycandan ölkəmizə gələn soydaşlarımızın yetişməsində önəmli rol oynadığını diqqətə çatdırıb. Məruzəçi qeyd edib ki, indi İran dövlətinin ərazisi kimi bilinən tarixi Azərbaycan torpaqlarında və digər yerlərdə minilliklər boyunca müxtəlif türk xalqları yaşayıblar və indi də yaşamaqdadırlar. Onlardan xalaclar, türkmənlər, qaşqaylar, Xorasan türkləri, sunqurlar, özbəklər, azərbaycanlılar, əfşarlar, eynalılar, əbiverdilər və s. kimi türk toplumlarını göstərmək olar. Diqqəti İranda yaşayan soydaşlarımıza yönəldən məruzəçi bildirib ki, bunların içərisində azərbaycanlılar çoxluq təşkil edir və hətta bəzi türkoloqlar yuxarıda adları qeyd olunan türk etnoslarının dillərini Azərbaycan dilinin dialektləri hesab edirlər.

1924-cü ildə hakimiyyətə gələn pəhləvilərin yürütdüyü siyasət türkləri təhdid altında saxlayıb. Panfarsistlər fəallaşaraq türk toplumlarına öz dillərini, ədəbiyyatlarını, mədəniyyət və adət-ənənələrini unutdurmaq kimi qəddar bir missiyanı həyata keçiriblər. Təbii ki, bunlar həm də xalqın içərisindən çıxan milli düşüncəli ziyalı və mütəfəkkirlərin sayəsində mümkün olub.

Məruzədə İranda aparılan türkoloji araşdırmalardan da söz açılıb. Ramil Bayramov qeyd edib ki, İranda mövcud olan dürk dillərinin araşdırılmasına ilk dəfə sistemli olaraq Göttingendəki Türkologiya və Orta Asiya Bilik Seminarının üzvləri tərəfindən başlanılıb. Çıxışda həmçinin Cənubda fəaliyyət göstərən türkoloqlardan Cavad Heyət, Mirzə Həsən Rüşdiyyə, Məhəmmədəli Fərzanə, Məhəmməd Tağı Zehtabi və başqalarının yaradıcılığı haqqında məlumat verilib, onların əsərlərinin İranda türkoloji düşüncənin formalaşmasına mühüm təsir göstərdiyi vurğulanıb.

Sonra məruzə ətrafında çıxışlar edilib. Türkologiya kafedrasının müdiri, professor Məhərrəm Məmmədli qeyd edib ki, İranda yaşayan 120 etnik tayfa sırf azərbaycanlılarla əlaqəlidir. Türkoloq alimlərin İranda yaşayan türklərlə bağlı apardıqları araşdırmalara toxunan Məhərrəm Məmmədli bu sahədə akademik Tofiq Hacıyevin xidmətlərindən, görkəmli alimin Azərbaycan ədəbi dilinin cənub qolu haqqındakı araşdırmalarından bəhs edib.

"Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcümə" ETL-in müdiri, dosent Nəzakət Hüseynova İranda milli-mənəvi dəyərlərimizi təbliğ edən azərbaycanlı şair və yazıçıların ədəbi fəaliyyətindən söz açıb, ötən yüzillikdə Cənubi Azərbaycanda formalaşan milli düşüncəli yaradıcı ziyalıların ana dilimizin təbliği və öyrənilməsinə verdikləri töhfələrin mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Seminar başa çatdıqdan sonra tədbir iştirakçıları II Fəxri xiyabana gedərək, akademik Tofiq Hacıyevin məzarını ziyarət edib və qəbri üzərinə gül dəstələri qoyublar.

# BDU-nun əməkdaşı Almaniya universitetində elmi məruzə ilə çıxış edib

***Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi Lalə Qəhrəmanlı Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Elm və Texnologiyada Avropa Əməkdaşlığı (European Cooperation in Science and Technology - COST) proqramının "Fotovoltaika üçün yeni qeyri-üzvi halkogenidlərin tədqiqi və beynəlxalq əməkdaşlıq" (CA21148) adlı layihəsi üzrə Qısamüddətli Elmi Missiya (Short-term Scientific Mission (STSM)) qrant müsabiqəsində 120 layihə arasında 8 qalibdən biri olaraq seçilib.*** O, hazırda Almaniyanın Erlangen-Nürnberq şəhərində yerləşən Fridrix Aleksandr Universitetinin (FAU) "Nazik təbəqələr materiallarının kimyası" bölməsinin rəhbəri, professor Julien Bachmann və əməkdaşları ilə birgə həmin layihə çərçivəsində "Fotovoltaika üçün gümüş sulfid-kadmium sulfid / gümüş nanonaqilləri və qrafen əsaslı (Ag2S-CdS NN/Ag NN/QF) materiallar" mövzusu üzrə elmi tədqiqatlar aparır. Lalə Qəhrəmanlı apardığı tədqiqatların nəticələri barədə FAU-da elmi məruzə ilə çıxış edib. O, öz məruzəsində BDU-nun Azərbaycanın ən qədim elm-təhsil ocağı olduğunu vurğulayıb, universitetin tarixi, elmi-tədqiqat fəaliyyəti, gələcək perspektivləri və beynəlxalq əlaqələri haqqında məlumat verib.

Qeyd edək ki, FAU qlobal reytinq cədvəli üzrə Almaniya Universitetləri arasında 8-ci, beynəlxalq reytinq cədvəlində isə 127-ci yerdə qərarlaşıb.

# BDU-nun əcnəbi tələbələri Fəxri xiyabanı ziyarət ediblər



***Mayın 3-də BDU-nun hazırlıq sektorunda təhsil alan əcnəbi tələbələr Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Fəxri xiyabanı ziyarət ediblər.*** Çin, Türkiyə, Pakistan, Şri-Lanka, İran, Zambiya və Ukraynadan olan əcnəbi tələbələr Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın xatirəsini ehtiramla anıb, məzarları üzərinə gül dəstələri qoyublar.

Əcnəbi tələbələrə Azərbaycan Respublikasının müstəqillik tarixindən, Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı, Prezident İlham Əliyevin misilsiz xidmətlərindən bəhs olunub.

# "Gənc istedadlar" liseyində "Xalqa bağışlanan ömür" adlı ədəbiyyat gecəsi

***Mayın 11-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Xalqa bağışlanan ömür" adlı ədəbiyyat gecəsi keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Liseyin direktoru Arif Bağırov çıxış edərək Ümummilli Liderin dövlətçiliyimizin və müstəqilliyimizin qorunmasında misilsiz xidmətlərindən bəhs edib, dahi öndərin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən davam etdiyini vurğulayıb. Bildirib ki, "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər təhsil və elm sahəsinin daim hamisi olub, Azərbaycan gənclərinin bilikli, dünyagörüşlü və vətənpərvər olmasına çalışıb.

Liseyin Gənclərin çağırışaqədərki hərbi hazırlıq müəllimi, polkovnik-leytenant Nihat Abdullayev Ulu Öndərin azərbaycançılıq ideologiyası, gənclərin vətənpərvərlik ruhunda formalaşması istiqamətində gördüyü işlərdən danışıb.

Liseyin xoru "Sən elə bir zirvəsən" mahnısını ifa edib. Sonra şagirdlərin ifasında şeir kompozisiyaları nümayiş olunub.

# "Gənc istedadlar" liseyinin şagirdləri ABŞ-da ISEF Beynəlxalq Elm və Mühəndislik Sərgisində

***BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 4 şagirdi ənənəvi olaraq hər il ABŞ-da keçirilən ISEF Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edib.***

Liseyin "Sabahın alimləri" XII respublika müsabiqəsinin qalibləri olan şagirdləri - Misir Hüseynli və Ayşan Hacıyeva fizika və astronomiya, Ayaz Ömərli və Ömər İbrahimov kimya istiqaməti üzrə mayın 13-dən 19-dək ABŞ-ın Texas ştatının Dallas şəhərində ISEF Beynəlxalq Elm və Mühəndislik Sərgisində öz layihələrini təqdim ediblər.



# BDU tələbələri "2023 – Heydər Əliyev İli" adlı kitab sərgisini ziyarət ediblər

***Mayın 13-də İnformasiya və sənəd menecmenti fakültəsinin bir qrup tələbəsi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən hazırlanan "2023 – Heydər Əliyev ili" adlı kitab sərgisini ziyarət ediblər.***



BDU tələbələrini sərgi ilə tanış edən Milli Kitabxananın direktor müavini, tarixi üzrə fəlsəfə doktoru Ədibə İsmayılova Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda kitabxana quruculuğundakı mühüm xidmətlərindən, bu sahənin bir sistem kimi formalaşmasındakı əvəzsiz rolundan bəhs edib. Bildirib ki, Ulu Öndər hər zaman Milli Kitabxanaya xüsusi diqqət və qayğı göstərib, kitabxananın maddi-texniki bazasının, kadr potensialının və kitab fondunun formalaşmasına mühüm töhfələr verib. Tələbələr "2023 – Heydər Əliyev İli" adlı geniş kitab sərgisi ilə yanaşı, Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış "Azərbaycan xalqının Ümummilli Lideri – Heydər Əliyev" adlı elektron məlumat bazası ilə də tanış olublar.

# Tələbə jurnalistlər ekstremal vəziyyətdə davranış qaydalarını öyrənirlər

***Jurnalistika fakültəsinin tələbələri ekstremal vəziyyətdə davranış qaydalarını öyrənirlər. Mayın 10-da Azərbaycan Airsoft İdman Klubunun poliqonunda fakültənin III kurs tələbələrinə "Ekstremal vəziyyətdə jurnalistlərin davranışı" adlı praktik dərs keçirilib.***

Fənn müəllimi Vüqar İbadovun rəhbərliyi ilə onlara döyüş şəraitində təhlükəsiz foto-video çəkilişlərinin aparılması və materialın yerində redaksiyaya ötürülməsi prosesi izah edilib.



# SABAH qrupu tələbələrinin idman uğurları

***Mayın 12-də SABAH qrupları tərəfindən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və 28 May - Müstəqillik Gününə həsr olunmuş idman yarışlarının bağlanış və mükafatlandırma mərasimi keçirilib.***

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan, beynəlxalq və respublika dərəcəli hakimlər tərəfindən idarə edilən idman yarışlarında şahmat üzrə 82, dama üzrə 63, atıcılıq yarışlarında isə 75 tələbə iştirak edib. Yekun nəticəyə əsasən, Bakı Dövlət Universitetinin tələbəsi Murad Rzayev şahmat və dama üzrə I yerin qalibi olub. BDU-nun tələbəsi Əli Mirzəyev dama yarışı üzrə III yerə layiq görülüb.

28 May - Müstəqillik Gününə həsr olunan idman yarışlarında BDU-nun "SABAH-ın zəfəri" komandası futzal üzrə II yerə sahib olub. Futzal yarışları üzrə "Ən yaxşı oyunçu" nominasiyasında BDU-nun SABAH qruplarının Kompüter elmləri ixtisasının tələbəsi, "SABAH-ın zəfəri" komandasının üzvü İsmayıl Süleymanlı təltif olunub.

Yekun nəticəsinə əsasən, oğlanlar arasında keçirilən voleybol üzrə idman yarışlarında BDU-nun "SABAH-ın qvardiyası" komandası II yeri tutub.

Basketbol yarışının yekun nəticəsinə əsasən, BDU-nun "SABAH-ın zirvəsi" komandası I, "İşıqlı SABAH-lar" komandası isə II yerə layiq görülüb. Basketbol üzrə idman yarışının "Ən yaxşı oyunçu" nominasiyasında BDU-nun "SABAH-ın zirvəsi" komandasının üzvü Əli Məmmədov qalib olub.

Qaliblərin hər biri diplom və hədiyyə ilə mükafatlandırılıb.

# "Stres və onun idarə olunması" mövzusunda təlim

***Mayın 15-də BDU-nun Psixoloji yardım sektoru tərəfindən tələbələrə "Stres və onun idarə olunması" mövzusunda növbəti təlim keçirilib.***

Təlim iştirakçılarına stres, onun növləri, aradan qaldırılması yolları, davranışların idarə olunması haqqında ətraflı məlumat verilib. Müxtəlif psixoloji texnikalar praktik şəkildə işlənilib.

Təlim qrupunun stressə dözümlülüyünün dərəcəsini müəyyən etmək üçün iştirakçılara Hans Selyenin testi paylanılıb və nəticələr təhlil olunub.

# BDU-da yanğınları ilkin mərhələdə müəyyənləşdirən və söndürən ağıllı robot hazırlanır

***Mayın 5-də Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında növbəti elmi seminar keçirilib.*** Elmi seminarda laboratoriyanın kiçik elmi işçisi və Fizika fakültəsinin III kurs doktorantı Orxan Güləhmədov və Fizika fakültəsinin məzunu Hüseyn Məmmədov "Qapalı məkanlarda çıxan yanğınların ilkin mərhələdə müəyyən edilməsi və söndürülməsini həyata keçirən ağıllı robotun hazırlanması" mövzusunda çıxış ediblər.



Orxan Güləhmədov əvvəlcə seminar iştirakçılarının diqqətinə "TEKNOFEST-2023" festivalı və onun əhatə etdiyi kateqoriyalar haqqında qısa məlumat verib. Sonra o, festivalın final mərhələsinə vəsiqə almış, müəllifləri olduqları layihə barədə danışıb. Qeyd edib ki, yaradılacaq ağıllı robotun köməyi ilə qapalı məkanlarda baş verən yanğınların ilkin mərhələdə müəyyən edilməsi və yanğın sahəsinin genişlənmədən söndürülməsinin həyata keçirilməsi layihənin əsas məqsədidir.

Hüseyn Məmmədov isə bildirib ki, hazırlanan sistem vasitəsilə məkanda quraşdırılmış kameralar və lazer skanerin köməyi ilə yanğın baş verən ərazinin koordinatlarının dəqiqliklə müəyyənləşdirilərək ağıllı robota ötürülməsi, həmçinin, yanğın və tüstü aşkarlama xüsusiyyətinə malik sensor ilə təchiz olunacaq sistem hesabına yanğının ilkin mərhələdə detektə olunması və istifadə olunan kimyəvi tərkibli qaz komponentləri vasitəsilə yanğın sahəsinin böyümədən söndürülməsi prosesinin icra edilməsi nəzərdə tutulur.

Seminarın sonunda məruzəçilər iştirakçıların mövzu ilə bağlı suallarını cavablandırıblar.

# BDU tələbələrinin ifasında "Yarımçıq qalmış..." tamaşasının premyerası

***Mayın 4-də Mədəniyyət-yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə Universitet tələbələrinin ifasında "Yarımçıq qalmış..." tamaşasının premyerası baş tutub.***



Tamaşa şanlı Aprel döyüşlərinin 7-ci ildönümünə və şəhidlərimizin əziz xatirəsinə ithaf olunub.

Vahid Orucoğlunun quruluşçu rejissorluğu ilə hazırlanan tamaşada Universitetin müxtəlif fakültələrinin istedadlı tələbələri şəhid olmuş qəhrəman oğullarımızın, onların ailə üzvlərinin obrazlarını məharətlə yaradıblar. Əsərin müəllifi Yefim Abramov, şeirlərin müəllifi Leyla Bəyimdir.

Premyerada iştirak edən BDU-nun rektoru Elçin Babayev tamaşanın yaradıcı heyətini təbrik edib, uğurlar arzulayıb.

# BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş spartakiadanın bağlanış mərasimi

***Mayın 6-da BDU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş spartakiadanın bağlanış mərasimi keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.



Mərasimdə çıxış edən rektor Elçin Babayev qeyd edib ki, Azərbaycan xalqı Ümummilli Lider, müstəqil dövlətimizin memarı və qurucusu, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünü böyük sevinc və ehtiramla qarşılayır. Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra gənclər, idman, elm və təhsil siyasəti dövlətin əsas prioritetləri sırasına daxil edilib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gəncləri həm təhsil, həm idman sahəsində bütün dünyada öz uğurları ilə seçilirlər. Daha sonra idman yarışlarının qalibləri elan olunub.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan yarışlarda BDU-nun bütün fakültələrindən 5 idman növü üzrə 300-dək tələbə iştirak edib.

Spartakiada çərçivəsində keçirilən fakültələrarası futbol turnirində Tarix fakültəsi I, Hüquq fakültəsi II, Coğrafiya fakültəsi isə III yeri qazanıb.

Voleybol yarışlarında Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi I, Ekologiya və torpaqşünaslıq fakültəsi II, Tətbiqi riyaziyyat və kibernetika fakültəsi isə III yeri tutub.

Daha sonra şəxsi birincilik yarışlarının qalibləri mükafatlandırılıb. Qaliblər kubok və medallarla təltif olunublar.

# "Avropa İnsan Hüquqları Konvensiyası – 70" maarifləndirmə kampaniyasına başlanılıb

***Mayın 4-də Hüquq fakültəsi Avropa Şurasının Bakıdakı nümayəndəliyi ilə birgə "Avropa İnsan Hüquqları Konvensiyası – 70" maarifləndirmə kampaniyasına start verib.***

Konvensiyanın qüvvəyə minməsinin 70-ci ildönümünə həsr edilmiş kampaniya tələbələrin insan hüquqları sahəsində fundamental sənədlərdən sayılan İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın müddəalarının və Avropa Məhkəməsinin presedent hüququnun dərindən öyrənilməsinə xidmət edir.

Maarifləndirmə kampaniyası Hüquq fakültəsinin dekanı Zaur Əliyevin təşəbbüsü ilə başlanan və tələbələrin böyük marağına səbəb olan "Tələbə tərəfindən tələbə üçün" layihəsi çərçivəsində həyata keçirilir.

Layihənin təlimçisi, Hüquq fakültəsinin III kurs (ingilis bölməsi) tələbəsi Səyad Ələkbərov "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları" mövzusu üzrə fərqli kurslardan olan tələbələrə təlim keçib. İnteraktiv formada baş tutmuş təlim iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb, tələbələrin çoxsaylı sualları cavablandırılıb.

Qeyd edək ki, layihə çərçivəsində yuxarı kurs tələbələri aşağı kurs tələbələrinə əvvəlcədən müəyyən edilmiş və hazırlanmış mövzular üzrə təlimlər keçir. Layihənin əsas məqsədi təlimçinin tələbələri öyrətməyi yox, bildiklərini bölüşməyi və qarşılıqlı öyrənməsidir. Keçirilən təlimlər müddətində tələbələr özlərinin ictimai nitq, hüquqi araşdırma, təqdimat, arqumentləri düzgün müdafiə etmə kimi bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də müəyyən edilmiş mövzu barəsində fundamental biliklər əldə edirlər.

# "Tarixə yazılan ömür -100"

***Mayın 11-də BDU-nun SABAH qruplarının təşkilatçılığı ilə "Gənc tarixçilər" klubunun "Tarixə yazılan ömür-100" adlı tədbiri keçirilib.***

Tədbirdə SABAH qruplarının II kurs Tarix müəllimliyi ixtisasının tələbəsi Xanım Günəşli "Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövrü" məruzəsi ilə çıxış edib. Məruzədə Ulu Öndərin Azərbaycanda 1969-1982-ci illər ərzində həyata keçirdiyi quruculuq işləri, müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması barədə ətraflı məlumat verilib.

SABAH qruplarının II kurs Tarix müəllimliyi ixtisasının tələbələrinin iştirakı ilə hazırlanmış videoçarxda Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin II dövrü əks olunub.

SABAH qruplarının II kurs Tarix müəllimliyi ixtisasının tələbəsi Pərvanə Əlizadə "Heydər Əliyevin gənclər siyasəti" məruzəsində isə Ulu Öndərin gənclərin təhsili, inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlər haqqında danışıb.

"Heydər Əliyevin həyatı və siyasəti" adlı videoçarxın nümayişindən sonra SABAH qruplarının IV kurs Tarix müəllimliyi ixtisasının tələbəsi Azər Həndəmov "Türk dünyasının mədəniyyət paytaxtı Şuşada yenidənqurma və bərpa işləri" adlı məruzə edib.

# BDU-da müəllimlərin işə qəbulu üzrə müsabiqəyə dair maarifləndirici görüş

***Mayın 15-də BDU-da Təhsil İnstitutunun təşkilatçılığı ilə müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqəyə dair maarifləndirici görüş keçirilib. Görüşdə BDU-nun pedaqoji ixtisaslar üzrə təhsil alan sonuncu kurs tələbələri iştirak ediblər.***

Tədbirdə MİQ barədə ətraflı təqdimat edilib, hazırda daha çox hansı fənlər üzrə müəllim kadrlarına ehtiyac duyulduğu haqqında məlumat verilib.

Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-da Yasamal rayonunda yerləşən ali məktəb və kolleclər arasında idman turnirinin bağlanış mərasimi



***Mayın 1-də BDU-da Yasamal Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatı və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Yasamal rayonunda yerləşən ali və orta ixtisas təhsil müəssisələri arasında idman turnirinin bağlanış mərasimi keçirilib.***

Bağlanış mərasimində Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, BDU-nun Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Milli Məclisin deputatı Səbinə Xasayeva, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov və digər rəsmilər iştirak ediblər.

Rəsmi hissədən əvvəl futbol turniri üzrə iki finalçı komanda arasında qarşılaşma keçirilib. Daha sonra 7 idman növü üzrə komandaların mükafatlandırma mərasimi başlayıb.

Qeyd edək ki, BDU-nun komandaları şahmat, dama və voleybol (qızlar arasında) idman növləri üzrə birinci yerə, basketbol üzrə ikinci yerə, stolüstü tennis və voleybol (oğlanlar arasında) idman növləri üzrə üçüncü yerə layiq görülüblər. Qalib komandalar müxtəlif kubok və medallarla təltif olunublar.

# BDU-da SABAH qruplarına tələbə qəbulu ilə bağlı infosessiya keçirilib



***2023/2024-cü tədris ili üzrə SABAH qruplarına bakalavriatura və magistratura səviyyələrində tələbə qəbulu üçün infosessiyalar başlayıb.***

Mayın 3-də BDU-da SABAH qruplarının bakalavriatura və magistratura səviyyəsində tələbə qəbulu ilə bağlı infosessiya keçirilib. Ali təhsil müəssisələrinin rəhbər şəxslərinin iştirakı ilə keçirilən infosessiyada SABAH qrupları İcra Komitəsinin rəhbəri Eldar Qocayev tələbə qəbulu qaydaları, seçim mərhələləri, tələbə və məzunların naliyyətləri haqqında məlumat verib.

Sonda isə tələbələr tərəfindən verilən suallar cavablandırılıb.

# BDU tələbələri Azərbaycanda nadir növlərin mühafizəsi ilə bağlı məlumatlandırılıb

***Mayın 1-də Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin direktoru Elşad Əsgərov Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələrinə "Azərbaycanda nadir növlərin mühafizəsi və bərpası" mövzusunda mühazirə oxuyub.***

O qeyd edib ki, Azərbaycan Qafqaz ekoregionunun bir parçası kimi zəngin biomüxtəlifliyə malikdir. Biomüxtəlifliyin bu cür zəngin olması coğrafi mövqe və landşaft müxtəlifliyindən irəli gəlir. Azərbaycanda Xəzər dənizi sahili boyunca milyonlarla quş növü ənənəvi yaz-payız köçü edir, onlardan bir çoxu ölkəmizdə qışlamaya qalır. Bütün bu zənginliyin qorunması üçün respublikamızda Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri şəbəkəsi mövcuddur. Son 20 ildə bu şəbəkənin ümumi ərazisi 2 dəfə genişlənib, 10 milli park yaradılıb. Bu ay Azərbaycan Respublikasının "Qırmızı kitab"ının 3-cü nəşri işıq üzü görəcək.

Bir sıra nadir növlərin bərpası üçün beynəlxalq layihələr icra olunur. Ceyranların tarixi arealının bərpası məqsədilə reintroduksiya tədbirləri həyata keçirilir.

Elşad Əsgərov çöl ekspedisiyaları zamanı istifadə olunan foto-tələlərdən və GPS xaltalardan da bəhs edib. Bildirib ki, həmin müasir avadanlıqların heyvanların miqrasiya trayektoriyasının müəyyənləşdirilməsində böyük rolu var. Aparılan monitorinqlər sayəsində Naxçıvan ərazisində bir sıra heyvan növlərinin sayında artım müşahidə olunub. Bu isə Naxçıvan Muxtar Respublikasının ərazisində heyvanların qanunsuz ovlanmasına qadağa qoyulması, bitki örtüyünün artması və təbiətə göstərilən qayğı sayəsində mümkün olub. Dağ keçisi və muflonların təbii artımı burada yaşayan bəbirlərdə də nəsil artımının müşahidə olunmasına səbəb olub.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Psixoloji yardım sektoru tələbələr üçün növbəti təlim keçirib

***Mayın 3-də Psixoloji yardım sektoru Sosial elmlər və psixologiya fakültəsinin tələbələri üçün "Psixoterapiya prosesi ümumi texnikarlarla" adlı təlim keçirib.***

Təlimin ilk mərhələsində konsultasiya prosesinin strukturu izah edilib. Tələbələr təfəkkür çevikliyini inkişaf etdirən texnika ilə tanış olublar.

Təlimin ikinci mərhələsində ümumi texnikaların konsultasiya prosesinə tətbiqi öyrənilib. Aktiv dinləmə, perefraz, interpretasiya, konfrontasiya, hisslərin əks olunması, informasiyanın ötürülməsi kimi texnikalar nümunələr əsasında nəzərdən keçirilib. Hər bir texnikanın prosesə tətbiqi zamanı diqqət ediləcək məqamlar qeyd edilib.

Təlimin üçüncü mərhələsində isə konsultativ görüşün tamamlanması izah olunub.

Sonda tələbələrin sualları cavablandırılıb.

# İcbari tibbi sığorta ilə bağlı infosessiya keçirilib

***Mayın 4-də Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə İcbari Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları tərəfindən tələbələr üçün infosessiya keçirilib.***

Görüşdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Agenliyin fəaliyyət istiqamətləri haqqında məlumat verib. Diqqətə çatdırıb ki, Azərbaycanda əhalinin sağlamlığının qorunması və zəruri tibbi xidmətlərin göstərilməsi işini təkmilləşdirmək məqsədilə 2021-ci ildən etibarən icbari tibbi sığorta sistemi tətbiq olunur. Hər bir vətəndaş sistemdən yararlanmaqla keyfiyyətli tibbi xidmətdən istifadə edə bilər. Bu baxımdan müvafiq hədəf qrupları, o cümlədən tələbələrlə maarifləndirmə işlərinin aparılması olduqca əhəmiyyətlidir.

Daha sonra İcbari Sığorta üzrə Dövlət Agentliyinin şöbə müdiri Pərvin Baxşəliyeva, əməkdaşı Fuad Bayramov tərəfindən icbari tibbi sığortaya müraciət və istifadə qaydaları, icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olan xidmətlər haqqında təqdimatlar edilib.



Tələbələr tibbi sığortadan istifadəyə dair suallarını ünvanlayıb və xidmət keyfiyyətinin artırılması ilə bağlı onlayn sorğuda iştirak ediblər.

# BDU-nun tələbələrdən ibarət futzal komandası turnirin üçüncüsü olub



***BDU-nun tələbələrdən ibarət futzal üzrə yığma komandası Elm və Təhsil Nazirliyi və Tələbə Futbol Federasiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ali təhsil müəssisələri arasında keçirilən futzal turnirində III yer uğrunda qarşılaşmada Gəncə Dövlət Universitetinin komandasına qalib gəlib.***

Qeyd edək ki, 2022-ci ilin sonunda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş 33 ali təhsil müəssisəsi arasında keçirilən futzal turnirində BDU komandası bütün rəqiblərini üstələyərək turnirin qalibi olmuşdu.

Komandamızı ürəkdən təbrik edirik.

# BDU-nun 2 komandasının 2 layihəsi "TEKNOFEST-2023"ün qalibi olub

***BDU-nun "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında təmsil olunan komandaları böyük uğur qazanıb.***

Belə ki, BDU-nun "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda I yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə III yerə layiq görülüb.

Komandaların səfər xərclərinə "Bayramlı Group" MMC əlavə dəstək verib.

Bakı Dövlət Universitetini uğurla təmsil edərək qələbə qazanan komandalarımız Vətənə qayıdıblar. Heydər Əliyev adına Beynəlxalq Hava Limanında BDU-nun qalib TEKNOFEST komandalarını BDU-nun tələbə və əməkdaşları böyük təntənə və sevinclə qarşılayıblar






# Rektor Elçin Babayev "TEKNOFEST-2023"də iştirak edən BDU komandalarının üzvləri ilə görüşüb

***Mayın 4-də BDU-nun rektoru Elçin Babayev İstanbulda keçirilən "TEKNOFEST-2023" Aerokosmik və Texnologiya Festivalında uğurla çıxış edən BDU komandalarının üzvləri ilə görüşüb.***

Rektor komanda üzvlərini festivalda I və III yeri tutaraq böyük qələbə qazanmaları münasibətilə təbrik edib, bunun Azərbaycanın və BDU-nun böyük uğuru olduğunu bildirib. Rektor diqqətə çatdırıb ki, bu hadisə BDU-nun və komanda üzvlərinin həyatında dönüş nöqtəsi, gələcək uğurların başlanğıcı sayıla bilər.

Elçin Babayev qalib layihələrin müəlliflik hüququnun qorunacağını və patent almaq üçün Əqli Mülkiyyət Agentliyinə müraciət ediləcəyini bildirib.

Sonra "TEKNOFEST-2023"də iştirak edən BDU komandalarının üzvləri festival təəssüratlarını və qələbə sevinclərini bölüşüblər.

Qeyd edək ki, BDU-nun 4 komandası 6 layihəsi ilə "TEKNOFEST-2023"ün finalına çıxıb. Onlardan "BSU Creativity Workz" komandası "Driver's Eye (avtomobil qəzalarını əvvəlcədən müəyyənləşdirərək sürücünü xəbərdar edən elektron sistem)" layihəsi ilə festivalda "Ağıllı nəqliyyat" kateqoriyası üzrə 109 finalçı arasında I yerə, "Humantek" komandası isə "Ağıllı damla sulama sistemi (torpağın mineral tərkibi, rütubət səviyyəsi, havanın temperaturu və təzyiqi kimi məlumatların toplanaraq mərkəzi stansiyaya naqilsiz ötürülməsi üçün əkin sahələrinin müxtəlif yerlərində günəş enerjisi ilə qidalanan kiçik stansiyalar)" layihəsi ilə "Aqrar texnologiyalar" kateqoriyasında 73 finalçı arasında III yerə layiq görülüb. Komandaların səfər xərclərinə "Bayramlı Group" MMC əlavə dəstək verib.



## BDU-da Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fləşmob



***Mayın 11-də Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fləşmob keçirilib.***

Fləşmob iştirakçıları Universitetin həyətyanı ərazisində sonsuzluq işarəsi formasında düzülərək "Heydər Əliyev-100" şüarını səsləndiriblər.

Fləşmobda Universitetin 300-dən çox tələbəsi iştirak edib.

## Nazir Rəşad Nəbiyev qalib tələbələrlə görüşüb

***Mayın 13-də Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Türkiyənin İstanbul şəhərində keçirilən "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının azərbaycanlı qalibləri və Azərbaycan pavilyonunu təmsil edən startapçılarla görüşüb.***

Görüşdə Rəşad Nəbiyev qalibləri təbrik edərək bildirib ki, gənc nəslin aviasiya, kosmos, texnologiya sahələrinə yönəlməsi, bunun ümummilli hərəkata çevrilməsi və nəticədə kritik sahələrdə milli texnoloji həllərin yaranmasında "Teknofest" kimi təşəbbüslər xüsusi rola malikdir.

Nazir bu platformada təqdim olunan layihələrin gələcəkdə qlobal şirkətə, məhsula çevrilmək şansının yarandığını vurğulayıb. Diqqətə çatdırıb ki, festivalda iştirak edən, uğur qazanan gənclər yaşıdları üçün motivasiya mənbəyi olur və bu təsir dalğavari yayılaraq ümumilikdə gənc nəslin texnologiyalara marağının artmasına səbəb olur.

Görüşdə qalib komanda və startaplara sertifikatlar təqdim olunub.

Qeyd edək ki, "TEKNOFEST Türkiyə – 2023" çərçivəsində yarışmaların final mərhələsinə 100-dən çox tələbənin iştirak etdiyi 16 Azərbaycan komandası vəsiqə qazanıb. Layihələr üzrə birinci yerləri "Akıllı ulaşım" yarışmasında Bakı Dövlət Universitetinin "Driver's Eye" layihəsi və "ISIF 2023 Beynəlxalq Patentlər" yarışmasında "Yeni Texnologiyaların İnkişafına Dəstək" İctimai Birliyinin sədri Ceyhun Xəlilovun "İnventorlu elektrik requlyatoru" layihəsi, üçüncü yeri "Tarım teknolojisi" yarışmasında Bakı Dövlət Universitetinin "Ağıllı damla sulama sistemi" layihəsi qazanıb. Eyni zamanda Azərbaycan-Türkiyə gənclərindən ibarət "Ejder Drones" komandası "İnsanlıq yararına texnologiya" müsabiqəsinin "Fəlakətlərin idarə edilməsi" kateqoriyasında universitet və yuxarı səviyyə üzrə üçüncü yerə layiq görülüb.

"ONNO", "Uvodo", "WakeX" və "CustomAr" layihələri də Azərbaycan pavilyonunu təmsil edən startaplar sırasında olub.



**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.05 .2023

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08